Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 153 (7880) CÜMƏ, 13 iyul 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## “İlham Əliyevin dəstəyindən Türkiyə böyük güc və güvən aldı”

### Erkan ÖZORAL: “Azərbaycan Prezidentinin mövqeyi bütün dünyaya örnək oldu”

**Tarixin sınaqlarından daim üzüağ çıxmış Azərbaycan-Türkiyə münasibətləri ötən dövr ərzində daha da möhkəmlənərək ölkələr arasında strateji bağların yeni səviyyəyə yüksəlməsini təmin edib. Müasir dünya reallığında hər iki ölkənin ətrafında gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri isə daha mühüm əhəmiyyət kəsb edir.**

**Bu, 2016-cı ilin 15 iyulunda cərəyan edən proseslər fonunda bir daha öz təsdiqini tapdı. Azərbaycan dar günün də dostu olduğunu, ən yaxın müttəfiqinin dərdini hər zaman bölüşdüyünü, eyni zamanda, qardaş Türkiyəni heç zaman yalnız qoymayacağını bir daha nümayiş etdirdi.**

**Türkiyədə dövlət çevrilişi cəhdi nəticəsində baş verən proseslərə Prezident İlham Əliyevin dərhal sərt mövqe bildirməsi iki xalq arasında dostluğun, qardaşlığın, strateji tərəfdaşlığın möhkəm təməllər üzərində bərqərar olduğunun növbəti təsdiqi oldu.**

**Artıq həmin hadisələrdən iki il ötür. Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralla görüşüb iki il öncəki dövlət çevrilişinə cəhd və ondan sonrakı proseslər barədə söhbət etdik. Həmin müsahibəni təqdim edirik.**

*- 15 iyul qiyamının ümummilli etiraz dalğası ilə yatırılması Türkiyə xalqının müqəddəs zəfər dastanıdır. Həmin hadisələrdən 2 il ötür. Cənab səfir, bu hadisələrin yaranma səbəbləri, gedişi və nəticələri ilə bağlı fikrinizi bilmək maraqlı olardı.*

- 15 iyul Türkiyə müasir tarixinin ən böhranlı günü idi. Həmin gün baş verən hadisələr hər hansı siyasi partiyaya və ya şəxsə qarşı deyil, sözün tam mənasında, Türkiyənin çökdürülməsi məqsədinə xidmət edən FETÖ terror təşkilatının, xainlərin cəhdi idi. Bu, terror təşkilatının Türkiyədə dövləti tamamilə ələ keçirmə arzusu idi. Bu təşkilatın dövləti ələ keçirməyə çalışan, onun strukturlarında mühüm vəzifələr əldə etmiş vətən xainləri Türkiyəni zəiflətməklə regiondakı məkrli planları həyata keçirmək istəyirdilər.

Bu, Türkiyəyə qarşı ən böyük xəyanətdir. Əslində, 15 iyul hadisələri bizim yaşadıqlarımızın görünən tərəfidir. Aparılan əməliyyatlar nəticəsində məlum oldu ki, FETÖ terror təşkilatının etdikləri 15 iyul hadisələri ilə məhdudlaşmır.

Ardı 3-cü səh.

## Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya səfəri

### BMT baş katibinin siyasi məsələlər üzrə müavini ilə görüş



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə edildi. Həmçinin ATƏT-in həmsədr ölkələrinin nazirlərinin iyulun 11-də keçirilən görüşü barədə məlumat verildi və ətraflı fikir mübadiləsi aparıldı.

## İlham ƏLİYEV: “Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlikdə mühüm rol oynayır”





İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Prezident İlham Əliyev Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etmək üçün NATO-nun yeni mənzil-qərargahına gəldi.

Dövlətimizin başçısı burada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviç ilə görüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviçi Türkiyənin NATO-dakı ofisinə çay süfrəsinə dəvət etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etdi.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** tədbirdə çıxış edərək dedi:

- Cənab baş katib, xanımlar və cənablar.

Ardı 2-ci səh.



## Tərəfdaşlıq prioritetləri müəyyənləşdi

*Brüsseldə imzalanan yeni sənəd Azərbaycan-Avropa İttifaqı əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacaq*

*Son 15 ildə həyata keçirilən müstəqil siyasət, milli maraqlara əsaslanan uğurlu diplomatiya sayəsində Azərbaycan qlobal məkanda strateji əhəmiyyətli dövlətə çevrilib. Qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi beynəlxalq iqtisadi-siyasi proseslərdə aparıcı qüvvəyə çevrilən ölkəmizə maraq da ildən-ilə artır.*

Ardı 3-cü səh.

## Güvəncimiz Azərbaycan polisi

### Asayişin mərd keşikçilərinə əl qaldıranlar ən ağır cəzaya layiqdirlər



**Bu gün Azərbaycan dünya miqyasında sayılıb-seçilən, eləcə də öz sözünü deyə bilən ölkədir. Azərbaycan dövləti güclü iqtisadiyyat qura bilib. Bunun sayəsində ölkəmiz son illərdə dünyada baş verən maliyyə böhranlarından ən az itkilərlə çıxıb.**

Bu, iqtisadiyyatımızın daha dinamik inkişafına imkan yaradır. Azərbaycanda beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələri gerçəkləşdirilib. Təkcə son aylarda açılışı olan layihələri xatırlatmaq kifayətdir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, “Cənub qaz dəhlizi”nin dörd seqmentindən üçü artıq fəaliyyətdədir.

Bütün bunlar Azərbaycanın siyasi nüfuzunu da artırır. Prezident İlham Əliyevin dediyi kimi, “...bizim siyasi iradəmiz ən yüksək kürsülərdə özünü göstərir. Heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilməz. Bunun əsas səbəblərindən biri bizim iqtisadi gücümüz və iqtisadi müstəqilliyimizdir”.

Ən əsas şərtlərdən biri də Azərbaycan iqtidarının siyasi iradəsinin çox möhkəm olması, xalqla iqtidarın arasındakı birliyin sarsılmazlığıdır.

Lakin bütün bunları gözü götürməyənlər, ölkəmizin inkişafından narahat olan, uzağı görməyən, qara qəlbli və dar düşüncəli adamlar, dəstələr də var. Bu da bir həqiqətdir ki, beləlı həmişə xalqın istəyi və iradəsi qarşısında mənən məğlub olur, sıradan çıxırlar.

Heç uzağa getməyək, bir neçə ay əvvəl belə bədniyyətlilərin seçkiqabağı kampaniyaya kölgə salmaq cəhdlərini xatırlayaq. Əlbəttə ki, onların puç və yalan fikirləri xalq, cəmiyyət tərəfindən qəbul olunmadı, rədd edildi. Təsadüfi deyil ki, prezident seçkilərindən sonra müxalif dəstə keçirdiyi mitinqə min nəfər belə yığa bilmədi.

Ardı 5-ci səh.

## İqtisadi inkişaf və sosial ədalətin ilkin şərti - siyasi iradə

*Prezident İlham Əliyev bu iradəni hökumətin son iclasında bir daha nümayiş etdirdi*

Zamanın da bərəkəti qalmayıb. Başlaması ilə qurtarması bir olur. Heç bilmirsən günlər, aylar necə keçir. Budur, 2017-ci ili sanki dünən, srağagün yola salmışdıq, artıq 2018-ci ilin yarısı arxada qalıb. Və arxada qalıbsa, deməli, hesabat dövrü, görülmüş işləri yekunlaşdırmaq, görüləcək işləri müəyyənləşdirmək vaxtıdır.

Bu baxımdan Nazirlər Kabinetinin Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən ənənəvi hesabat iclaslarının təkcə hökumət və dövlət qurumları yox, hər bir ölkə vətəndaşı üçün xüsusi əhəmiyyəti var. Həmin əhəmiyyətin isə mahiyyəti ondan ibarətdir ki, məhz bu iclaslar zamanı hamımız ölkəmizin sosial-iqtisadi sahələrindəki vəziyyətdən təfsilatı ilə xəbər tutur, gündəlik həyatımızda, dolanışığımızda bəzən əhəmiyyət vermədiyimiz, bəzən də fərqinə varmadığımız dəyişikliklərin səbəblərini bilir, yaxın gələcəkdə xalqımızı və Azərbaycanı nələr gözlədiyini, yəni, dövlətin və hökumətin hədəflərini öyrənirik.

Ardı 3-cü səh.

# *İlham ƏLİYEV:* "Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlikdə mühüm rol oynayır"





*Əvvəli 1-ci səh.*

Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır. 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət edirlər. 2018-ci ilin yanvar ayından Azərbaycan Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb.

Azərbaycan bir neçə dəfə Əfqanıstan Milli Ordusu üçün Etimad Fonduna maliyyə dəstəyi göstərib. Biz Azərbaycanda Əfqanıstan Ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edirik. Özündə 200-dən çox ictimai xidməti birləşdirən "ASAN xidmət" Əfqanıstanda tətbiq olunur.

Azərbaycan Qətiyyətli Dəstək missiyasına nəqliyyat və logistik dəstək də göstərir. Ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi bu missiyaya tranzit dəstəyi göstərilməsinə böyük dərəcədə kömək edib.

Ötən il Azərbaycan "Asiyanın Qəlbi - İstanbul Prosesi"nə həmsədrlik, keçən ay isə Beynəlxalq Təmas Qrupunun toplantısına evsahibliyi edib.

Ermənistanın təcavüzündən əziyyət çəkən və bu təcavüz nəticəsində beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunmuş, bir milyon soydaşına qarşı məlum acınacaqlı etnik təmizləmə törədilmiş Azərbaycan işğalın və dağıntının iqtisadi və humanitar nəticələrini yaxşı anlayır.

Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan Əfqanıstanın üzləşdiyi təhlükəsizlik təhdidlərinin aradan qaldırması, ölkədə sülh və inkişafın əldə edilməsi işinə köməyini bundan sonra da davam etdirəcək.

* * *

İyulun 12-də Prezident İlham Əliyevin Belçikaya səfəri başa çatıb.

## Monteneqronun Prezidenti zati-aliləri cənab Milo Cukanoviçə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Monteneqro arasındakı dostluq əlaqələri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2018-ci il*

## NATO-nun Zirvə toplantısının yekun kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstək ifadə olunub

NATO üzv dövlətləri Brüsseldə keçirilən Zirvə toplantısının yekununda qəbul etdikləri kommunikedə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin bu prinsiplər əsasında həllinə dəstək ifadə ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yayıb.

Bəyanatda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak edib. Dövlətimizin başçısı iclasda çıxış edib.

Bəyanatda qeyd edilir ki, 2006-cı ildən başlayaraq NATO üzv dövlətləri Zirvə toplantılarının yekununda qəbul olunan bəyanatlarda Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə davamlı olaraq dəstəklərini ifadə edirlər.

Azərbaycan Respublikası Avropa İttifaqı və NATO üzv dövlətləri tərəfindən müvafiq olaraq Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri Sənədi və NATO-nun Brüssel Zirvə toplantısının kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə, o cümlədən sərhədlərinin toxunulmazlığına hörmət və dəstəyin ifadə olunmasını təqdir edir.

Beynəlxalq hüququn norma və prinsipləri, Helsinki Yekun Aktı əsasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstək beynəlxalq münasibətlərin əsasını təşkil edir, davamlı sülh və təhlükəsizliyi şərtləndirən vacib amildir.

## Azərbaycanın xarici işlər və müdafiə nazirləri ABŞ-dan olan həmkarları ilə görüşüblər



İyulun 12-də NATO-nun Brüsseldə keçirilən Zirvə toplantısı çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və müdafiə naziri Zakir Həsənov Amerika Birləşmiş Ştatlarının dövlət katibi Mayk Pompeo və müdafiə naziri Ceyms Mattis ilə görüşüblər.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Uess Mitçel, Milli Təhlükəsizlik Şurasında baş direktor Fiona Hill, Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov və NATO yanında nümayəndəliyinin başçısı vəzifəsini icra edən Qaya Məmmədov iştirak ediblər.

Tərəflər Azərbaycan və ABŞ arasında tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə ediblər. Nazir Elmar Məmmədyarov NATO-nun Brüssel Sammitinin Yekun Kommunikesində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə təkrar ifadə olunan dəstəyin vacibliyini diqqətə çatdırıb.

Söhbət əsnasında regional məsələlərə dair fikir mübadiləsi aparılıb və ABŞ tərəfi NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyasına və terrorizmə qarşı mübarizədə göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.

Elmar Məmmədyarov həmkarına iyulun 11-də ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Brüsseldə Ermənistan xarici işlər naziri ilə keçirdiyi görüş barədə məlumat verib.

Xarici işlər naziri Elmar Məmmədyarov və müdafiə naziri Zakir Həsənov ABŞ-dan olan həmkarlarını Azərbaycana səfərə dəvət ediblər və onlar dəvəti məmnuniyyətlə qəbul ediblər.

## Brüsseldə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunub



İyulun 11-də Brüsseldə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın ATƏT-in Minsk qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya, Stefan Viskonti - Fransa və Əndrü Sxofer - ABŞ) vasitəçiliyi ilə ilk görüşü keçirilib. Görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak edib. Görüş 4 saata yaxın müddətdə davam edib. Bundan əvvəl xarici işlər naziri Elmar Məmmədyarov ilə həmsədrlər arasında ayrıca görüş keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev AZƏRTAC-a bildirib ki, görüş əsnasında Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətraflı müzakirə olunub və mövcud danışıqlar formatının davam etdirilməsi qeyd edilib. Həmçinin danışıqlar prosesinin irəli aparılması üçün növbəti addımlara və həmsədrlərinin fəaliyyət planlarına dair fikir mübadiləsi aparılıb.

## *Hikmət HACIYEV:* "Ermənistan rəhbərliyi beynəlxalq ictimaiyyəti aldatmağa çalışır"

Ermənistanın baş nazirinin Brüsseldə keçirdiyi görüşlərdə Ermənistan-Azərbaycan sərhədi və qoşunların təmas xəttində guya gərginliyin artması barədə verdiyi məlumatlar yalan və dezinformasiyadır.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldəki görüşlərində səsləndirdiyi fikirləri şərh edərkən bildirib.

Hikmət Hacıyev deyib ki, real operativ vəziyyət və mövcud faktlar bunun tamamilə əksini sübut edir. Bu yolla Ermənistan rəhbərliyi beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Amma beynəlxalq ictimaiyyət real vəziyyət barədə dolğun və düzgün məlumata malikdir. Ermənistanın baş nazirinin bu kimi fəaliyyəti yalnız daxili istehlaka yönəlib və qeyri-legitim hakimiyyətini qorumaq məqsədi daşıyır. Eyforiya dövrü artıq başa çatmaqdadır. Paşinyan Ermənistanla heç bir əlaqəsi olmayan demokratiya və insan hüquqlarından danışaraq özünün demokratiya deyil, dövlət çevrilişi yolu ilə hakimiyyətə gəlməsinə bəraət qazandırmağa çalışır. Ermənistanın rəhbərliyinə artıq ayılmağı və reallığı anlamağı tövsiyə edərdik. Reallıq odur ki, Ermənistanın üzləşdiyi problemlərin kökündə qonşulara münasibətdə yürütdüyü sui-qəsd xarakterli siyasət durur. Bu siyasət Ermənistanın müstəqilliyi və suverenliyini viran edir və Ermənistanı yoxsulluq və qeyri-sabitlik uçurumuna aparır.

## Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə yeni avtobuslar verilib

Muxtar respublikada müasir avtobusların alınaraq xəttə buraxılması və tələbata uyğun hərəkət qrafikinin seçilməsi sərnişindaşıma xidmətinin səviyyəsini xeyli artırıb.





İyulun 12-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 5 yeni avtobus təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov çıxış edərək deyib ki, muxtar respublikada nəqliyyatın inkişafı sahəsində kompleks tədbirlər görülür. Sərnişindaşıma ilə məşğul olan avtobusların hərəkət qrafikinə nəzarət olunur, şəhərdaxili və rayonlararası marşrutlar müasir avtobuslarla təmin olunur. Hazırda 6 avtobus Naxçıvan-Bakı və Naxçıvan-İğdır istiqamətində, 56 avtobus isə Naxçıvan şəhərində 8 marşrut xətti üzrə fəaliyyət göstərir. Yeni alınan avtobuslar Naxçıvan şəhərində sərnişindaşıma xidmətinin səviyyəsini daha da artıracaqdır. Mirsənani Seyidov nəqliyyatın inkişafına göstərdiyi qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: "Muxtar respublikada bütün sahələrdə inkişaf və tərəqqi vardır. Bu inkişaf və tərəqqi insanların rahat yaşayışına və rifahına xidmət edir. Yeni avtobusların alınıb istifadəyə verilməsi də əhalinin rahat hərəkətinin təmin olunmasına, eləcə də sərnişindaşıma xidmətinin nümunəvi təşkilinə hesablanmışdır".

Ali Məclisin Sədri deyib ki, Ordubad Dəmiryol Stansiyasının istifadəyə verilməsi, yeni sərnişin qatarlarının alınıb gətirilməsi və bu gün müasir avtobusların təqdim olunması muxtar respublikada nəqliyyatın inkişafı sahəsində görülən işlərin davamıdır: "Cəmiyyətin bütün təbəqələri nəqliyyat sahəsindən istifadə edir. Ona görə də nəqliyyat sistemi və bu sahə üzrə göstərilən xidmət nümunəvi təşkil olunmalı, nəqliyyat vasitələri müasir tələblərə cavab verməlidir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutlarla təmin olunub. Hazırda muxtar respublikada 139 marşrut xəttində 400-ə yaxın avtobusla sərnişindaşıma xidməti həyata keçirilir. Bütün bunlar da əhalinin rahat və təhlükəsiz hərəkətinin təmin olunmasına, istehsal etdikləri məhsulları vaxtında bazara çıxarmalarına imkan verir".

Ali Məclisin Sədri deyib: "Nəqliyyatın inkişafı günün tələbidir. Muxtar respublikada da nəqliyyat sisteminin müasirləşdirilməsi qarşıda duran əsas vəzifədir. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bu sahədə ardıcıl tədbirlər görülür, marşrut xətlərində fəaliyyət göstərən avtobuslar yenilənir. Bu gün təqdim olunan avtobuslar da muxtar respublikanın vəsaiti hesabına alınıb gətirilib. Yeni avtobusların alınması hesabına həm də yeni iş yerləri açılıb. Ona görə də avtobuslardan səmərəli və uzun müddət istifadə olunmalı, onlar qorunmalı, əhaliyə nümunəvi xidmət göstərilməlidir".

Ali Məclisin Sədri avtobusların xəttə buraxılması və yeni iş yerlərinin açılması münasibətilə kollektivi və sürücüləri təbrik edib.

Sonra Ali Məclisin Sədri açarları sürücülərə təqdim edib və avtobuslara baxıb.

Məlumat verilib ki, yeni alınan "KİNG-LONG XMQ 52" markalı 5 avtobusun hər biri 22-si oturacaq, 20-si ayaqüstü olmaqla 42 sərnişin yerlikdir. Şəhərdaxili yollarda hərəkət üçün xüsusi dizayn olunan avtobuslar mexaniki sürət qutusu ilə təchiz edilib. Dizel yanacağı ilə işləyən avtobusların mühərriki AVRO 4 standartına uyğundur. Avtobusların geniş salonunda sərnişinlərin rahatlığı nəzərə alınıb, havalandırma yeri və 9 siyirməli şüşə, eləcə də 2 elektron məlumat tablosu quraşdırılıb.

## Gəncə hadisələri ilə əlaqədar yaradılmış istintaq-əməliyyat qrupunun rəhbərliyi və üzvləri ilə geniş müşavirə keçirilib

### *Gəncədə qanlı cinayəti törədənlərdən 9 nəfər tutularaq barələrində məhkəmənin hökmü ilə həbs qətimkan tədbiri seçilib*

İyulun 12-də Azərbaycan Respublikasının baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralov, daxili işlər naziri, general-polkovnik Ramil Usubov və Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev Gəncəyə gedərək orada baş vermiş məlum hadisələrlə əlaqədar yaradılmış istintaq-əməliyyat qrupunun rəhbərliyi və üzvləri ilə geniş müşavirə keçirib, görülən işlər barədə hesabatlarını dinləyiblər.

Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında qeyd olunub ki, həmin qanlı cinayəti törədənlərdən 9 nəfərin tutularaq barələrində məhkəmənin hökmü ilə həbs qətimkan tədbiri seçildiyi məruzə olunub.

Dövlət qurumlarının rəhbərləri cinayətin digər iştirakçılarının da tapılıb-tutulması üçün istintaq hərəkətlərinin intensivliyinin artırılması, əməliyyat-axtarış tədbirlərinin gücləndirilməsi ilə bağlı əlavə tapşırıqlar veriblər.

Müşavirədən sonra baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov və Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev iyulun 10-da radikal dini yönümlü şəxslərin Gəncədə asayişi kobud şəkildə pozmasının qarşısını alarkən şəhid olmuş polis polkovniki İlqar Balakişiyevin və polis polkovnik-leytenantı Səməd Abbasovun yas mərasimlərində iştirak ediblər. Onlar Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, polis əməkdaşlarının ailələrinə və yaxınlarına dövlət başçısının başsağlığını çatdırıb, kədərlərinə şərik olublar.

## Federika Moqerini Nikol Paşinyanı "ayıldıb"

NATO üzv dövlətlərinin Zirvə toplantısında iştirak etmək üçün Belçika paytaxtında səfərdə olan Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Moqerini ilə görüşündə günəşli Ermənistandan gəlmiş qonaq gözlənilmədən Brüsselin soyuq duşuna məruz qalıb.

Aİ-nin görüşdən dərhal sonra yaydığı mətbuat üçün açıqlamada bildirilir ki, Avropa İttifaqı və təşkilatın ali nümayəndəsi - vitse-prezidenti ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Dağlıq Qarabağ (Ermənistan-Azərbaycan, AZƏRTAC-ın qeydi) münaqişəsinin sülh yolu ilə həllini dəstəkləyir. Xüsusi olaraq vurğulanır ki, "bu kontekstdə danışıqlarda qeyd-şərtsiz olaraq tərəflərin tam iştirakı zəruridir. (bax: https://eeas.europa.eu/headquarters/headquarters-homepage/48279/hrvp-federica-mogherini-meets-armenian-prime-minister-nikol-pashinyan_en?src=ilaw).

Bu fikirlər Brüsselin diplomatik məsələlərdə hələ kifayət qədər təcrübəsi olmayan Nikol Paşinyana açıq mesajı və uşaqcasına "Artsax hakimiyyəti adından və onun əvəzinə" danışıqlar aparılmayacağı ilə hədələyən Ermənistanın baş nazirinə cəfəngiyyatla məşğul olmamaqla bağlı xeyirxah məsləhətidir.

Beləliklə, Brüssel Ermənistanın yeni baş nazirinin ilk xarici səfərini (Moskva forpost üçün xarici ölkə deyil) qısa diplomatiya kursu ilə qeyd edib və ona xatırladırıq ki, münaqişə tərəfi kimi heç bir "artsax"dan söhbət getmir və gedə bilməz. Bakı ilə danışıqları isə o, əlbəttə, prosesi birdəfəlik dəfn etmək və münaqişənin qeyri-diplomatik həlli üçün yol açmaq istəmirsə, Ermənistanın lideri kimi özü aparmalı olacaq.

Çox ümid edirik ki, evinə dönən Paşinyanın yol boyu görüşün yekunlarını götür-qoy etmək üçün kifayət qədər vaxtı olacaq və onun ağlı başına gələcək.

# “İlham Əliyevin dəstəyindən Türkiyə böyük güc və güvən aldı”

## Erkan ÖZORAL: “Azərbaycan Prezidentinin mövqeyi bütün dünyaya örnək oldu”

Əvvəli 1-ci səh.



Bundan əvvəl də hakimiyyəti ələ keçirmək üçün Türkiyənin aparıcı hüquq mühafizə orqanlarına necə daxil olduqlarına dair faktlar aşkarlandı. Əslində, 15 iyul hadisələri 40 il ərzində Türkiyəyə qarşı hazırlanmış böyük bir xəyanətin ən son halqasıdır. Bu hadisələr zamanı xalq meydanlara axışaraq öz mövqeyini nümayiş etdirdi, siyasi partiyalar, media və qeyri-hökumət təşkilatları dövlətin yanında oldu. Millətimizin qəhrəmanlığını və gücünü yaxşı hesablaya bilməyənlər 15 iyulda acınacaqlı məğlubiyyətə uğradılar.

*- Türkiyə Cümhuriyyəti demokratiya üçün çox ciddi təhlükəni sovuşdurdu. Sizcə türk milləti 15 iyul imtahanından necə çıxdı?*

- O gecə çevrilişə cəhd göstərənlərin törətdikləri vəhşiliyin tayı-bərabəri yox idi. 15 iyul dönüş nöqtəsi oldu. Bu hadisə Türkiyə demokratiyası üçün mühüm sınaq oldu. Türk milləti 15 iyul imtahanından çox böyük uğurla keçdi. Bunun ən böyük sübutu 251 şəhidin olmasıdır. Xalqımız dövlətini, gələcəyini qorumaq üçün həmin gecə küçələrə axışdı. Silaha qarşı vücudunu sipər etdi. Şəhidlərin və minlərlə yaralıların olması bu imtahandan uğurla çıxmağın ən böyük sübutudur.

*- Ölkənizdə bu terror təşkilatının üzvlərinin ədalət mühakiməsinə cəlb olunması istiqamətində qətiyyətli tədbirlər hələ də davam etdirilir. Bununla bağlı nə kimi yeniliklər var?*

- Türkiyədə bununla bağlı qətiyyətli tədbirlər davam etdirilir. Dövləti ələ keçirməyə çalışan FETÖ terror təşkilatına qarşı genişmiqyaslı təmizləmə əməliyyatları uğurla gedir. Bu əməliyyatlar hüquq çərçivəsində polis qüvvələri və müstəqil məhkəmə orqanları tərəfindən qətiyyətlə həyata keçirilir. İndiyə kimi bir çox xəyanətkarlara ömürlük həbs cəzaları verilib. Onların etdikləri tək dövlət çevrilişi ilə məhdudlaşmır. Burada dövlət imtahanlarında verilən sualları oğurlamaq kimi məsələlər də yer alır. Bir məqamı diqqətinizə çatdırmaq istərdim ki, təkcə Polis Akademiyasına 2010-cu ildə daxil olanların 90 faizdən çoxu bunların öz istədikləri olub. Vəziyyət çox acınacaqlı hal almışdı.

Hazırda təkcə hüquq muhafizə orqanlarında deyil, bütün dövlət qurumlarında FETÖ mənsublarının təmizləmə işləri aparılır. Türkiyə bu prosesdən həm demokratiyasını gücləndirərək, həm də sistematik yalnışlıqlarını müəyyənləşdirib aradan qaldıraraq çıxır və yoluna davam edir.

*- Həmin qiyam cəhdi zamanı Azərbaycan Prezidenti İlham Əliyev dərhal bu hadisəni birmənalı şəkildə dövlət çevrilişi cəhdi kimi qiymətləndirərək qətiyyətlə pislədi, onu Türkiyə xalqının milli maraqlarına, ölkənin demokratik əsaslarına qəsd kimi dəyərləndirdi. Eyni zamanda ölkəmizdə FETÖ-nün sızıntılarına qarşı genişmiqyaslı təcrid prosesi aparıldı. Azərbaycan Prezidentinin bu prinsipial mövqeyi Türkiyədə necə qarşılandı?*

- Azərbaycan Prezidenti İlham Əliyevin qardaş ölkəyə qarşı bu həmrəyliyi Türkiyədə böyük rəğbətlə qarşılandı. Bu dəstək bizim üçün çox önəmli idi. Azərbaycan və onun lideri İlham Əliyev hər zaman olduğu kimi, bu dəfə də qardaş Türkiyənin yanında oldu. Bu dəstəkdən böyük güc və güvən aldıq. Amma qardaşlıq həmrəyliyi nümayiş etdirməsindən daha çox İlham Əliyevin mövqeyinin bütün dünyaya örnək göstərilməli olan digər bir cəhəti də var. O da budur ki, Azərbaycan birmənalı olaraq Türkiyədə demokratiyanın, hakimiyyətin xalqa məxsusluğu prinsipinin tərəfində durdu.

Azərbaycanda FETÖ mənsublarına qarşı görülən tədbirlər Türkiyədə çox böyük təqdirlə qarşılandı. Bunu həmişə vurğulayıram ki, Azərbaycan və Türkiyə bütün məqamlarda bir-birinin yanındadır. Amma bu məsələdə Azərbaycan dünyaya demokratiya dərsi verdi. Azərbaycan həqiqətin tərəfində durdu və ilk anlardan etibarən Türkiyə ilə möhkəm həmrəylik nümayiş etdirdi. Bir neçə gün öncə Türkiyə Prezidenti R.T.Ərdoğan seçkilərdən sonra Azərbaycana ilk rəsmi səfərində bu məsələdə də göstərilən dəstəyə görə cənab İlham Əliyevə təşəkkürünü bildirdi.

*- Azərbaycanla Türkiyə arasındakı münasibətlərə töhfə verən mühüm məqamlardan biri də seçkilərdən sonra dövlət başçılarının etdikləri səfərlərdir. Azərbaycan Prezidenti seçkilərdən sonra ilk səfərini Türkiyəyə, qardaş ölkənin rəhbəri isə Azərbaycana edir. Bu qardaş ölkənin siyasi elitasında necə qiymətləndirilir?*

- Səmimi dostluq, strateji tərəfdaşlıq üzərində köklənən Azərbaycan-Türkiyə münasibətləri zaman keçdikcə daha da möhkəmlənir, tarixin bütün sınaqlarından böyük uğurla çıxır. Qarşılıqlı münasibətlərin daim yüksək səviyyədə saxlanılması, milli maraqları əhatə edən məsələlərdə tərəflərin bir-birini möhkəm müdafiə etməsi isə Azərbaycan və Türkiyə prezidentlərinin həyata keçirdikləri uğurlu siyasətin məntiqi nəticəsidir.

Türkiyə ilə Azərbaycan arasında qardaşlıq münasibətləri strateji münasibətlərdən daha irəlidədir. Münasibətlərə rəmzi baxımdan xüsusi gözəllik qatan mühüm məqamlardan biri də seçkilərdən sonra dövlət başçılarının etdikləri səfərlərdir. Azərbaycan Prezidenti seçkilərdən sonra ilk səfərini Türkiyəyə, qardaş ölkənin rəhbəri isə Azərbaycana edir. Bu qarşılıqlı səfərlər Türkiyədə çox böyük sevinc yaradır, qürur və rəğbətlə qarşılanır. İlham Əliyev kimi qardaşımızın olmağı bizdə hər zaman güvən yaradıb.

*- Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin inkişafında və daha da güclənməsində diplomatların da mühüm rolu var. Sizin diplomatik fəaliyyətinizdə ötən müddət ərzində nə kimi yeniliklər olub?*

- Artıq 2 ildir Azərbaycanda səfir kimi fəaliyyət göstərirəm. Bu müddət ərzində dostluq və qardaşlığımız daha da güclənərək davam edib. Ölkələrimiz arasında hər bir sahədə, bütün istiqamətlərdə sıx əlaqələr qurulub. Sevindirici haldır ki, mənim fəaliyyət müddətimdə çox mühüm hadisələr yaşandı. Uzun müddətdir tamamlanmasını gözlədiyimiz Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildi. Bu dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrildi. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək.

Eyni zamanda fəaliyyət dövrümdə Xəzər regionu ilə Avropanı birləşdirən “Cənub qaz dəhlizi”nin mühüm tərkib hissələrindən biri olan TANAP kəmərinin istifadəyə verilməsi də ən böyük tarixi hadisələrdən biridir. Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə kimi qiymətləndirilən TANAP-a indi dünya miqyasında böyük maraq müşahidə edilir. Bütün bunların mənim fəaliyyət müddətimə təsadüf etməsi böyük şərəfdir.

***Müsahibəni apardı:***
***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Əli ƏHMƏDOV: “BMT 17 Dayanıqlı İnkişaf Məqsədinə nailolma istiqamətində Azərbaycanın səylərini dəstəkləyir”





İyulun 12-də IDEA İctimai Birliyi, BMT-nin İctimai İnformasiya Departamentinin birgə təşkilatçılığı və Azərbaycan Gənclər Fondunun dəstəyi ilə Dənizkənarı Milli Parkda “BMT-2030” Dayanıqlı İnkişaf Məqsədlərinin əks olunduğu stendlərin açılış mərasimi keçirilib.

Tədbirdə Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov bildirib ki, hazırda dünyada bəzi ölkələr və xalqlar müxtəlif əziyyətlərə məhkum olublar, iqtisadi cəhətdən bir çox dövlətlər geridə qalıblar, müxtəlif ölkələrdə insanlar aclıqdan, yoxsulluqdan əziyyət çəkirlər. Bir sıra yerlərdə xəstəliklər geniş yayılıb və bu da insanlar üçün məhdudiyyətlərə səbəb olur. Bəzi ölkələrdə təhlükəsizlik məsələləri ilə əlaqədar ciddi problemlər mövcuddur. Qaçqınlar problemi hazırda dünyanı narahat edən məsələlərdən birinə çevrilib. Beləliklə də BMT dünyamızın simasının dəyişdirilməsi, iqtisadi gerilikdən əziyyət çəkən dövlətlərin iqtisadi cəhətdən inkişaf etdirilməsi, yoxsulluqdan əziyyət çəkənlərin bundan xilas olması, xəstəliklərdən əziyyət çəkən ölkələrdə xəstəliklərin kökünün kəsilməsi və bütövlükdə dünyada iqtisadi inkişafın, ədalətin təmin edilməsi məqsədlərini 2030-cu ilədək hədəfə götürən 17 məqsəd və 169 hədəf müəyyənləşdirib. Azərbaycan da daxil olmaqla 2015-ci il sentyabrın 25-də BMT-nin 193 üzv dövləti “2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi”ni qəbul edib. Prezidentin sərəncamı ilə Azərbaycanda bu layihənin həyata keçirilməsi məqsədilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Hazırda BMT-nin 18 rezident və qeyri-rezident agentliyi hökumətlə yaxından əməkdaşlığı davam etdirir və 17 Dayanıqlı İnkişaf Məqsədinə nailolma istiqamətində Azərbaycanın səylərini dəstəkləyir.

“Bizim istəyimiz ondan ibarətdir ki, həm dövlət, həm ictimai qurumlar, həm də vətəndaşlar bu məqsədlərin həyata keçirilməsinə cəlb edilsinlər”, - deyən Ə.Əhmədov bildirib ki, buna görə də təşviqat kampaniyası çox mühüm əhəmiyyət kəsb edir. Biz istəyirik ki, Azərbaycanın hər bir vətəndaşı dünyanın dəyişdirilməsi məqsədindən ibarət olan Dayanıqlı İnkişaf Məqsədləri və hədəflərinin mahiyyətini dərk etsinlər. Qarşımızda duran vəzifələrin nədən ibarət olduğunu anlasın və öz imkanları çərçivəsində dövlətin və hökumətin bu istiqamətdə həyata keçirdiyi bütün vəzifələri dəstəkləməyə hazır olsunlar. Vətəndaşlarımız bilməlidirlər ki, bu məqsədlər nəyə xidmət edir, qarşıya qoyulan hədəflər nədən ibarətdir və bunların həyata keçirilməsi üçün onların üzərinə düşən vəzifələr nələrdir? Bu, çox maraqlı bir ideyadır. Dənizkənarı Milli Parkda gəzən insanlar Dayanıqlı İnkişaf Məqsədlərinin və hədəflərinin nədən ibarət olduğunu biləcəklər. Məqsədin bütün insanların həyat səviyyəsinin yaxşılaşdırılmasından ibarət olduğunu dərk edən insanlar təbii ki, bu ideyanın reallığa çevrilməsinə öz dəstəklərini verəcəklər.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və hədəflər barədə danışan Qulam İshaqzai isə qeyd edib ki, Bakı sakinlərinin və turistlərin ən çox ziyarət etdiyi Dənizkənarı Milli Parkda belə stendlərin quraşdırılmasında məqsəd Azərbaycan ictimaiyyətinin və sıravi insanların BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri barədə daha geniş məlumat əldə etməsidir. O bildirib ki, stendlər BMT-nin Azərbaycandakı nümayəndəliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və IDEA İctimai Birliyinin təşəbbüsü ilə quraşdırılıb. Stendlərdə 17 ümumbəşəri dayanıqlı inkişaf məqsədi əks olunub.

# İqtisadi inkişaf və sosial ədalətin ilkin şərti - siyasi iradə

## *Prezident İlham Əliyev bu iradəni hökumətin son iclasında bir daha nümayiş etdirdi*

Əvvəli 1-ci səh.

Nazirlər Kabinetinin cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilən iclası da bu mənada istisna olmadı. Əgər bu iclası digərlərindən fərqləndirən, daha doğrusu, istisna edən bir cəhət oldusa, o da 4 gün əvvəl dövlət başçısının yanında ölkənin enerji sistemində yaranmış vəziyyətlə bağlı müşavirənin keçirilməsi idi. Bəri başdan deyək ki, Prezident hökumətin son iclasında bu məsələyə yenidən qayıtdı və bununla bir daha sübut etdi ki, baş vermiş məlum qəza nəticəsində bir neçə saatlıq olsa belə, ölkənin enerji təchizatında yaranmış vəziyyətlə heç cür barışmır və problemin səbəblərinin təcili aradan qaldırılmasında israrlıdır: “...baş vermiş qəza onu göstərir ki, bizim enerji təsərrüfatımızda çox böyük problemlər, qüsurlar var. Bir daha demək istəyirəm ki, bir qəzaya görə bütün enerji sistemi çökməməlidir... Bunun heç cür izahatı ola bilməz. Mən heç bir izahat qəbul etmirəm”. Eyni zamanda, Prezidentin bu məsələdə də təmkin nümayiş etdirməsi, tələskənliyə yol verib günahsızları cəzalandırmaqdan uzaq olması açıq-aydın görünür: “Bu gün işləyən komissiya yaxın gələcəkdə öz rəyini verəcək. Mingəçevirə ekspertlər qrupu ezam edilmişdir. Onlar da öz sözünü deyəcəklər. Biz qəzanın səbəblərini əlbəttə ki, tam dəqiqliyi ilə bilməliyik... Bütün işlərdə biz ədalətli olmalıyıq. Kimisə cəzalandıranda, kiməsə təşəkkür edəndə ədalət, dəqiq informasiya, təhlil olmalıdır”.

Onu da qeyd edək ki, dövlət başçısının hökumətin budəfəki iclasında iradları təkcə enerji təchizatı sistemindəki mövcud vəziyyətlə bağlı deyildi. Prezident hansı sahədəki vəziyyətdən söz açdısa, oradakı müsbət tərəflərlə yanaşı, çatışmazlıqları və problemləri də qeyd etdi, onların təcili aradan qaldırılmasının vacibliyini və əks halda, təqsirkarların cəzalandırılacağını vurğuladı. Götürək tikinti sahəsini. “Narahatlıq doğuran sahələrdən biri də inşaat sektorudur. Son illər bu sahədə böyük işlər görülüb. Azərbaycanın demək olar ki, bütün şəhərləri tikinti meydançasına çevrilib. Həm dövlət kapital qoyuluşu, həm də özəl sektor tərəfindən qoyulan investisiyalar inşaat sektorunun inkişafına böyük təkan vermişdir” - deyən dövlət başçısı bu sektordakı çatışmazlıqlara da obyektiv və prinsipial qiymət verdi: “Ancaq biz nəyi görürük? Bir çox hallarda aparılan tikintilər heç bir meyara sığmır, nə şəhərsalma meyarlarına, nə tikinti meyarlarına... Buna son qoymaq üçün çox ciddi tədbirlər görülməlidir və qanunsuz tikililərə son qoyulmalıdır. Qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi cəzalandırılacaqlar. Mən deyirəm, bunu hamı bilsin”.

Dövlət başçısının bu qətiyyətini onun paytaxtın nəqliyyat sektorundakı problemlərdən söz açarkən də görmək mümkündür. Bəzən çoxumuza elə gəlir ki, Prezidentin xalqı rahatsız edən bir çox məsələlərdən, camaatın şikayətçi olduğu bəzi sahələrdən xəbəri yoxdur. Amma elə deyil. Dövlət başçısı dəfələrlə sübut edib ki, onun ən çox diqqət yetirdiyi, məşğul olduğu işlər arasında birbaşa xalqa aid olan məsələlər ön sıradadır. Bakının nəqliyyat sektorundakı vəziyyət də onlardan biridir və Prezident hökumətin son iclasında bu sahəyə nahaqdan iradlarını bildirmədi: “Dayanacağın yerində binalar tikirlər... Rayon icra hakimiyyətləri dayanacaqların yerini zəbt edir, hasarlayır, o yeri satır və demək olar ki, şəhər nəqliyyatını iflic vəziyyətə salırlar... Ancaq mən deyirəm ki, şəhər nəqliyyatı hamımız üçün rahat bir nəqliyyat olmalıdır. Şəhərsalma qaydaları elə qoyulmalıdır ki, şəhər nəqliyyatına əngəl törətməsin, əksinə, buna kömək göstərsin”. Yəqin ki, dövlət başçısının əsasən yerli icra orqanlarının ünvanlarına söylədiyi bu kəskin tənqidi əlavə şərh etməyə ehtiyac yoxdur. Ehtiyac olan nə isə varsa, o da rayon və şəhər icra hakimiyyətlərinin həmin tənqiddən nəticə çıxarmalarıdır. Əks halda, onları ciddi cəza gözlədiyinə şübhə etməsinlər.

Ən azından, əhalinin sosial müdafiəsi sahəsində buraxılan səhvlərə görə məlum nazirliyin rəhbərliyinin vəzifədən azad olunmasını unutmasınlar. Unutmasınlar ki, dövlət başçısı kadrlara münasibətdə nə qədər humanist və ədalətlidirsə, bir o qədər tələbkar və prinsipialdır, xüsusən də söhbət xalqın birbaşa güzəranına və dolanışığına təsir edən sosial məsələlərdən gedəndə. “Sosial təminat sahəsində də ciddi islahatlar aparılmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni rəhbərliyi qarşısında belə vəzifələr qoyulub. Bu sahədə buraxılmış səhvlər, pozuntular tam aradan qaldırılmalıdır. Sosial ədalət tam bərqərar olmalıdır və şəffaflıq tam təmin edilməlidir...” - deyən Prezident sözügedən müşavirədə keçmiş rəhbərlik vaxtı buraxılmış səhvlərə də aydınlıq gətirdi: “...bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə sosial cəhətdən az təmin edilmiş vətəndaş. Məhz buna görə biz ünvanlı sosial yardım sisteminə keçmişik. Məhz buna görə yüz minlərlə ailə dövlətdən bu təminatı alır. Ancaq bir çox hallarda vətəndaşların hüquqları pozulur, ədalətsizlik hökm sürür, yardıma ehtiyacı olan yardım almır, yardıma ehtiyacı olmayan yardım alır və ondan sonra o vəsaiti dövlət məmurları ilə bölüşür. Belə hallar çoxdur, indi ciddi araşdırmalar aparılır”. Araşdırmalar aparılırsa, deməli, günahı olanlar tezliklə müəyyən ediləcək və onlar layiqli cəzalarını alacaqlar.

Amma başlıcası, bu cür cəzalardan başqalarının dərs götürmələridir. Təəssüf ki, tamah və nəfs bir çoxlarına “öz böyük qardaşının çıxan gözü”ndən dərs götürməyə imkan vermir. Versəydi, gör neçə ildir ölkədə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə yox, müharibə elan edilib, haram tikəyə əl uzadan olmazdı. Təəssüf ki, beləlləri hələ də var və onlar yenə də ən yüksək səviyyədə hədəfdə olduqlarını anlamırlar: “Korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da çox ciddi mübarizə aparılacaq” - söyləyən Prezident bu mübarizədə əlavə vasitələrdən istifadə olunmasının vacibliyini də önə çəkir. Həmin vasitələrdən biri institusional mexanizmlər, digəri isə beynəlxalq təcrübədir: “Biz elə etməliyik ki, korrupsiya hallarının baş verməməsi üçün institusional mexanizmlər işə düşsün... Misal üçün, ictimai xidmətlər sahəsində “ASAN xidmət” korrupsiyadan tam azad bir qurumdur... Ancaq onu da deməliyəm ki, bəzi hallarda inzibati cəza tədbirləri işləmir. Ona görə də ən ciddi beynəlxalq təcrübə tətbiq edilməlidir. Dünyanın aparıcı ölkələrində bu sahədə hansı yollarla mübarizə aparılırsa, Azərbaycanda da həmin yollarla mübarizə aparılmalıdır”. Ümumiyyətlə, Azərbaycanda əksər sahələr üzrə beynəlxalq təcrübədən istifadə edilir və səmərəsi də az olmur. Bunu nəzərə alsaq, sözügedən sahədə də beynəlxalq təcrübənin istənilən nəticəni verəcəyinə əminlik çoxdur.

Əminliyi artıran başqa bir səbəb isə, dövlət başçısının bu mübarizədə siyasi iradə nümayiş etdirməsidir. Özünün dediyi kimi: “Yəni, bunu etmək mümkündür. Sadəcə, siyasi iradə olmalıdır, bu da var...” Və çox yaxşı haldır ki, ən yüksək səviyyədə siyasi iradə təkcə korrupsiyaya və rüşvətə qarşı mübarizədə yox, bütün prinsipial problemlərin həllində var və biz bunun Nazirlər Kabinetinin son iclasında bir daha şahidi olduq.

***Raqif MƏMMƏDOV,***
***“Azərbaycan”***

# Tərəfdaşlıq prioritetləri müəyyənləşdi

Əvvəli 1-ci səh.

### Azərbaycan - Aİ münasibətləri yeni mərhələdə

Bu reallıqlar fonunda respublikamızın Avropa üçün geosiyasi və iqtisadi əhəmiyyəti daha da yüksəlib, avrostrukturlara inteqrasiya prosesi sürətlənib. Avropa İttifaqı (Aİ) ilə 1993-cü ildə əsası qoyulmuş diplomatik münasibətlər son illər yeni mərhələyə qədəm qoyub.

Prezident İlham Əliyevin iyulun 11-də Brüsselə səfəri çərçivəsində Avropa İttifaqı Şurasının rəhbərliyi ilə keçirdiyi görüşlər və imzalanan yeni tərəfdaşlıq sənədi əlaqələrin daha da dərinləşməsinə xidmət etmiş oldu.

Dövlət başçısının adıçəkilən qurumun prezidenti Donald Tuskla keçirdiyi görüşdə Azərbaycanla Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulandı. Eyni zamanda Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparıldı.

### Yeni tərəfdaşlıq əlverişli imkanlar yaradacaq

Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd etdi. Söhbət zamanı Azərbaycanda insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olundu.

Sonra isə Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacaq sənəd paraflandı.

Sənədin birinci bəndində hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur. Eyni zamanda göstərilir ki, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb.

Sənəddə Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olması, ölkəmizin “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə verdiyi töhfə də Avropa İttifaqı tərəfindən vurğulanır. Eyni zamanda “Cənub qaz dəhlizi” layihəsinin tezliklə tam yekunlaşmasının və bunun nəticəsində Avropa bazarlarına təbii qazın çatdırılmasının əsas prioritetlər sırasında olduğu bildirilir.

Azərbaycan Prezidentinin Brüsselə səfəri və yeni sənədin paraflanması ilə bağlı Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda isə qeyd edilir ki, tərəfdaşlıq prioritetləri 2018-2020-ci illəri əhatə edir və tərəfdaşlığın bərabərhüquqlu, qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir.

### Ticarət və logistika inkişaf etdiriləcək

Sənəddə həmçinin Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasəti və geniş iqtisadi islahatlar proqramı, Avropa İttifaqının həm neft, həm də qeyri-neft sektoru daxil olmaqla ölkəmizə qoyulan birbaşa xarici sərmayələrin yarısına pay sahibi kimi əsas investisiya tərəfdaşı olması qeyd edilir.

Azərbaycan və Avropa İttifaqının birbaşa enerji və nəqliyyat uzlaşmaları yaratmaq kimi birgə strateji məqsədlərini nəzərə alaraq, tərəfdaşlıq prioritetləri sənədi Azərbaycanın strateji enerji tərəfdaşı rolunu, coğrafi mövqeyinə görə təbii nəqliyyat qovşağı olaraq bağlantıları, ticarət və logistikanı inkişaf etdirmək imkanlarını genişləndirəcək.

Tərəfdaşlıq prioritetləri yaxşı idarəçilik, mobillik və insanlararası əlaqələr, mədəniyyətlərarası dialoq, humanitar, təhsil və digər qarşılıqlı maraq doğuran əsas sahələrdə əməkdaşlığı ehtiva edir.

Bəyanatda vurğulanır ki, Prezident İlham Əliyevin 2017-ci ildə Avropa İttifaqına səfəri və onun ardınca Avropa İttifaqının yüksək səviyyəli nümayəndə heyətlərinin ölkəmizə səfərləri Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında yeni səhifə açıb. Tərəfdaşlıq prioritetləri, “20 Deliverables for 2020” və tərəfdaşlıq sazişinin tezliklə yekunlaşdırılması ilə digər layihələr Avropa İttifaqı və Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişafı üçün mühüm zəmin və hərtərəfli çərçivə yaradır.

### Avropa İttifaqı və Azərbaycan birgə daha güclüdürlər

Tərəfdaşlıq prioritetləri parafландıqdan sonra Avropa İttifaqının rəsmiləri “Twitter” hesablarında Prezident İlham Əliyevin Donald Tuskla görüşü və yeni sənəd barədə məlumatlar yayıblar.

Prezident Donald Tuskun “Twitter”ində vurğulanır: “Prezident İlham Əliyevlə bizim ikitərəfli əlaqələrimizin inkişafına xidmət edən uğurlu görüş oldu. Görüşdə Azərbaycandakı daxili vəziyyət və regional məsələlər barədə səmərəli müzakirələr keçirildi”.

Avropa Komissiyasının Qonşuluq Siyasətinin Baş Direktorluğunun “Twitter”ində qeyd edilib: “Avropa İttifaqı və Azərbaycan birgə daha güclüdürlər. Avropa İttifaqı və Azərbaycan tərəfdaşlıq prioritetləri sənədi üzrə danışıqları başa çatdırıb, münasibətlər gündəliyinə yeni təkan verilib”.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Abşeronun inkişafı davamlıdır

**Yerləşdiyi bölgənin lideri statusunu layiqincə daşıyan Azərbaycan qarşısına qoyduğu hədəflərə doğru inamla irəliləyir, hər ötən dövrü bütün sahələrdə uğurlarla başa vurur. Bu baxımdan 2018-ci ilin geridə qoyduğumuz dövrü də respublikamız üçün əlamətdardır. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iyulun 8-də keçirilən iclasında bu barədə geniş müzakirələr aparıldı, dövlət başçısı vəziyyəti geniş təhlil edərək qarşıda duran vəzifələri müəyyənləşdirdi. İclasdakı giriş nitqində Prezident İlham Əliyev qeyd etdi ki, 2018-ci ilin altı ayında qarşıya qoyulan bütün vəzifələr uğurla icra olunub, ölkəmiz öz dinamik inkişaf templərini saxlaya bilib, həm iqtisadi, həm də beynəlxalq siyasət sahəsində Azərbaycan böyük uğurlar əldə edib.**



## Ötən 6 ay müsbət nəticələrlə əlamətdardır

Dünən Abşeron Rayon İcra Hakimiyyəti başçısı yanında keçirilən Şura iclası Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn məsələlərə və qarşıda duran vəzifələrə həsr olunmuşdu. İclası giriş nitqi ilə açan Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirdi ki, əvvəlki illərdə olduğu kimi, 2018-ci ilin 6 ayında da Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş strateji xəttə əsaslanaraq dayanıqlı iqtisadi inkişafın təmin olunması məqsədilə çevik, adekvat addımlar atılmış, kompleks islahatların həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitlik möhkəmləndirilmiş, biznes və investisiya mühiti daha da yaxşılaşdırılmış, iqtisadiyyatın şaxələndirilməsi, regionların və sahibkarlığın inkişafı sürətlənərək qeyri-neft ixracı artmışdır. Aparılan genişmiqyaslı iqtisadi islahatlar nəticəsində, bu ilin birinci yarısında ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artmış, inflyasiya birrəqəmli olmaqla 3 faiz təşkil etmişdir. Prezident İlham Əliyev ümumilikdə 2018-ci ilin birinci yarısında görülən işləri müsbət qiymətləndirmiş, bütün layihələrin həyata keçəcəyini, Azərbaycanın bundan sonrakı dövrdə də uğurla inkişaf edəcəyini bildirmişdir.

Respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkənin digər bölgələri kimi Abşeron rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülmüş və bu işlər hazırda yüksək əzmlə davam etdirilir. Ölkənin hər yerində yaşanan inkişaf Abşeron rayonunun simasında da aydın müşahidə olunur. Son illərin real mənzərəsi Abşeronun ölkənin əsas inkişaf və quruculuq ünvanlarından biri olduğunu təsdiq edir. Bu inkişaf Abşeronun qüruru olduğu qədər, ölkəmizdən kənarda Azərbaycanın gözəl tanıtımıdır. Ölkə Prezidentinin birbaşa təşəbbüsü və himayəsi sayəsində son illərdə rayon ərazisində olduqca mühüm infrastruktur layihələri həyata keçirilmiş, möhtəşəm tikililərin təməli qoyulmuş və uğurla başa çatdırılmışdır. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, yol ötürücüləri və yol qovşaqları, idman qurğuları, parklar, inzibati binalar rayonun simasını tamamilə dəyişmişdir. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlamışdır.

İradə Gülməmmədovanın sözlərinə görə, respublikamızda həyata keçirilən inkişaf kursu ötən 6 ayda Abşeron rayonunda bütün sahələrin davamlı inkişafını təmin edərək müsbət nəticələrin əldə edilməsini şərtləndirmişdir. Hesabat dövründə rayonda abadlıq-quruculuq işləri davam etdirilmiş, əhalinin elektrik enerjisi, içməli su-kanalizasiya, təbii qazla təchizatı, yol infrastrukturunun daha da yaxşılaşdırılması, sakinlərin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması istiqamətində xeyli işlər görülmüşdür. Ən əsası rayonun iqtisadi inkişafı istiqamətində müsbət nəticələr əldə olunmuşdur.

## Abşeronda 350 adda məhsul xarici bazarlara çıxarılır

Abşeronda görülmüş işlərlə bağlı rayon icra hakimiyyəti başçısının müavini İlham Quluyev məruzə ilə çıxış etdi. Qeyd olundu ki, hesabat dövründə rayonda iqtisadi inkişaf məsələləri, sahibkarlığın stimullaşdırılması, əhalinin maddi rifahının daha da yaxşılaşdırılması kimi məsələlər rayon icra hakimiyyəti başçısı aparatının daim diqqət mərkəzində saxlanılmışdır.

Cari ilin birinci yarısında rayonda sənaye məhsulunun həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 28 faiz artaraq 104 milyon manata çatmışdır. Sənaye müəssisələrində işləyənlərin sayı 8087 nəfər olmuş, çalışan işçilərin orta aylıq əməkhaqqı 343 manat təşkil etmişdir.

Rayon sahibkarları tərəfindən ixracyönümlü məhsul istehsalına diqqət artmış, ərazidə fəaliyyət göstərən 38 şirkət tərəfindən istehsal olunan 350 adda məhsulun xarici bazarlara çıxarılması üçün "Azexport.az" saytında müvafiq məlumatlar yerləşdirilmişdir.

2018-ci ilin ötən müddəti ərzində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün vergi orqanlarında 115 hüquqi, 690 fiziki şəxs vergi ödəyicisi kimi qeydiyyata alınaraq fəaliyyətə başlamışdır. Ümumilikdə sahibkarlıq fəaliyyətinə yaradılmış əlverişli şəraitin nəticəsi olaraq 6 ay ərzində rayon ərazisində 2406 yeni iş yeri açılmışdır.

Hesabat dövründə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon ərazisində fəaliyyət göstərən sahibkarlara 22 investisiya layihəsi üçün 15 milyon 535 min manat güzəştli kredit verilmişdir. Həyata keçiriləcək bu layihələr üzrə 225 yeni iş yerinin yaradılması nəzərdə tutulur. O da diqqətə çatdırıldı ki, Prezident İlham Əliyevin 22 mart 2018-ci il tarixli sərəncamına əsasən 2018-ci il dövlət büdcəsində əsaslı vəsait qoyuluşu xərclərindən Abşeron rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə 2 milyon manat vəsait ayrılmışdır. Bununla əlaqədar Qobu qəsəbəsi ərazisində 0,7 hektar sahədə xalça istehsalı emalatxanasının tikinti işləri sürətlə davam etdirilir.

2018-ci ilin 6 ayı ərzində rayonda tikinti işlərinin həcmi 43,2 milyon manat olmuşdur. Hesabat dövründə rayonda Mənzil Tikinti Kooperativləri tərəfindən çoxmənzilli yaşayış binaları üzrə 135 min kvadratmetrlik yaşayış fondunun tikintisi başa çatdırılaraq istismara qəbul edilmişdir. Bundan əlavə rayon ərazisində 60 min 800 kvadratmetr xidmət, istehsalat və ticarət üzrə qeyri-yaşayış obyekti, 210 min 600 kvadratmetr isə istixana kompleksi istifadəyə verilmişdir.

Hesabat dövründə rayonda kənd təsərrüfatı sahəsində, xüsusilə bitkiçilik məhsullarının istehsalında artıma nail olunmuşdur. Rayon ərazisində 1413 hektar sahədə taxıl biçini itkisiz başa çatmışdır. 6 ay ərzində 645 hektar tərəvəz sahəsindən 56414 ton məhsul yığılmışdır. Hesabat dövrü ərzində 19691 sentner ət, 142245 sentner süd istehsal olunmuş, yumurta istehsalı isə 71,4 milyon ədəd olmuşdur.

Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq rayonun kənd təsərrüfatı torpaqlarında zeytun və badam bağları sahələrinin genişləndirilməsi ilə bağlı işlər davam etdirilir, Xəzər rayonu ərazisindən Abşeron rayonuna təhkim olunmuş kənd təsərrüfatı təyinatlı torpaqlarda 3570 hektar sahədə aqropark yaradılması istiqamətində işlər sürətlə gedir. 210 hektar sahədə artıq badam əkilmiş, 210 ha sahədə damlama üsulu ilə suvarma şəbəkəsi quraşdırılmış, 8 km uzunluğunda su xətti çəkilmiş, 70 min kubmetrlik su hovuzu tikilmiş, 30 ədəd müxtəlif təyinatlı texnika alınmışdır.

O da bildirildi ki, Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq, torpaqlardan səmərəli istifadə olunması, istər bələdiyyə, istərsə də dövlət mülkiyyətində olub, lakin istifadə olunmayan kənd təsərrüfatı təyinatlı torpaqların dövriyyəyə cəlb edilməsi və bu torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilir.

Artıq 7 ildir ki, Abşeron rayonu dotasiya almadan bütün xərclərini yerli daxilolmalar hesabına maliyyələşdirir. Bu il isə öz xərclərindən əlavə 23 milyon manat vəsaitin dövlət büdcəsinə ödənilməsi nəzərdə tutulmuşdur.

Hesabat dövründə Abşeron rayon büdcəsinin yerli gəlirlər proqnozu 16 milyon 391 min 338 manata qarşı 18 milyon 980 min 535 manat və ya 115.8 faiz yerinə yetirilmiş, büdcəyə nəzərdə tutulduğundan 2589197 manat əlavə vəsait daxil olmuşdur. 2018-ci ilin 6 ayı ərzində rayonun yerli büdcəsinin icrası 7 milyon 115 min 55 manat proqnoza qarşı 5 milyon 953 manat və ya 71 faiz icra olunmuşdur. Yerli xərclərin proqnozla müqayisədə az icra olunması əsasən iyun ayının əməkhaqqının iyul ayında ödənilməsi ilə əlaqədardır.






## İnfrastruktur sahələrində yenilənmə işləri davamlıdır

Cari ilin birinci yarısında rayon infrastrukturunun yenilənməsi də diqqət mərkəzində olub. İlin ötən dövrü ərzində rayonun daxili imkanları hesabına yol infrastrukturunun bərpası və inkişaf etdirilməsi məqsədilə rayonun yaşayış məntəqələrində daxili yollara 4 min kubmetr çınqıl tökülərək yayılmış, 68 min kvadratmetr sahə asfaltlanmışdır. Uzunluğu 18 km olan Hökməli-Qobu-Lökbatan yolu əsaslı şəkildə yenidən qurulmuş, Güzdək-Buta yolunda 1070 metr uzunluğunda yolun birinci qat asfalt örtüyü verilmiş, 3500 metr hissəsində isə təmir işləri başa çatdırılaraq asfaltlamaya hazır vəziyyətə gətirilmişdir. Bundan əlavə, Mehdiabad-Pirşağı avtomobil yolunun təmirinə başlanılmış, Bakı-Quba avtomagistralından Masazır, Novxanı istiqamətinə 2,7 km uzunluğunda alternativ yolun asfalt olunması ilə bağlı hazırlıq işləri görülmüşdür. Mehdiabad-Pirşağı yolunun kənarında 1500 metr uzunluğunda piyada səki çəkilmiş, 500 metr uzunluğunda sıradan çıxmış 159 mm-lik boru yenisi ilə əvəz olunmuşdur.

Əhalinin sabit elektrik enerji təminatı ilə bağlı yaşayış məntəqələrində 44 yeni transformator quraşdırılmış, 8 transformator təmir edilmiş, 410 ədəd dayaq və 57165 metr naqil dəyişdirilmiş, yaşayış məntəqələrində 27421 metr uzunluqda "SİP" kabelləşməsi aparılmışdır. Hökməli, Qobu, Aşağı Güzdək, Saray, Masazır, Fatmayı, Görədil, Novxanı, Məmmədli yaşayış məntəqələrində elektrik təsərrüfatının yenidən qurulması istiqamətində işlər davam etdirilmişdir. Güzdək qəsəbəsinin enerji təchizatının Qaradağ rayonundan ayrılması məqsədilə Paylayıcı Transformator Məntəqəsinin tikintisi başa çatdırılaraq Qobu yarımstansiyasından qəsəbəyə 10 kv-luq xətt çəkilişində son tamamlama işləri görülməkdədir. Hazırda Xırdalan, Masazır yaşayış məntəqələrində inşa olunmuş yarımstansiyalardan yeni çəkilmiş kabellərin şəbəkəyə qoşulması istiqamətində işlər aparılır.

2018-ci ilin 6 ayı ərzində rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 62037 p/m uzunluqda yeni içməli su, 51 min 55 p/m uzunluqda kanalizasiya xətləri çəkilmişdir. 895 p/m uzunluqda korroziyaya uğramış xətt dəyişdirilərək 22 ədəd müxtəlif markalı nasos təmir edilmişdir.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə rayonun Pirəkəşkül, Qobustan kəndlərində içməli su, Mehdiabad və Digah qəsəbələrində isə ayrılmış vəsait həcmində 5200 p/m uzunluğunda kanalizasiya xətlərinin yenilənməsi işləri başa çatdırılmışdır. Hazırda təmir tikinti təşkilatı tərəfindən Novxanı kəndində layihə əsasında su şəbəkəsinin inşası davam etdirilir. Rayon Sukanal idarəsi tərəfindən Aşağı Güzdək qəsəbəsinə gələn mərkəzi su xəttinin dəyişdirilməsinə başlanılmış və hazırda 600 metr su xətti yenilənmiş və işlər davam etdirilir.

Xırdalan şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı ötən ilin iyul ayından başlanılmış işlər davam etdirilmiş, bir il ərzində 94,8 km uzunluğunda içməli su, 52,8 km uzunluğunda kanalizasiya xətti çəkilmişdir. Hazırda paralel olaraq su və kanalizasiya çəkilişi işləri başa çatmış küçələrin asfaltlanması işləri həyata keçirilir. Ümumilikdə layihə çərçivəsində iki il ərzində 168 km içməli su, 110 km uzunluğunda kanalizasiya xəttinin çəkilişi işlərinin həyata keçirilməsi nəzərdə tutulur.

"Azərduz" İstehsalat Birliyinin fəaliyyət göstərdiyi Masazır duz gölünün ekoloji təmizliyinin təmin edilməsi ilə bağlı Prezidentin müvafiq tapşırığı əsasında Masazır və Novxanı kəndləri ərazisində çirkab suların axıdılması üçün 13,2 km xəttin çəkilişi başa çatdırılmış, hazırda nasosxananın inşası işləri sürətlə davam etdirilir. Tikinti quraşdırma işlərinin ayın sonlarına kimi tamamilə başa çatdırılaraq istifadəyə verilməsi nəzərdə tutulur.

Bundan əlavə, təmir tikinti təşkilatları tərəfindən Novxanı kəndi ərazisində layihə əsasında su şəbəkəsinin inşası davam etdirilir. Məmmədli kəndində qrunt sularının axıdılması məqsədilə Nəsirəddin Tusi, Səməd bəy Mehmandarov və İsmət Qayıbov küçələrində ümumi uzunluğu 1200 metr olan açıq kanal çəkilərək mərkəzi kanalizasiya xəttinə birləşdirilmişdir. Kəndin mərkəzi küçəsinin ətrafında olan divarların üzlük daşlarla üzlənilməsi işlərinə başlanılmış, hazırda bu istiqamətdə işlər davam etdirilir. Saray qəsəbəsində Cabir Novruz və Sülh küçələrinə 660 kubmetr çınqıl tökülərək yayılmış və avtobus marşrutlarının işləməsi üçün normal vəziyyətə gətirilmişdir.

Rayon əhalisinin təbii qazla təchizatı ilə bağlı Xırdalan, Saray, Novxanı, Masazır yaşayış məntəqələrində müxtəlif diametrli 2,1 km uzunluğunda yeni təbii qaz xətləri çəkilmiş, rayon üzrə ümumilikdə 4400 ədəd sayğac quraşdırılmışdır. Hazırda ötən il Ceyranbatan qəsəbəsindən Saray qəsəbəsinə çəkilmiş xəttin davamına başlanılmış, çəkilməli olan 5 km uzunluğunda xəttin 1 km-lik hissəsi çəkilmişdir.

Abşeron İH başçısının aidiyyəti orqanlar qarşısında qaldırdığı məsələnin nəticəsi olaraq, Qobu qəsəbəsinin qaz təchizatının yaxşılaşdırılması məqsədilə Lökbatan qəsəbəsi istiqamətindən 6,2 km uzunluğunda 250 və 160 mm yeni xəttin çəkilişi işlərinə başlanılmış, artıq bu günədək 500 metr 250-lik, 600 metr uzunluğunda 160-lıq xəttin çəkilişi həyata keçirilmişdir.

Hesabat dövründə Abşeron Telekommunikasiya Qovşağı tərəfindən tarif gəliri planı üzrə 4 milyon 85 min manat gəlir əldə edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 392 min manat çoxdur. Ötən 6 ay ərzində internet abunəçilərinin sayı 38452-ə çatmışdır.

2018-ci ilin 6 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin normal fəaliyyətlərinin təmin edilməsi istiqamətində işlər davam etdirilmişdir. Mehdiabad qəsəbəsində 1200 şagird yerlik ümumtəhsil məktəbinin tikintisi başa çatmış, ətrafında abadlıq işləri görülmüşdür. Əhalinin səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində də müəyyən tədbirlər həyata keçirilmişdir. Xırdalan şəhəri ərazisində mərkəzi rayon xəstəxana binasının inşası davam etdirilir.

## Bütün vəzifələr tam yerinə yetiriləcək

Rayon ərazisində məskunlaşmış 11 min 855 məcburi köçkün ailəsinin qayğıları da daim diqqət mərkəzində saxlanılır. Məcburi köçkün rayonlarının işğal günü ərəfələrində həmin rayondan olan şəhid ailələri ilə görüşlər keçirilərək onlara maddi kömək göstərilir. Xırdalan şəhərində 27-ci məhəllədə tikintisi yarımçıq qalmış və qəzalı vəziyyətdə olan tikilidə məskunlaşmış 48 məcburi köçkün ailəsi barədə siyahı Dövlətqaçqınkoma təqdim edilmiş və yaxın vaxtlarda həmin ailələrin yeni evlərlə təmin edilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın valideyn himayəsindən məhrum olmuş kimsəsiz uşaqlara diqqət və qayğısı ilə Masazır kəndində daha bir 12 mərtəbəli çoxmənzilli yaşayış binasının inşası başa çatmış və yaxın günlərdə açılışı gözlənilir.

* * *

Rayon Sukanal idarəsinin rəisi Qorxmaz Abbasov, Bağlar Sukanal idarəsinin rəisi Bəhlul Ramazanov, rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Məhərrəm Abdulov və rayon Statistika idarəsinin rəisi Təvəkkül Mirzəyev təmsil etdikləri sahələrdə görülən işlərlə bağlı hesabatla çıxış etdilər.

Çıxışlarda vurğulandı ki, rayonda abadlıq-quruculuq işlərinin davam etdirilməsi, payız-qış mövsümünə hazırlıqla bağlı rayonda işıq, içməli su, təbii qaz, yol və digər sahələrdə problemlərin meydana çıxmaması, rayon ərazisində yaşıllıqların qorunub saxlanılması və xüsusilə yol kənarları boyunca əkilən ağacların vaxtında suvarılması, ərazidə sanitar təmizliyin təmin edilməsi, rayonun inzibati ərazisində və rayona təhkim olunmuş dövlət fondu torpaqlarında qanunsuz tikintilərin qarşısının alınması qarşıda duran ən mühüm vəzifələrdəndir. Çıxış edənlər əminliklə bildirdilər ki, 2018-ci ilin növbəti aylarında da qarşıda duran vəzifələr vaxtında və keyfiyyətlə yerinə yetiriləcək, rayonun sosial-iqtisadi inkişafı və əhalinin sosial problemlərinin həlli istiqamətində mümkün olan bütün tədbirlər tam həyata keçiriləcəkdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***












*Akademik İsa HƏBİBBƏYLİ:*

# “Azərbaycan dövləti sabitliyin möhkəm və etibarlı qarantıdır”



**Müasir, müstəqil Azərbaycanın inkişafının ən mühüm amillərindən biri, daha doğrusu, birincisi ölkədə dövlət səviyyəsində ictimai-siyasi sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sabit ictimai-siyasi mühit Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində daha da möhkəmləndirilərək böyük inkişafa geniş meydan açıb.**

Ona görə də ictimai-siyasi sabitlik müstəqil Azərbaycan dövlətinin ən mühüm nailiyyəti deməkdir və qazanılan böyük uğurların əsasını təşkil edir.

Son günlərdə Gəncədə baş verən hadisələr, ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına yönəldilib. Sabitliyin hədəfə alınması, çaşqınlıq, xaos yaratmaq və pozuculuq cəhdləri müstəqil dövlətimizin inkişafını gözü götürməyən, buna dözə bilməyən qüvvələrin məqsədyönlü niyyətlərinin ifadəsidir. İndi düşmən qüvvələr qatilləri, terrorçuları din qəhrəmanı kimi qələmə verməyə çalışırlar. Amma unudurlar ki, ölkəmizdə din-dövlət münasibətləri yüksək səviyyədə tənzimlənir. Azərbaycan multikultural və tolerant ölkədir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri iyulun 10-da Gəncədə baş verən hadisələrə münasibət bildirən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli söyləyib.

Akademik deyib ki, Gəncə hadisələrində polisin hədəf kimi seçilməsi də təsadüfi deyil. Çünki Azərbaycan polisi müstəqilliyimizin bütün inkişaf mərhələlərində dövlətimizə sədaqətlə xidmət edib. Bu gün Azərbaycan polisinə əl qaldırmaq, atəş açmaq sabitliyin əsas təminatçısı olan polisimizi sarsıtmaq, ictimai rəydə bu inzibati orqanın gücü haqqında formalaşmış müsbət imici aşağılamaq məqsədi daşıyır. Hadisə nə qədər ağır olsa da, sınaqlardan çıxmış Azərbaycan polisini və xalqın ona münasibətini sarsıda bilməz. Ən başlıcası isə Azərbaycan xalqı Prezident İlham Əliyevin apardığı siyasəti ürəkdən dəstəkləyir və müdafiə edir. Sözün həqiqi mənasında, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətimizdə möhkəm sabitliyin, ədalətin və inkişafın qüdrətli təminatçısı və qarantıdır. Xalqımız, o cümlədən ziyalılarımız belə məsuliyyətli günlərdə dövlət rəhbərimizin ətrafında daha sıx birləşirlər. Bu gün ölkəmizdə möhkəm birlik və sabitlik hökm sürür. Dövlətimiz ölkəmizdə hər cür sabitliyi və normal həyat tərzini təmin edib. Bu bizim böyük sərvətimizdir. Bu sərvəti qorumaq hər birimizin şərəfli və məsuliyyətli borcudur.

# Bu dövləti heç kim sarsıda bilməz

## Azərbaycanda istənilən təxribatın qarşısı layiqincə alınır

**Radikal dini yönümlü bir qrup şəxsin Gəncədə asayişi kobud şəkildə pozmağa cəhd göstərməsi və bunun qarşısını alarkən iki yüksək rütbəli polis zabitinin həlak olması günün müzakirə mövzusu olaraq qalır. Ölkə ziyalıları, tanınmış ictimai-siyasi xadimlər, siyasətçilər xalqa müraciət edərək hər zaman olduğu kimi ayıq-sayıq olmağı, təxribatlara uymamağı məsləhət görürlər.**

**Müraciətlərdə qeyd edilir ki, antiazərbaycançı şəbəkə bu dəfə Gəncədə din pərdəsi altında ölkəmizdə anarxiya yaratmağa, ictimai-siyasi sabitliyi pozmağa cəhd edib. Lakin həmişəki kimi bu təxribat da baş tutmayıb.**





### Onlar islama deyil, xurafata xidmət edirlər

Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyir ki, Gəncədə baş verən hadisələr dövlətçilik əleyhinə törədilmiş cinayətdir. Ona görə də bu cinayəti törədənlər layiqli cəzalarını almalıdırlar: “Azərbaycan kifayət qədər oturuşmuş bir dövlətdir. Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan bu dövlət möhkəm əsaslar üzərində qurulub və onu heç kim sarsıda bilməz. Bu cür hərəkətlər bizi yolumuzdan döndərə bilməz. Cinayətkarlar cəzalandırılmalıdır. Hüquq-mühafizə orqanları bu məsələni ciddi araşdıraraq kökünü tapmalıdır”.

Siyavuş Novruzov qeyd edib ki, məsələnin haradan qaynaqlandığı, hansı ölkədən tapşırıqların alındığı müəyyən edilməli və qarşısı dərhal alınmalıdır: “Mən komitə sədri kimi bəyan edirəm ki, istər Qurani-Kərimdə, istərsə də şəriətdə insan öldürmək qadağandır. Bunlar hamısı islam dininə ziddir. Kim bunu din pərdəsi altında həyata keçirmək istəyirsə, o, səhv yoldadır və həmin şəxsin dinə ümumiyyətlə, aidiyyəti yoxdur. Ümumilikdə, bəzi müsəlmanlar bir-birinə qardaş deyirlər. Əgər biz bir-birimizi qardaş hesab ediriksə, qardaş qardaşı necə öldürə bilər?! Bu, islamın prinsipidir. Kim bu fundamental prinsipdən kənara çıxırsa, o, islama deyil, xurafata xidmət edir. Onun törətdiyi əməl də həm müasir dövrün qanunları, həm də islam hüququ ilə heç cür bəraət ala bilməz”.

### İğtişaşın inanclı insanlarla, əsl dindarlarla heç bir əlaqəsi yoxdur

“Bu iğtişaşın Azərbaycan xalqının qədim mədəniyyət beşiklərindən biri, millətimizin müsəlman Şərqində ilk olaraq qurduğu Cümhuriyyətimizin paytaxtı Gəncə şəhərinin sakinlərinə heç bir aidiyyəti yoxdur. Çünki gəncəlilər daim müstəqil dövlətimizin və dövlətçiliyimizin yanında olub, heç bir zaman təxribatlara uymayıb”.

Bu fikirləri isə Milli Məclisin deputatı, professor Musa Qasımlı söyləyib. Baş verən iğtişaşın imanlı, inanclı insanlarla, əsl dindarlarla heç bir əlaqəsinin olmadığını deyən deputat vurğulayıb ki, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət bütün dinlər üçün şərait yaradıb və onların işlərinə qarışmır:

“Hadisəni törədənlər xaricdən maliyyələşən, idarə olunan, Azərbaycanı Suriyaya çevirmək və dövlətimizin dünyəvi təməllərini sarsıdıb dini dövlət qurmaq istəyən radikal qruplaşmalardır. Hesab edirəm ki, belə cəhdlərin qarşısı dövlətimizin bütün qanunları ilə qətiyyətlə və amansızlıqla alınmalıdır. İctimai təhlükəsizliyi qoruyan və dövlətin orqanı olan polisə qaldırılan əl elə kəsilməlidir ki, belə fikrə düşən digərlərinə də dərs olsun”.

Deputat ölkəmizdə radikal dini qruplaşmaların fəaliyyətinin artması və son günlər baş verən digər xoşagəlməz hadisələrin planlı şəkildə hazırlandığı qənaətindədir. Onun fikrincə, bu hadisələr Azərbaycan dövlətçiliyinə qənim kəsilən radikal qüvvələrin məkrli planlarının tərkib hissəsidir: “Ancaq iğtişaşları törətməyə can atanlar unudurlar ki, bu gün Azərbaycan dövləti çox güclüdür, bütün təxribatların qarşısını almağa qadirdir. Azərbaycan xalqı isə etimad göstərdiyi Prezident İlham Əliyevə güvənir və ətrafında sıx birləşib, pozucu qüvvələrə heç bir zaman meydan verməz. Millətimizin iradəsi hər şeydən üstündür”.

### Radikal dini terrorizmin kökünü kəsməliyik

Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev isə hesab edir ki, Gəncədə baş verən hadisələrin iştirakçıları vaxtı ilə Suriyada və digər ərəb ölkələrində baş kəsən terrorçuların tör-töküntüləridir. Bu isə onu göstərir ki, bəzi dövlətlərin xüsusi xidmət orqanları hansısa yollarla öz adamlarını ölkəmizdə yerləşdirə biliblər.

Deputatın sözlərinə görə, Azərbaycanın gələcəyini sivil dövlət kimi görən bütün qüvvələr vahid mövqedən çıxış etməlidir: “Biz, bu radikal dini terrorizmin kökünü kəsməliyik. İmkan verməməliyik ki, belə qüvvələr ölkəmizdə geniş əl-qol aça bilsin. Çalışmalıyıq ki, ölkədə qanunun aliliyi təmin edilsin, bunun üçün ciddi islahatlar aparılsın”.

Q.Həsənquliyev hesab edir ki, baş verən iğtişaş zamanı polis çox təmkinli hərəkət edib. Dünyanın hər yerində əlində silah və ya daşla aksiyaya çıxana polis silah tətbiq edir. Vurub öldürməsə də, ayağına atəş aça bilir. Bəlkə də Gəncədə polis əməkdaşları silahlı olsa, atəş açılsaydı, nəticə başqa cür olardı: “Bir daha bəyan edirəm ki, hadisə zamanı ekstremist-terrorçular tərəfindən qətlə yetirilən polis zabitlərinin qanı hədər getməməlidir. Onlar həyatlarını dövlətimiz üçün qurban ediblər. Allah hər ikisinə rəhmət etsin, əsl şəhid onlardır. Gəncə hadisələrində iştirak edən şəxslərin tam dairəsi müəyyən olunmalı və qətli törədənlər, bu prosesə dəstək verənlər, təhrikçilər, təşkilatçılar qanunun sərt üzü ilə cəzalandırılmalıdırlar”.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Azərbaycan dövləti bütün təxribatların qarşısını almağa qadirdir

**Gəncədə baş verən hadisələr, əvvəlcə şəhər icra hakimiyyəti başçısının silahlı sui-qəsdə məruz qalması, bir neçə gündən sonra şəhər mərkəzində vətəndaş qarşıdurması yaratmağa cəhdlərin edilməsi sabitliyi pozmaq istəyindən xəbər verir. Amma belə məkrli niyyətli şəxslər, pozucu qüvvələr heç zaman unutmamalıdırlar ki, Azərbaycan kifayət qədər güclü dövlətdir. Hər şey hüquq-mühafizə orqanlarının nəzarəti altındadır. Azərbaycan xalqı, xüsusən hadisə baş verən Gəncə sakinləri bu insanlara heç bir dəstək vermir və baş verənləri pisləyir.**



Yerli sakinlərin qeyd etdiyi kimi, şəhərin baş meydanına toplaşan həmin insanların Gəncə ləhcəsinə uyğun olmayan üslubda danışması onların radikal, dini təmayüllü pozucu qüvvələr olduğunu, hansısa mərkəz tərəfindən idarə olunduğunu bir daha ortaya qoyur. Ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət bütün dinlər üçün eyni şərait yaradıb. Odur ki, bu hadisələrin imanlı adamlarla, əsl dindarlarla bağlılığı yoxdur. Hadisəni törədənlər xaricdən idarə olunan, Azərbaycanı xaosa, xarabazara çevirmək istəyən və bununla da dövlətimizin dünyəvi təməllərini sarsıdıb dini dövlət qurmaq istəyən radikal qruplaşmaların əməlləridir. Gəncə sakinlərinin belə çağırışlara dəstək verməmələri onu göstərdi ki, gəncəlilər sabitlik tərəfdarıdır, müstəqil dövlətimizin yanındadır, Prezidentin siyasətinə güvənir və arxalanırlar. Azərbaycan dövləti çox güclüdür, bütün təxribatların qarşısını almağa qadirdir. Ölkəmiz pozucu qüvvələrə heç bir zaman meydan verməyəcək, həmin qüvvələr tez bir zamanda aşkarlanaraq cinayət məsuliyyətinə cəlb ediləcəklər. Xalqımıza, hüquq-mühafizə orqanlarımızın əməkdaşlarına qarşı törədilən bu qanlı hadisənin təşəbbüskarları və iştirakçıları Azərbaycan dövlətinin müqəddəs qanunları ilə mühakimə edilərək, layiq olduqları cəzanı alacaqlar.

Bir daha baş verən hadisələrdən təəssüfləndiyimizi bildirir, iğtişaşlar zamanı həlak olan polis zabitlərinə rəhmət, ailələrinə və yaxınlarına səbir diləyirik.

Baş verən qanlı hadisələr, bir qrup şəxsin ixtişaş törətmək cəhdləri bizə bir sıra reallığı da yenidən xatırlatdı. Göstərdi ki, Azərbaycan xalqı öz dövlətini, vətənini çox sevir və daim sülhün sabitliyin bərqərar olmasını arzulayır. Əmin olduq ki, Gəncə əhalisi belə təxribatlara heç vaxt uymayacaqdır. Vətənimizin daim ucalması, respublikamızın inkişaf etməsi, ölkəmizin vətəndaşlarının əmin-amanlıq içərisində, dinc şəraitdə yaşamaları uçun milli birliyimizi qorumalı, dövlətimizin, onun Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməliyik. O zaman heç bir təxribatçı qüvvə öz bəd niyyətini həyata keçirməyə müvəffəq olmayacaq.

***Vasim MƏMMƏDƏLİYEV,***
***BDU-nun kafedra müdiri, akademik***

# Müstəqilliyə qarşı yönələn xain əməllər məhvə məhkumdur

**Əsrlər boyu Azərbaycan dini dəyərlərə ən yüksək ehtiramın dövlət səviyyəsində nümayiş etdirildiyi nümunəvi məkan kimi tanınır. Azərbaycan sivilizasiyalar arasında mənəvi körpü rolunu bu gün də layiqli şəkildə davam etdirir. Lakin Azərbaycandakı tolerant mühit və sabitlik hər zaman bəzi qüvvələri narahat edib.**

Bu qüvvələr Azərbaycanın dinamik inkişafına, dünyada söz sahibinə çevrildiyinə daim qısqanclıqla yanaşıblar. Ölkədəki sabitliyi pozmağa yönəlik müxtəlif çirkin kampaniyalar həyata keçirilsə də, heç bir nəticəsi olmayıb. Xalq-iqtidar birliyi hər zaman antiazərbaycançı qüvvələrin planlarını alt-üst edib.

İyulun 10-da Gəncə şəhərində yaşanan xoşagəlməz hadisələr də bu ssenarinin davamı idi. Yəni, şəhərdəki iğtişaş, törədilən cinayət əməlləri ölkədə xaos, anarxiya yaratmaq istəyən qüvvələrin çirkin məqsədlərinin tərkib hissəsi sayıla bilər. Din pərdəsi altında fəaliyyət göstərən radikal qrupların cəmiyyətdə insanları iğtişaşlara təhrik etməsi dövlətə qarşı terrordur və islami dəyərlərimizə tamamilə ziddir.

İslam dinindən sui-istifadə edərək iğtişaş törədən və onların bu qanunsuz hərəkətlərinin qarşısını alarkən xidməti vəzifələrini yerinə yetirən yüksək rütbəli polis zabitlərini qətlə yetirən şəxslər antimilli qüvvələrin məkrli planlarının icraçılarıdır. Çünki hadisələr birbaşa respublikadakı mövcud ictimai-siyasi sabitliyi pozmaq, süni qarşıdurmalar yaratmaq və son nəticədə ölkəmizin müstəqil inkişafına ciddi maneə yaratmaq məqsədinə xidmət edirdi. Bu, təkcə polisə deyil, Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönələn xain əməllər idi. Hesab edirəm ki, bütün bu proseslər müəyyən mərkəzlər tərəfindən planlı şəkildə hazırlanıb və xüsusi təlim-təlimat almış şəxslər tərəfindən həyata keçirilib. Həmin şəxslər məqsədyönlü şəkildə şəhərdə asayişi pozmaqla müəyyən addımlar atmağa çalışıblar. Bir sözlə, antiazərbaycançı şəbəkə özünü dindar adlandıran şəxslərdən sui-istifadə etməklə çirkin niyyətini həyata keçirməyə bir daha cəhd edib.

Lakin Gəncə sakinləri təxribat xarakterli dini şüarlar və çağırışlar səsləndirən həmin şəxslərin çirkin əməllərinə heç bir reaksiya vermədi, əksinə, hər kəs bu əməlləri qətiyyətlə pislədi, təxribat xarakterli dini şüar və çağırışlara məhəl qoyulmadı. Gəncə sakinlərinin bu zorakılıq aksiyasına qarşı çıxması, heç bir dəstək verməməsi və pisləməsi bir daha onu göstərdi ki, bütün Azərbaycan xalqı, o cümlədən Gəncə sakinləri bu qanunazidd dini radikalizm hərəkətini pisləyir, bunu törədənlərə ən ağır cəzaların verilməsini tələb edir.

Bu hadisələr bir daha nümayiş etdirdi ki, Azərbaycan xalqı öz dövlətinə sahib çıxır, ölkədə terror, xaos, gərginlik yaratmaq, ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələrin planlarını puça çıxarır. Ölkəmizin müstəqilliyini, ictimai-siyasi sabitliyini qorumaq üçün daim yüksək peşəkarlıq göstərən Azərbaycan polisi bu dəfə də məkrli qüvvələrə layiqli cavabını verdi. Bir daha bəlli oldu ki, Azərbaycan polisi cinayətkarlara öz çirkin əməllərini həyata keçirməyə heç zaman imkan verməyəcək.

Bu gün Azərbaycanda mövcud ictimai-siyasi sabitlik ölkəmizin müstəqillik tarixinin ən mühüm nailiyyətlərindən biridir. Bu sabitliyin əldə olunması o qədər də asan başa gəlməyib. Azərbaycan xalqı xaosun, anarxiyanın hansı nəticələr verdiyini çox yaxşı bilir. Ona görə də dövlətçiliyə qarşı yönəlmiş istənilən təxribat baş verərkən xalq yumruq kimi birləşir, xalq-iqtidar birliyi bütün çətinliklərin öhdəsindən layiqincə gəlir.

Ümumiyyətlə, Azərbaycanda terrorla, iğtişaşlarla sabitliyi pozmaq istəyənlər məqsədlərinə nail ola bilməyəcəklər. Ölkənin hüquq-mühafizə və xüsusi xidmət orqanları buna qadirdirlər. Bu istiqamətdə indiyədək lazım olan addımlar atılıb və yenə atılacaq. Bu cür proseslərdə daim ayıq-sayıq olan vətəndaşlarımız dövlətimizin düşmənlərinə meydan verməyəcək. Hesab edirəm ki, Azərbaycanın güclü, qüdrətli olmasını istəyən hər bir şəxs, təşkilat, siyasi partiya, media qurumu dövlətin yanında olmalı, öz dəstəyini nümayiş etdirməlidir. Qeyri-hökumət təşkilatları insanlar arasında maarifləndirici tədbirlər həyata keçirməlidirlər. Həmçinin Azərbaycan dövlətinin milli maraqları hər bir vətəndaş tərəfindən qətiyyətlə qorunmalıdır.

Düşünürəm ki, respublikamız müstəqilliyini bərpa etdikdən sonra bir sıra ağır sınaqlardan çıxdığı kimi, bu sınaqdan da alnıaçıq, üzüağ çıxdı.

***Həsən BAYRAMOV,***
***pedaqoji elmlər doktoru***

# Milli iradənin nümayişi çox vacibdir

**Gəncədə son günlər bir-birinin ardınca baş verən iki qanlı hadisə ölkə əhalisini, sadəcə, məyus etmədi. Üstəlik, hər kəsin bir vətəndaşlıq borcunu özünə xatırlatmış oldu.**

İyulun 3-ü axşam tərəfi Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı törədilən sui-qəsdən sonra bir qrup dini-radikal əhalini terroristin müdafiəsinə qalxmağa çağırış adı altında yenidən şəhərdə qan tökməsi heç də təsadüfi sayıla bilməz.

Rəsmi dairələrdən hadisəyə münasibət bildiriləndə xüsusi vurğulandı ki, bu, kriminal hadisə, silahlı basqındır.

Terror baş verib. Yaralananlar var. Bunun ardınca xalqı, ictimaiyyəti iğtişaşa səsləyən dini-radikal qrup üzvlərinin onların asayişini belə qoruyan polisə hücumu da məsələnin mahiyyətini açır. Məqsəd xalq-hakimiyyət birliyinə xələl gətirəcək səviyyədə xaos yaratmaq, milli-mənəvi və dini dəyərləri tapdalamaq olub. Bu isə daim çətin və ağır situasiyalarda müdriklik göstərən xalqımızın dövlətçiliyin müdafiəsində daha sıx birləşdiyini üzə çıxarmış oldu. Azərbaycan polisinin nəinki sıravisinin, həm də yüksək rütbəli zabit heyətinin belə ictimai asayişin qorunmasında xidməti vəzifəsini şərəflə yerinə yetirdiyini göstərdi. Son hadisə eyni zamanda, onların bu yolda şəhid olmaqdan çəkinmədiklərini də təsdiqlədi.

Türkiyənin prezidentlərindən biri Süleyman Dəmirəl hələ ötən əsrin yetmişinci illərində sağçılarla solçular arasında gedən ideoloji mübarizənin terror səviyyəsinə qalxarkən söylədiyi “Cümhuriyyət polisinə güllə atan əllər kəsilməlidir” fikrini o zaman heç də səbəbsiz yerə söyləməmişdir.

Xalqımız yaxşı bilir ki, ölkədə süni qarşıdurma, xaos yaratmaq istəyən qara qüvvələr, ünsürlər ciddi şəkildə cəzalandırılacaqlar.

Hadisə ictimai maraq kəsb etdiyinə görə öz iradələrinin əleyhinə olaraq bu əməlin iştirakçısına çevrilmiş hər kəs öz bəd əməlindən peşmançılıq çəkməlidir. Bu dövləti qurmaq nə qədər vacib idisə, onu qoruyub saxlamaq ondan daha da çətin və şərəflidir. Yəqin ki, həmin iğtişaşı törətməyə çalışan dini-radikallar tutduqları əməldən peşmandırlar. Çünki burada onların hərəkətləri yalnız fanatiklik deyil, həm də islam dininin qəbul etmədiyi, lənətlədiyi məqamlardır.

Azərbaycan dövləti, dövlətçiliyi, milli maraqlarımız heç vaxt müzakirə mövzusu olmamalıdır. Belə dəyərlərə təhlükə yarandıqda hər bir vətəndaş milliyyətindən və dini inancından asılı olmayaraq, öz qəti mövqeyini ortaya qoyub. Bu gün də dini baxışlarından asılı olmayaraq hər kəs milli iradəsini nümayiş etdirməlidir. Buna görə də Azərbaycan dövlətinin terror və ona çağırışlarına qarşı atacağı sərt addımların ziyalılar, tanınmış ictimaiyyət nümayəndələri, vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən düzgün anlaşılmalı, geniş kütlələrə izah edilməlidir. Hər hansı “səbəb” və ya bəhanə terrora bəraət qazandırmamalıdır. Buna cəhdlər isə yolverilməzdir.

***Məhəmməd MEHDİYEV,***
***akademik, BDU-nun dekanı***

# Güvəncimiz Azərbaycan polisi

## Asayişin mərd keşikçilərinə əl qaldıranlar ən ağır cəzaya layiqdirlər

*Əvvəli 1-ci səh.*

Azərbaycanda rahatlığı, asayişi pozmağa cəhd edən, dövlətlə xalq arasına nifaq salmaq istəyən qüvvələr yenə də var və orada-burada baş qaldırmağa can atırlar. Bunlar heç bir xeyirxah əmələ qadir olmayan, xalq, dövlət naminə faydalı bir iş görməyi bacarmayan və bunu istəməyən aciz, gücsüz varlıqlardır. Əllərindən gələn yalnız böhtan yağdırmaq, ara qarışdırmaq, cinayət törətməkdir.

Bir neçə gün əvvəl Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşıb asayişi kobud şəkildə pozmağa cəhd göstərən 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxs də məhz belələrindəndir. Gəncədə baş verən hadisələr Azərbaycanın inkişafını “həzm” edə bilməyən, xalqın rahatlığından narahat olanların mənfur niyyətlərini, cinayətkar əməllərini bir daha açıb göstərdi. Onların azğınlığı o dərəcəyə çatmışdı ki, dövlətinə, vətəninə, xalqına, işinə və vəzifəsinə sadiq olan iki nəfər yüksək rütbəli polis zabitinə əl qaldırdılar, iki şərəfli insanın qanına bais oldular. Bu lənətlənmişlər əslində, Azərbaycandakı sabitliyə, rahatlığa qəsd etmək cəhdində idilər.

Polisin həyatına qıyanlar öz doğma qardaşını da qətlə yetirə bilən vicdansızlardır. Bizim hamımızın damarlarında azərbaycanlı qanı axır. Vətənin çörəyi, suyu ilə böyüyüb ona xəyanət edən bu nankorlar xalqın keşiyini çəkən qardaşlarımızı qətlə yetirdilər.

Polis zabitləri şəhid kimi zirvəyə yüksəldilər. Onlara əl qaldıranlar isə alçaldılar, nifrət qazandılar, qanun qarşısında cinayətkar, Allah qarşısında ən böyük günah sahibi oldular.



Şəhid olan polkovnik İlqar Balakişiyev və polkovnik-leytenant Səməd Abbasov vətənini, dövlətini sevən zabitlər idi. Onlar Azərbaycanın xalq yolunda ölümə getməyə hazır olan və bunu öz igidlikləri ilə təsdiqləyən çoxminli polis dəstəsinin mətin üzvlərindən idilər. O polislərdən idilər ki, Azərbaycanın müstəqilliyinin qorunmasında indiyədək böyük hünərlər göstəriblər. O polislərdən idilər ki, Dağlıq Qarabağda və digər sərhədyanı bölgələrdə düşmənlə igidliklə vuruşublar. Təsadüfi deyil ki, onların bir çoxu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına, orden və medallara layiq görülüblər. Dövlətin də, xalqın da gözündə ucalıblar, bir sözlə, əbədi şöhrət qazanıblar.

İlqar Balakişiyev və Səməd Abbasov bir daha sübut etdilər ki, polis bizim təhlükəsizliyimizin, asayişimizin keşiyində daim ayıq-sayıqlıqla, mərdliklə dayanıb. Onlar iş başında, vəzifə başında belə, ölümə gedər, ancaq cinayətkara aman verməz, düşmənə əyilməzlər.

Əyilmədilər də! Çünki qarşılarındakı əsl düşmən idi. Mənfur qonşularımız olan ermənilərin dəyirmanına su tökən, bizi gözü götürməyənləri sevindirmək istəyən düşmən! Odur ki, bəd əməllərinin cəzasını layiqincə çəkəcəklər.

Ümumiyyətlə, harada pozucu qüvvələr varsa, qoy bilsinlər ki, iflasa uğrayacaq, lənətlənəcəklər. Xalq onlara dərin nifrət bəsləyəcək və heç vaxt meydan verməyəcək. Onlar öz istəklərinə çatmayacaq və heç bir zaman Azərbaycandakı xalq-iqtidar birliyini sarsıda bilməyəcəklər.

Atalar yaxşı deyib: “İgid ölər, adı qalar, müxənnətin nəyi qalar?” Xalq yolunda ölümü mərdlər bir səadət sanar. Odur ki, iki mərd polis zabitimizin ölümü nə qədər kədərlidirsə, bir o qədər də şərəflidir. Bilirik ki, onların ailələrinin hüznü böyükdür. Qoy bu igidlərin ana-bacıları, həyat yoldaşları, qız övladları bütün Azərbaycan qadınlarını öz yanlarında görsünlər və bilsinlər ki, bu cür oğullar üçün qürur duymaq lazımdır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Gəncəlilər ictimai sabitliyi pozmaq istəyənlərin ciddi cəzalandırılmasını tələb edirlər

**Gəncə öz tarixində növbəti qanlı olaya şahid oldu və hüquq-mühafizə orqanları bu təxribatın qarşısını qətiyyətlə aldı. Bu yolda sinəsini müstəqil dövlətimizi gözü götürməyən mənfur düşmənlərə sipər edənlər də oldu.**







Lakin respublikamızın ikinci böyük şəhəri olan Gəncədə təxribat törətməyə çalışan qüvvələrin və onları idarə edən ekstremist qrupların arzuları gözlərində qaldı. Ona görə ki, iqtidarla xalq birliyi yenə də qalib gəldi. Azərbaycan vətəndaşları bütün dönəmlərdə olduğu kimi, bu dəfə də Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ekstremizmə yox dedilər.

Həmin qanlı olaydan bir neçə gün keçir. İndi şəhərdə tam sabitlikdir. İnsanlar gündəlik qayğıları ilə məşğuldurlar. Törədilən terror hadisəsinin yaratdığı gərginlik artıq səngiyir. Belə bir ərəfədə şəhər ziyalıları ilə görüşüb söhbət etdik. Baş verənləri hamı qəti şəkildə qınayır, terrora yox deyirdi. Kimi danışdırdıqsa, Gəncə sakinlərinin hər zaman dövlət və dövlətçiliyin keşiyində durduğunu söylədi. Ekstremist qüvvələrin etdikləri çağırışların ölkədə sabitliyin və əmin-amanlığın pozulmasına yönəldiyini dedilər. Gəncədə törədilən hadisələrin Azərbaycanı gözü götürməyənlərin məkrli niyyəti olduğunu bildirdilər.

*Fuad ƏLİYEV, akademik, AMEA-nın Gəncə filialının direktoru:*

- Gəncədə odlu silahdan açılan atəş şəhər icra hakimiyyəti başçısının simasında Azərbaycan dövlətinə yönəlmişdi. Bu gün respublikamızda gedən sürətli inkişaf ölkədəki sabitliyə və əmin-amanlığa əsaslanır. Bu inkişafı əngəlləmək, sabitliyi pozmaq istəyən müəyyən qüvvələr var. Mən bunu xüsusilə qeyd etmək istəyirəm ki, hazırda Gəncədə sakitlik hökm sürür. Bu gün bəzi sayt və sosial şəbəkələrdə müxtəlif fikirlər səsləndirilir. Biz əminik ki, bu fikirləri söyləyənlər Gəncə ilə yaxından tanış deyillər. Onların burada son illərdə görülən işlər barədə məlumatları yoxdur. Bununla belə, məlum qüvvələrə xidmət edən bu insanlar, Gəncə və gəncəlilər haqqında həqiqəti əks etdirməyən fikirlər səsləndirir, çağırışlar edirlər. Sözsüz ki, bütün bunlar xaos yaratmaq, fitnə-fəsad törətmək, insanları qarşı-qarşıya qoymaq məqsədi güdür. Gəncə əhalisi bu tip hadisələri ötən əsrin 90-cı illərində yaşayıb. Həmin dövrdə də bir qrup çaxnaşma yaratdı və həmin insanlar sonradan heç üzə də çıxmadılar. Əziyyət çəkən isə sadə adamlar oldu. Bu səbəbdən də yaşanan olaylardan öz çirkin niyyətlərinin həyata keçirilməsi üçün istifadə edən insanlara uymaq lazım deyil.

*İbrahim CƏFƏROV, AMEA-nın müxbir üzvü, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru:*

- Bəzi qüvvələr Azərbaycandakı sabitliyi pozmağa çalışır, insanları mitinqlərə çağırır və belə bir təsəvvür yaratmağa çalışırlar ki, guya Gəncə şəhərində insanlar baş verənlərə sevinirlər. Məlumdur ki, 3 iyul 2018-ci il tarixdə ağır cinayət hadisəsi baş verdi. Siyasi qətl törətməkdə marağı olan Rusiya vətəndaşı Yunis Səfərov adlı bir nəfər Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına və onun yanında olan polis serjantına odlu silahdan atəş açdı. Azərbaycanı istəməyən, ölkədəki sabitliyi pozmağa çalışan bəzi qüvvələr baş verən hadisələrdən öz pis niyyətləri naminə yararlanmaq niyyətindədirlər. Çox təəssüflər olsun ki, bu insanlar əli silahlı qatili, suiqəsdçini "qəhrəman" səviyyəsinə qaldırdılar. Mən bir Gəncə ziyalısı, şəhər sakini kimi əmin edirəm ki, Gəncə əhalisi siyasi terrora, siyasi qətllərə yox deyir. Gəncə əhalisi daim Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yanındadır.

*Akif SÜLEYMANOV, Azərbaycan Texnologiya Universitetinin rektoru, professor:*

- Mən 7 ildir ki, Gəncədə yaşayıram və burada gedən inkişaf gözlərimin qarşısında olub. Gəncədə sakinlərə, xüsusilə də gənclərə çox böyük diqqət və qayğı var. Baş verən hadisə çox böyük təəssüf doğurur və biz hamımız bu yaşananları pisləyirik. Gəncəni qorumaq, buradakı inkişafın davamlı olmasını təmin etmək bizim üçün ən vacib şərtdir. Azəbaycanın dövlət müstəqilliyinin qorunmasında bizim üzərimizə böyük vəzifələr düşür. Mən insanlara, xüsusilə də gənclərə ölkədəki sabitliyi pozmağı, xaos yaratmağı hədəfləyən çağırışlara uymamağı tövsiyə edirəm. Əminəm ki, haqqı nahaqdan ayırmağı bacaran gəncəlilər hər zaman olduğu kimi, bu dəfə də dövlətin və dövlətçiliyin yanında olacaqlar.

*Yusif YUSİBOV, Gəncə Dövlət Universitetinin rektoru, professor:*

- Mən bir Azərbaycan vətəndaşı kimi, Gəncə sakini kimi bu hadisəni lənətləyirəm. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı olan bu sui-qəsd Azərbaycana düşmən olan müəyyən qüvvələr, mərkəzlər tərəfindən əvvəlcədən planlaşdırılmış siyasi terror aktıdır. Bu terror aktının məhz Gəncə Şəhər İcra Hakimyyətinin inzibati binasının qarşısında törədilməsinə göstərilən cəhd Gəncədə xaos, itaətsizlik, anarxiya, insanlar içərisində xof, qorxu, vahimə yaratmağa, o cümlədən şəhərdə qarışıqlıq yaratmağa hədəflənmişdi. Terrorçunun vətəni, milliyyəti olmur deyirlər. Mən Azərbaycan vətəndaşı kimi, Gəncə sakini kimi bu hadisələri, o cümlədən terror hadisələrini pisləyirəm.

*Həsənbala SADİQOV, Gəncə Dövlət Universitetinin professoru:*

- Gəncə Şəhər İcra Hakimiyyəti başçısının güllələnməsi hadisəsinin hüquqi cəhətdən qiymətləndirilməsi uzun sürmədi. Ona görə ki, hadisədən sonra ötən cümə günü üç mühüm hüquq-mühafizə orqanı - DİN, Baş Prokurorluq və DTX birgə açıqlama yayaraq hadisəni terror aktı elan etdi. Bu qanlı aksiya xalqı öz dövlətilə üz-üzə qoymaq istəyənlərin bölgə üçün planlaşdırılmış əməliyyatı olmaqla yanaşı, Azərbaycanın müstəqilliyinə, dünyəviliyinə, sabitlik boyda sərvətinə göz dikildiyinin göstəricisidir.

Qarşıda uzun sürəcək kimi görünən istintaq mərhələsi var. Amma bunu gözləmədən insanlar Gəncə hadisəsinə fərqli bucaq altında baxırlar ki, nəticədə tətikçinin əlaqə şkalası fərqli ölkələrin üzərində dayanır. Yaxın planda müxtəlif dini radikal təşkilatlarla əlaqələri ortaya çıxır. Yunis Səfərovun Rusiya vətəndaşı olması bir versiyanın ortaya çıxmasına səbəb olurdusa, digər tərəfdən Suriyadakı hərbi təlimlərdə iştirakı cinayətin dini motivlərlə törədilməsini üzə çıxarırdı. Bunlardır ilk ekspert nəticələri. Çoxları zəlzələnin sovuşduğunu düşündüyü halda, çox az adam qarşıdan gələn - 10 iyulda baş verəcək və Gəncə tarixinə düşəcək, ağır olsa da, facıə adlandırılacaq hadisələri düşünə bilmirdilər. Gəncə şəhərində ictimai asayişi pozmağa cəhd göstərmiş bir qrup şəxsin xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına küt və kəsici-deşici alətlərlə hücum etməsi nəticəsində 2 polis zabiti şəhid oldu.

Gəncəlilərin tələbi ondan ibarətdir ki, şəhərimizə soxulmuş və qarışıqlıq yaratmağa çalışan radikallara qarşı qətiyyətlə mübarizə aparılsın və onlar ən ciddi şəkildə ədalət mühakiməsi qarşısında cavab versinlər.

*Pərvin KƏRİMZADƏ, Gəncə Dövlət Universitetinin prorektoru, Milli Məclisin deputatı:*



- İyulun 10-da, saat 20 radələrində 150-200 nəfərdən ibarət bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərdilər. Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan, qanunazidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstərdilər. Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə onların hüquqazidd əməllərinin qarşısı alındı. Görülmüş operativ tədbirlərlə təxminən 30 dəqiqə ərzində şəhərin mərkəzində asayiş tamamilə bərpa olundu. Həmin qrupun qanunsuz hərəkətlərinin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən iki polis zabiti - Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid oldular. Fakt üzrə Baş Prokurorluqda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmışdır. Hazırda cinayətin bütün iştirakçılarının və təşkilatçılarının müəyyən edilib məsuliyyətə cəlb olunmaları məqsədilə zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Gəncədə baş verən qanlı hadisələrin mənbəyi və təşkilatçıları məlum olmayan və bunun arxasında hansı faktorların dayandığı haqqında konkret məlumatlar olmasa da, hakimiyyət orqanlarının narahatçılıqları açıqca hiss olunurdu. Bəzi hallarda bunu dini motivlərlə əlaqələndirənlər də olurdu. Ən çox da şəhərdə guya dini mərasimlərə qadağaların qoyulması barədə söz-söhbət gedirdi. Bu barədə *Gəncənin "İmamzadə" ziyarətgahının axundu Hacı Tahir Abbaszadə* öz fikirlərini belə izah etdi:

- Gəncədə böyük və ağır bir hadisə baş verib. Bu ərəfədə hər hansı çağırış haqqında heç bir məlumatım yoxdur. Gəncəlilər belə bir çağırış etməyiblər. Çağırış varsa da, ünvanı məlum deyildi. Bu fikirləri yayanlar aranı qatmaq, qatillərin ünvanını yayındırmaq istəyirlər. Xalq bilməlidir ki, biz bu çağırışları dəstəkləmirik. Hamı anlamalıdır ki, bu, təxribat və oyundur. İlkin istintaqın qənaətinə görə, Yunis Səfərov terrorçu elan edilib. Gəncəlilər heç bir zaman yol verməzlər ki, şəhərdə ara qarışsın.

*Əlisəftar SƏFƏRƏLİYEV, Gəncə şəhər "Şah Abbas Cümə Məscidi dini icmasının sədri:*

- Müəyyən olunmuş qaydalar çərçivəsində Gəncədə bütün dini mərasimlər keçirilir. Elə bir dini mərasim yoxdur ki, baş tutmamış olsun. Məsələn, Ramazan ayı yeni başa çatıb. Bu müqəddəs ayda iftarlar verilib. Özü də çox yüksək səviyyədə. Qurban bayramı da onun kimi. Bu mərasimlər hər zaman ən yüksək səviyyədə keçirilir. Qurbanlar kəsilir, ehtiyacı olanlara paylanılır.

*Ağakərim ƏLƏKBƏROĞLU, din xadimi:*

- Gəncədəki "İmamzadə" türbəsi gözəl şəkildə təmir olunub. Orada həzrəti İmam Hüseynin adını daşıyan meydan yaradılıb ki, bu da dindarların sərbəst şəkildə dini ayinləri icra etmələrinə imkan verir. Baş vermiş bu son hadisələri din adı ilə bağlayanlara etirazımı bildirirəm. Azərbaycan güclü dövlətdir və bu hadisə ölkə rəhbərinin öz nəzarətindədir. Bu hərəkətin, bu əməlin dinlə heç bir əlaqəsi yoxdur.

* * *

İyulun 11-də Gəncədə böyük izdiham yaşanmışdır. Müstəqilliyimizin keşiyində ayıq-sayıq dayanan və bu yolda şəhid olan igid polis zabitlərinin dəfninə on minlərlə insan gəlmişdi. Vida mərasimində göz yaşları tökən insanlar başqa duyğular da yaşayırdılar. Vəzifə borclarını yerinə yetirərkən qəhrəmancasına həlak olan polis polkovniki İlqar Balakişiyev və polis polkovnik-leytenantı Səməd Abbasov şəhidlik zirvəsinə ucalmaqla yanaşı, həm də xalqın qəlbində özlərinə əbədi yer tutdular. Bunu dəfn mərasimində yaşanan insan izdihamı təsdiqləyirdi.

Respublika daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov vida mərasimində çıxış edərək diqqətə çatdırdı ki, bu gün hamı üçün ağır bir gündür. İki nəfər polis zabiti cinayətkarlara qarşı mübarizə apararkən qəhrəmancasına şəhid olmuşlar. Onlar çəkinmədən cinayətkarların qarşısına çıxaraq ölkədə, həmçinin Gəncədə sabitliyin qorunması üçün öz polis andlarına sadiq qalaraq dövlətçiliyə sədaqətlərini göstərdilər. Şəhid olmaqla milyonlara sübut etdilər ki, terrorçuluğa aman verilməyəcəkdir. Hər iki polis zabiti uzun illər daxili işlər orqanlarında şərəflə xidmət etmişlər. İlqar Balakişiyev 35 illik xidməti dövründə bütün tapşırıqlara ləyaqətlə əməl etmiş, dəfələrlə Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən mükafatlandırılmış, 1993-cü ildə isə ulu öndər Heydər Əliyev tərəfindən "İgidliyə görə" medalı ilə təltif olunmuşdur. Öz xidməti ilə Gəncə şəhəri sakinləri arasında böyük hörmət qazanmışdır.

Şəhid Səməd Abbasov da şərəfli xidmət yolu keçmiş, polis serjantlığından polis polkovnik-leytenantı rütbəsinədək yüksəlmişdi. Nizami Rayon Polis İdarəsi rəisinin müavini olan Səməd Abbasov kollektivdə də fərqlənmiş, rayon ərazisində ictimai asayişin qorunmasında nümunəvi xidmət göstərmişdir. Bu gün hər iki polis qardaşımızı son mənzilə yola salırıq. Ancaq onların əziz xatirəsi gəncəlilərin yaddaşından heç vaxt silinməyəcək. Onların şərəfli ömrü həm yoldaşlarının, həm də tanıyanların xatirəsində dərin iz qoyacaq.

Vida mərasimində *"Gəncənin səsi" qəzetinin baş redaktoru Rəfiqə Sadıqova* ürək sözlərini belə ifadə etdi:

- Mən bu gün bu mərasimdə bir ana kimi çıxış edirəm. Analar nə istəyir? Onu istəyirlər ki, böyütdükləri övladları əmin-amanlıqda yaşasınlar. Bu gün nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada ən sabit ölkə olan Azərbaycan bizim övladlarımıza arzuladığımız ən gözəl məkandır. Azərbaycan dünyada öz sözünü deyən ölkədir. Təəssüf ki, yaradılan bu gözəlliyi, inkişafı gözü götürməyənlər də var. Antimilli, antidemokrat insanlar hansı yolla olur-olsun ölkə daxilində iğtişaş salmaq istəyirlər. Lakin onlar bunu bacarmayacaqlar. Çünki ölkəmiz etibarlı əllərdədir. Mən bir ana kimi Gəncə analarının fikrini ifadə etmək istəyirəm. Gəncədə baş verən bu hadisəni pisləyir və deyirəm ki, bizim birliyimizi heç bir qüvvə ayıra bilməz. Çünki bütün Azərbaycan xalqı, eləcə də gəncəlilər dövlətə və dövlətçiliyə sədaqətlidirlər.

Vida mərasimində çıxış edən akademik Fuad Əliyev, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Elnur Rzayev, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov və digər natiqlər Gəncədə baş verən terror hadisəsini qətiyyətlə pislədilər. Qeyd etdilər ki, bu gün hər birimiz yaxşı görürük ki, Azərbaycan necə sürətlə inkişaf edir. Bu inkişaf ölkədə hökm sürən sabitliyin nəticəsidir. Lakin bu inkişafı gözü götürməyənlər də var. Gəncədə baş verən qanlı cinayət hadisəsi məhz bu inkişafa xor baxanların məkrli niyyətləri idi. Lakin onların niyyətləri baş tutmadı. Azərbaycan polisi yenə də özünün ayıq-sayıqlığını göstərdi. Şəhərdə sabitliyi bərpa etdi. Təəssüflər olsun ki, bu zaman iki polis zabiti şəhid oldu. Söz yox ki, cinayətkarlar tezliklə aşkar edilərək öz layiqli cəzalarını alacaq, şəhid polislərin qanı yerdə qalmayacaqdır.

Mərasimdə çıxış edənlər onu da vurğuladılar ki, 2018-ci il tarixi yubileylər ilidir. Ölkə rəhbəri İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi böyük təntənə ilə qeyd edildi. Bundan sonra iyun ayının 26-da Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar möhtəşəm hərbi parad keçirildi. Azərbaycan 1995-ci ildəki hadisələrdən sonra 23 ildir əmin-amanlıq şəraitində yaşayır. Görünür, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi də, hərbi paradda nümayiş etdirilən müasir silahlar da ölkəmizin xaricində və daxilində olan müəyyən qüvvələri narahat edir. Məhz buna görə də həmin qüvvələr ölkəmizdə sabitliyi pozmaq və təxribatlar törətmək üçün bundan sonra da fəallıq göstərəcəklər. Bizdən isə asılı odur ki, ayıq-sayıq olaq və belə qüvvələrə qarşı birlik nümayiş etdirək.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Azərbaycanda sabitliyi pozmaq istəyənlərin planları puç olacaq



**2018-ci ilin ötən dövrü Azərbaycan üçün mühüm uğurlarla əlamətdardır. Bu müddətdə respublikamızda iqtisadi sferada təqdirəlayiq inkişaf göstəriciləri qeydə alınıb, qarşıya qoyulan vəzifələr yerinə yetirilib. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasında bu barədə ətraflı söz açıldı.**

**Amma bir məsələ də var ki, Azərbaycanın inkişafı, müstəqil dövlət kimi möhkəmlənməsi dostlarımızı nə qədər sevindirirsə də, düşmənlərimizi də bir o qədər qıcıqlandırır. Düşmənimiz isə təkcə Ermənistan deyil. Bu gün erməni təəssübünü çəkən, Azərbaycanın müstəqil siyasət yürütməsini, Cənubi Qafqazın lider dövlətinə çevrilməsini, Avropanın enerji xəritəsinə dəyişikliklər etməsini, güclü ordu formalaşdırmasını, mühüm iqtisadi inkişaf göstəricilərinə malik olmasını həzm edə bilməyən bir sıra antiazərbaycançı dairələr ölkəmizi yüksləliş yolundan çıxarmaq üçün ən riyakar planları belə, həyata keçirməkdən çəkinmirlər.**

İyulun 10-da Gəncədə baş verən hadisələr də antiazərbaycançı dairələrin çirkin planlarının tərkib hissəsidir. Bu, din pərdəsi altında fəaliyyət göstərən, əslində isə xarici dairələr tərəfindən idarə olunan terrorçuların Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq və qarşıdurma yaratmaq cəhdi idi. Həmin xarici dairələrin başlıca məqsədi əhalinin kütləvi şəkildə hakimiyyətə qarşı radikal çıxışlarını təşkil etmək, Şərqdə baş verən qanlı ssenariləri Azərbaycanda təkrarlamaq və ölkəni Liviyaya, Suriyaya çevirməkdir. Bunun üçün bəzi radikal dini dünyagörüşünə malik, dövlətçiliyin, müstəqilliyin nə olduğunu dərk etməyən ünsürlər vasitəsilə insanları itaətsizliyə çağırıb, sosial şəbəkələr vasitəsilə hakimiyyət orqanlarını hədələmiş, hüquqazidd və qeyri-konstitusion çağırışlar etmişlər. Bu mənada Gəncədə baş verənlər dövlətə və dövlətçiliyə edilən qəsd idi.

Lakin bu antimilli ideyanın müəllifləri unudublar ki, birincisi, Azərbaycanda hakmiyyətlə xalq arasında sarsılmaz birlik mövcuddur. İkincisi isə Azərbaycan güclü dövlətdir. Ona görə ölkəmizə qarşı bu cür riyakar metodlarla təsir və təzyiq göstərmək, onu öz inkişaf yolundan döndərmək mümkün deyil.

Qeyd edim ki, Gəncədə baş verənlərin dinə heç bir aidiyyəti yoxdur, sadəcə, din pərdəsi altında törədilən cinayət əməlləri var. Azərbaycanda dövlət tərəfindən dini sahəyə diqqət və qayğının şahidi olmuşuq. Respublikamızda bir məscid belə təmirsiz qalmayıb, ən yüksək səviyyədə təmir olunaraq insanların istifadəsinə verilib. Buna misal olaraq Qafqazda ən qədim məscid olan Şamaxı məscidini, Gəncədə İmamzadə kompleksini göstərmək olar. Qafqazda və dünyada ən böyük məscidlərdən biri olan Heydər Əliyev məscidi tikilib, insanların istifadəsinə verilib. Hər bir kəs dini ayinləri azad şəkildə yerinə yetirə bilər. Biz hansısa dövləti təkrar edə bilmərik, adət-ənənələrimiz, dinə öz baxışımız var. İslami dəyərlər Azərbaycanda olduğu qədər heç bir yerdə yoxdur və ən düzgün forması da Azərbaycandadır. Bu mənada Gəncə hadisələri din pərdəsi altında törədilən təxribat idi.

Bu hadisə fonunda diqqəti çəkən digər mühüm məsələ isə daxili işlər orqanları əməkdaşlarının öz peşə fəaliyyətlərini ləyaqətlə, qəhrəmancasına yerinə yetirmələri oldu. Məhz polis əməkdaşlarının ayıq-sayıqlığı ilə şəhərdə qarışıqlıq yaratmaq istəyən qaragüruhçu dəstənin əməllərinin qarşısı dərhal alındı. İki polis zabitimizin xaincəsinə qətlə yetirilməsini isə bütün ölkə ictimaiyyəti böyük üzüntü ilə qarşıladı. Ölkə ictimaiyyəti bir daha gördü ki, dövlətçiliyin əsas sütunlarından olan Azərbaycan polisi dövlətə və onun konstitusion dayaqlarına qarşı çıxmağa cəhd göstərənlərlə mübarizədə mətindir və cinayətkarlığın qarşısının alınmasında, ictimai təhlükəsizliyin təmin olunmasında öz missiyasını şərəflə yerinə yetirir.

Bu hadisə bir daha göstərdi ki, ümummilli lider Heydər Əliyevin əmanəti olan və Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən Azərbaycan Respublikasında ictimai-siyasi sabitlik möhkəm qorunur, hər hansı təxribatın, Konstitusiyaya zidd hərəkətlərin qarşısı Azərbaycanın daxili işlər orqanlarının şəxsi heyəti tərəfindən qətiyyətlə alınır. Bəli, Azərbaycan polisi dövlətçiliyimizə zərbə vurmaq, əmin-amanlığa, sabitliyə təhlükə yaratmaq istəyənlərə qarşı mübarizədə daim barışmaz və qətiyyətlidir və daxili işlər orqanları dəfələrlə ölkəmizdə sabitliyin pozulmasına, hakimiyyətin zorla dəyişdirilməsinə yönəlmiş cinayətkar əməllərin qarşısını almaqla dövlətçiliyimizin keşiyində sadiq dayandığını sübut ediblər. İki polisimizin bu yolda öz canları bahasına fədakarlıq göstərmələri heç vaxt unudulmayacaq.

Azərbaycan əhalisi dövlətçiliyimizin, cəmiyyətimizin əleyhinə yönəlmiş əməllərə, təxribatlara qarşı daim barışmazdır. Güclü dövlətçilik, xalqın etimadına əsaslanan güclü hakimiyyət, eləcə də insanların ölkənin dünyəvi prinsiplərlə inkişafında nümayiş etdirdikləri həmrəylik Azərbaycanın konstitusion quruluşunun dəyişdirilməsinə cəhd göstərənlərin məkrli arzularının qarşısında həmişə sipər olaraq qalacaq. Azərbaycan hüquqi, demokratik inkişaf yolu ilə sürətlə irəliləyən ölkədir və hər hansı dini qrupların, onların xarici havadarlarının sabitliyi pozmaq, əhali arasında çaxnaşma yaratmaq, din adından istifadə edib öz bəd niyyətlərini həyata keçirmək cəhdləri heç bir səmərə verməyəcək. Bundan əvvəl də belə riyakar planlar olub və hamısı iflasa uğrayıb. Daim Azərbaycan dövlətçiliyinin, ictimai asayişin keşiyində ayıq-sayıq dayanmış hüquq-mühafizə orqanlarının qətiyyəti, operativliyi sayəsində ölkəmizdə sabitliyin pozulmasına hesablanmış bütün cəhdlərin qarşısı alınıb. Ona görə ölkəmizdə terror, xaos, gərginlik yaratmaq, ictimai-siyasi sabitliyi pozmaq istəyən bütün qüvvələrin planları puça məhkumdur.

***Nəsib MƏHƏMMƏLİYEV, Milli Məclisin deputatı***

# Gəncədəki təxribat islam dəyərlərinə görə böyük cinayətdir

**Gəncə şəhərində baş verən terror hadisəsi cəmiyyətdə son günlər müzakirə olunan ən aktual mövzudur. Statusundan, dini, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı bu hadisəni qətiyyətlə pisləyir. Baş vermiş olayda cinayətkarlar din adından sui-istifadə edərək öz məkrli planlarını həyata keçirməyə cəhd etdilər. Həm dövlətçiliyimizə, həm də dinimizə qarşı çıxdılar. Bununla bağlı münasibət bildirən din xadimləri də birmənalı fikirlər səsləndirdilər.**

## Dövlətçiliyimizi hədəf seçənlər dinimizə də ləkə yaxırlar

"İmamzadə" məscidinin imamı, QMİ-nin Şamaxı bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Elşən Rüstəmov qeyd etdi ki, Gəncə şəhərində baş verən cinayəti törədənlərin din pərdəsi altında fəaliyyət göstərməsi əsassızdır: "Biz qəbul etmirik ki, ölkədə belə hadisələr baş versin. Əlbəttə, bu, düşmənlərin işidir, təxribatıdır. Din pərdəsi altında, ölkəni bu cür qarışdırmaya cəhd göstərirlər. Lakin bu hadisədə heç bir dini əlamət olmayıb. Dinə belə təxribatlar yaddır. Din sülhdür, əmin-amanlıqdır. İslam dini dünyaya nümunədir. Bizim dövlətimiz qüdrətli dövlətdir. Azərbaycanda sabitliyi heç kim poza bilməz".

Onun sözlərinə görə, din pərdəsi altında fəaliyyət göstərən radikal qrupların cəmiyyəti iğtişaşlara təhrik etməsi dövlətə qarşı aşkar terrordur, islami dəyərlərə isə ziddir. E.Rüstəmov qeyd etdi ki, terrorçunun dini olmur. Terrorla məqsədə çatmaq bəşəriyyət əleyhinə cinayətdir. İslam dini terrorizmə, zülmə, bu cür davranışların əleyhinə hər zaman çıxıb. Heç bir kəsə insanı öldürmə haqqı verilmir. Bizim dinimiz barış dinidir, insanlar arasında sülh yaratmaq üçün göndərilib. Baş verənlərin islam dini ilə heç bir aidyyəti yoxdur.

"Bütün Şamaxı möminləri, dindarları, əhalisi Gəncədə baş verən təxribatları pisləyir, əleyhinə çıxırlar. Hər zaman da ölkəmizin, dövlətimizin yanındayıq. Bu təxribatlara, din adı altında mənfur fikirlərini yeridən insanlara öz sözümüzü deyirik ki, onlar öz istəklərinə nail ola bilməzlər", - deyə "İmamzadə" məscidinin imamı söylədi.

## Din insanları hər zaman barışa, sülhə çağırır

Hacı Cəfər məscidi dini icmasının sədri, QMİ-nin səlahiyyətli nümayəndəsi Mirələsgər Mirməmmədov isə bildirdi ki, Gəncədə baş verən iğtişaşlar həm Azərbaycan qanunlarının, həm də dini dəyərlərin tapdalanması kimi qəbul edilməlidir. Bir qrup şəxs Azərbaycandakı asayişi pozmaq üçün ən mühüm vasitə kimi dini təxribatlar törətmək yolunu seçib: "Konkret deyə bilərik ki, bu hadisənin islam dini ilə heç bir əlaqəsi yoxdur. Din hər zaman barışa dəvət edir, insanları sülhə çağırır, terroru, insan ölümünü, işgəncəni pisləyir. Sadəcə olaraq, qarşısına məqsəd qoymuş məkrli qruplaşmalar din adı altında başqa insanları ətrafına cəlb etməyə çalışırlar. Həm də bununla gördükləri əməlin əsl mahiyyətini gizlədirlər. Gəncə hadisələrinin başvermə vəziyyətinə baxanda da açıq-aşkar görünür ki, bu, dinə və dövlətə qarşı olan cinayətdir. Ona görə də din xadimləri bu olayları pisləyir və insanları diqqətli olmağa çağırırlar".

M.Mirməmmədov qeyd etdi ki, Azərbaycanda din dövlətdən, dövlət də dindən ayrıdır. Dini məsələləri dövlətə qarışdırmaq lazım deyil: "Bir şəxsin intriqası varsa, hər hansı bir məmurdan narazılığı varsa, bunu qanunla, məhkəmə yolu ilə həll etməlidir. Yalan informasiyalarla insanları aldadıb öz məqsədlərinə çatmaq üçün dindən sui-istifadə edib, terrora əl atmaq isə birmənalı qəbuledilməzdir. Yenə deyirəm, əgər insanın hüququ pozulubsa, məhkəməyə müraciət edilməlidir. Dində bu məsələlərin insanların zorakılıqla həll etməsinə icazə verilmir!

Onun fikrincə, belə hadisələr ölkəmizdə əsrlər boyu formalaşmış dini-mənəvi dəyərlərə xidmət edə bilməz. Bu insanlar ictimai sabitliyimizi pozmağa cəhd etməklə, dövlətçiliyimizə qarşı çıxmaqla, eyni zamanda, dinimizi hədəf seçdilər. Ona görə də bu hadisə həm islam dininə, həm də Azərbaycan xalqına hörmətsizlik kimi qiymətləndirilməlidir.

***Səbinə MƏMMƏDOVA, "Azərbaycan"***

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149; Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1076-VQD nömrəli Qanunu) 102.1.14.15-ci maddəsindən "və feldyeger rabitəsi" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1211-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1211-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2018-ci il*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12, I kitab, maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1077-VQD və 1 may tarixli 1114-VQD nömrəli qanunları) 2.3-cü maddəsində ", xarici işlər və feldyeger rabitəsi" sözləri "və xarici işlər" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1212-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1212-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 189 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 980-VQD nömrəli Qanunun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 189 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 539; 2006, № 2, maddə 82; 2008, № 3, maddə 168, № 8, maddə 713; 2009, № 7, maddə 532; 2010, № 9, maddə 770; 2015, № 6, maddə 700; 2016, № 5, maddə 866, № 12, maddə 2069; 2017, № 9, maddə 1654) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə üzrə:

1.1. altıncı abzasa "surəti" sözündən sonra "("Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq heç bir dövlətin vətəndaşlığına mənsub olmaması və Azərbaycan Respublikasında daimi yaşaması faktı məhkəmə tərəfindən müəyyən edilmiş şəxslərdən bu sənəd tələb olunmur)" sözləri əlavə edilsin;

1.2. yeddinci abzasa "şəxslər" sözündən sonra ", habelə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq heç bir dövlətin vətəndaşlığına mənsub olmaması və Azərbaycan Respublikasında daimi yaşaması faktı məhkəmə tərəfindən müəyyən edilmiş şəxslər" sözləri əlavə edilsin;

1.3. doqquzuncu və onuncu abzaslar müvafiq olaraq onuncu və on birinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktının müəyyən edilməsi haqqında məhkəmə qətnaməsinin surəti.";

1.4. onuncu abzasda "dördüncü" sözü "beşinci" sözü ilə əvəz edilsin.

2. 2-1-ci hissəyə "yoxlanılır" sözündən sonra "("Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2018-ci il*

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1795; 2017, № 2, maddələr 138, 150; № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645) 1-ci maddəsinin birinci hissəsinin 20-ci bəndində "hərbi avtomobil müfəttişliyinin" sözlərindən sonra " və feldyeger rabitəsi orqanının," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1216-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1216-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2018-ci il*

# Bakı şəhərində nəqliyyat vasitələri sahiblərinin dayanma, durma və parklanma qaydalarına riayət etməsinin təmin olunması və yol hərəkətinin təşkili sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Bakı şəhərində nəqliyyat vasitələri sahiblərinin dayanma, durma və parklanma qaydalarına riayət etməsinin təmin olunması, yol hərəkətinin təşkili sahəsində fəaliyyətin təkmilləşdirilməsi və müasir informasiya texnologiyalarından istifadə edilməklə həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı Nəqliyyat Agentliyi Bakı şəhərinin inzibati ərazisində:

1.1. parklanma yerlərində, habelə dayanma və durmanın qadağan edildiyi yerlərdə inzibati xəta törədilməsinə görə elektron protokolların tərtib edilməsi məqsədilə foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin quraşdırılmasını təmin etsin;

1.2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə birlikdə həmin xüsusi texniki vasitələrin Nazirliyin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sisteminə inteqrasiya olunmasını təmin etsin;

1.3. dayanma, durma və parklanma qaydalarını pozmuş nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada mühafizə edilən duracağa aparılması (bundan sonra - təxliyə) xidmətini təşkil etsin və təxliyə xidmətinin həyata keçirilməsinə nəzarət etsin;

1.4. nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə qaydasını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. yeni yeraltı və yerüstü avtomobil duracaqlarının (qarajlarının), həmçinin mühafizə olunan duracaqların yaradılması ilə bağlı zəruri tədbirlər görülməsini təmin etsin.

2. Bu fərmanda nəzərdə tutulmuş tapşırıqların icrası, həmçinin nəqliyyat axınının tənzimlənməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin Füzuli və Mirzağa Əliyev küçələri arasında və Neftçilər prospektində - Hökumət Evinin qarşısında yerləşən yeraltı avtomobil qarajları bir ay müddətində Bakı Nəqliyyat Agentliyinin balansına verilsin.

3. Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti Bakı Nəqliyyat Agentliyinin tabeliyinə verilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair tələbləri Bakı Nəqliyyat Agentliyinin təklifləri əsasında hazırlayıb bir ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. Bakı Nəqliyyat Agentliyinin təklifləri əsasında Bakı şəhərində yeni avtomobil duracaqlarının (qarajlarının), həmçinin mühafizə olunan duracaqların yaradılması məqsədilə torpaq sahələrinin ayrılması və həmin duracaqların (qarajların) agentlik tərəfindən tikilməsi ilə bağlı zəruri tədbirlərin görülməsini təşkil etsin;

4.3. bu fərmanın 2-ci və 3-cü hissələri nəzərə alınmaqla, Bakı Şəhər İcra Hakimiyyətinin balansında olan dövlət əmlakının Bakı Nəqliyyat Agentliyinin balansına verilməsini təmin etsin;

4.4. nəqliyyat vasitələri sahiblərinin dayanma, durma və parklanma qaydalarına riayət etməsinin təmin olunması məqsədilə Azərbaycan Respublikası qanunlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.5. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.7. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.8. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

6. "Bakı Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 2 aprel tarixli 1902 nömrəli fərmanı ilə təsdiq edilmiş "Bakı Nəqliyyat Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.1.1-ci yarımbənddə "təşkil edir" sözlərindən sonra ", habelə tabeliyindəki qurum vasitəsilə sərnişindaşıma fəaliyyətini həyata keçirir" sözləri əlavə edilsin.

6.2. 3.1.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.6. parklanma yerlərini müəyyənləşdirir, onları təşkil və idarə edir, parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair tələblərə əməl olunmasına nəzarət edir və parklanma qaydalarını pozmuş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi məqsədilə tədbirlər görür;";

6.3. aşağıdakı məzmunda 3.1.6-1-ci yarımbənd əlavə edilsin:

"3.1.6-1. öz balansında olan avtomobil duracaqlarını (qarajlarını) idarə edir və agentliyin yeni avtomobil duracaqlarının (qarajlarının) layihələndirilməsini, tikilməsini və vəziyyətinə nəzarəti həyata keçirir";

6.4. 3.1.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.7. piyada-yol infrastrukturunun təşkilində iştirak edir, nəqliyyat qovşaqlarının (nəqliyyat mübadilə mərkəzlərinin), dayanacaq məntəqələrinin, parklanma yerlərinin, habelə piyadaların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yerüstü piyada keçidlərinin, səkilərin, səkilərdə pandusların, sədlərin və digər texniki vasitələrin layihələndirilməsini, tikilməsini (quraşdırılmasını), təmirini, yenidən qurulmasını, saxlanılmasını və onların vəziyyətinə nəzarəti həyata keçirir;"

6.5. 3.1.12-ci yarımbənddən "dayanacaq məntəqələrinin, parklanma yerlərinin (avtomobil dayanacaqlarının), yerüstü və" sözləri çıxarılsın;

6.6. 3.1.18-ci yarımbəndə "həddini" sözündən sonra "və taksi minik avtomobillərinin kvotasını" sözləri əlavə edilsin;

6.7. aşağıdakı məzmunda 3.1.21-1 və 3.1.22-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.21-1. dayanma və ya durma qaydaları pozulmaqla tıxac yaranmasına və digər nəqliyyat vasitələrinin və piyadaların hərəkətinin mühüm dərəcədə məhdudlaşdırılmasına səbəb olmuş nəqliyyat vasitələrinin mühafizə edilən duracağa aparılması (təxliyə) xidmətini təşkil edir və həmin nəqliyyat vasitələri sürücülərinin inzibati məsuliyyətə cəlb edilməsi məqsədilə tədbirlər görür, habelə təxliyə xidmətinin həyata keçirilməsinə nəzarət edir;";

"3.1.22-1. ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri ilə sərnişindaşıma xidmətləri yerinə yetirən sürücülərin qeydiyyatını aparır və müvafiq sürücü məlumat bazasını yaradır;";

6.8. 5.5.8-ci yarımbəndə "təsdiq edir" sözlərindən sonra ", agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirir" sözləri əlavə edilsin;

6.9. 6.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.7. Agentliyin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulmuş mallarının (işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aiddir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2018-ci il*

# "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, maddə 223; 2017, № 7, maddə 1343; 2018, № 1, maddə 44) 2.3-cü bəndinə "səlahiyyətlərini" sözündən sonra "Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, digər hallarda" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2018-ci il*

## “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Siyasi partiyalar haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 11, maddə 387, № 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226; 2001, № 11, maddə 683; 2002, № 8, maddə 463; 2004, № 2, maddə 57, № 5, maddə 321, № 8, maddə 598; 2005, № 4, maddə 278, № 6, maddə 464; 2006, № 3, maddə 225; 2007, № 11, maddələr 1049, 1053; 2010, № 4, maddə 276; 2012, № 5, maddə 414; 2014, № 11, maddə 1332; 2015, № 4, maddə 366; 2017, № 5, maddə 684) 4-cü maddəsinə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

“Azərbaycan Respublikasının Silahlı Qüvvələrində siyasi partiyaların yaradılması və fəaliyyəti qadağandır.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2018-ci il*

## “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1184-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1184-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2018-ci il*

## “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Siyasi partiyalar haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 11, maddə 387, № 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226; 2001, № 11, maddə 683; 2002, № 8, maddə 463; 2004, № 2, maddə 57, № 5, maddə 321, № 8, maddə 598; 2005, № 4, maddə 278, № 6, maddə 464; 2006, № 3, maddə 225; 2007, № 11, maddələr 1049, 1053; 2010, № 4, maddə 276; 2012, № 5, maddə 414; 2014, № 11, maddə 1332; 2015, № 4, maddə 366, № 5, maddə 684) 8-ci maddəsinin üçüncü hissəsindən “feldyeger rabitəsi,” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

## “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1213-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1213-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2018-ci il*

## “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin işçilərinin əməkhaqlarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2094 nömrəli Sərəncamının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1573 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin işçilərinin əməkhaqlarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2094 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 350) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2018-ci il*

## “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyətinin təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1573 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddə 477, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659) ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 3.11.5-1-ci yarımbəndindən “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 539; 2017, № 4, maddə 547) ilə təsdiq edilmiş “Tikinti işlərinin dayandırılması Qaydası”nın 4.2-ci və 4.3-cü bəndlərindən “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında” sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1179 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2097; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli 139 nömrəli fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Turizm Şurasının tərkibi”ndə “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi” sözləri “İçərişəhər” Dövlət Tarix Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 195 nömrəli sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1612; 2014, № 9, maddə 1027, 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384, № 10, maddə 1661; 2017, № 8, maddə 1521) ilə təsdiq edilmiş “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”nın 2.2.2-2.2.6-cı, 2.2.8-ci, 2.2.9-cu, 2.3.1-2.3.3-cü, 2.3.5-ci və 2.3.8-ci yarımbəndlərindən “Nazirlər Kabineti yanında” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2018-ci il*

## “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Əsasnaməsinin, idarənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 may tarixli 574 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1573 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Əsasnaməsinin, idarənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 may tarixli 574 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 456; 2010, № 2, maddə 81; 2013, № 1, maddə 26) 1-4-cü hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 fevral tarixli 200 nömrəli fərmanı ilə təsdiq edilmiş “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 fevral tarixli 200 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 75; 2008, № 1, maddə 8; 2015, № 11, maddə 1321) ilə təsdiq edilmiş “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə”nin 5-ci hissəsindən “Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 10 fevral tarixli 629 nömrəli Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2018-ci il*

## “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 iyul tarixli 229 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 iyul tarixli 229 nömrəli Fərmanını “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1007-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 iyul tarixli 229 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 811) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”.

2. Aşağıdakı məzmunda 3.1-1-ci və 3.1-2-ci bəndlər əlavə edilsin:

“3.1-1. həmin qanunun 5.4-cü və 6.3-cü maddələrində, 6.4-cü maddəsinin ikinci cümləsində, 6.5-ci maddəsində, 7.2-ci maddəsinin ikinci cümləsində, 8.2-ci maddəsində, 9.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.1-2. həmin qanunun 1.0.5-ci maddəsində “qurum” dedikdə “Azərbaycan Akkreditasiya Mərkəzi” publik hüquqi şəxs nəzərdə tutulur;”.

3. 3.2-ci bənddən “1.0.5-ci və” sözləri çıxarılsın və həmin bənddə “maddələrində” sözü “maddəsində” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2018-ci il*

## “Miqrasiya idarəetmə sisteminin inkişafı və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli 658-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 805 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 980-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

“Miqrasiya idarəetmə sisteminin inkişafı və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli 658-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 805 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 713; 2009, № 7, maddə 532; 2010, № 9, maddə 774; 2014, № 9, maddə 1049; 2015, № 5, maddə 516) 5.5-ci bəndində “beşinci” sözü “altıncı” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2018-ci il*

## “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2341) aşağıdakı məzmunda 2.1-1-ci və 2.1-2-ci bəndlər əlavə edilsin:

“2.1-1. həmin qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini 4.1.1 - 4.1.4-cü maddələr üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, 4.1.5-ci maddə üzrə ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin monitorinqinin keçirilməsinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının ərazisində tütündən istifadənin miqyasını müəyyənləşdirmək və istifadənin azaldılmasına nail olmaq məqsədi ilə həyata keçirilən və (və ya) planlaşdırılan tədbirlər haqqında əhalinin məlumatlandırılmasına münasibətdə isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

2.1-2. həmin qanunun 11.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

# “Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 222; 2004, № 4, maddə 202; 2005, № 4, maddə 278, № 12, maddə 1083) aşağıdakı dəyişikliklər edilsin:

1. 12-ci maddə üzrə:

1.1. birinci hissədə “qulluqçulardan və fəhlələrdən” sözləri “dövlət qulluqçularından və digər mülki işçilərdən” sözləri ilə əvəz edilsin;

1.2. üçüncü hissədə “Hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa” sözləri “Hərbi xidmətkeçmə haqqında” Əsasnaməyə, “Hərbi qulluqçuların statusu haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarına” sözləri ilə əvəz edilsin;

1.3. dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

“Mülki müdafiə qüvvələrinin dövlət qulluqçularının qulluğu “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu, digər mülki işçilərin əmək münasibətləri isə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.”.

2. 20-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 20. Mülki müdafiə qüvvələrinin fəaliyyətinə nəzarət**

Mülki müdafiə qüvvələrinin fəaliyyətinə ümumi nəzarəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı həyata keçirir.

Mülki müdafiə qüvvələrinin fəaliyyətinə idarədaxili nəzarəti mülki müdafiə qüvvələrinin komandanlığı və müvafiq icra hakimiyyəti orqanının rəhbəri həyata keçirir.

Prokurorluq orqanları mülki müdafiə qüvvələrində qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş hallarda və qaydada həyata keçirirlər.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2018-ci il*

# “Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1182-VQD nömrəli Qanununun tətbiqi və “Mülki müdafiə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 375 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq “Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1182-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Mülki müdafiə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 375 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 515; 2005, № 7, maddə 596; 2008, № 8, maddə 719) 1-ci hissəsinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

“həmin qanunun 20-ci maddəsinin ikinci hissəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2018-ci il*

# “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununu “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 736-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12, I kitab, maddə 2227; 2018, № 1, maddə 33; Azərbaycan Respublikasının 3 aprel tarixli 1050-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 39.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“39.2. Banklar eyniləşdirmə və verifikasiya sənədlərinin, habelə pul vəsaitləri və ya digər əmlakla əməliyyatlara dair sənədlərin “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində göstərilən müddətdə saxlanmasını təmin etməlidirlər.”.

2. 42.1-ci maddənin ikinci abzasında “benefisiarın” sözü “benefisiar mülkiyyətçinin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2018-ci il*

# “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununu “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 736-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813; 2016, № 3, maddə 411, № 11, maddə 1756, № 12, maddə 2003; 2017, № 2, maddə 159, № 5, maddə 712, № 12, I kitab, maddə 2222) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“1.0.3. benefisiar mülkiyyətçi - pul vəsaitləri və ya digər əmlakla əlaqədar əməliyyatlardan son nəticədə iqtisadi və ya hər hansı digər fayda əldə edən fiziki və ya hüquqi şəxs, o cümlədən xeyrinə əqdlərin həyata keçirildiyi hüquqi şəxsin əsl sahibi və ya müştəriyə nəzarəti həyata keçirən və (və ya) adından maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirildiyi fiziki şəxs və ya hüquqi şəxsə nəzarəti həyata keçirən fiziki şəxs;”.

2. 62.3-cü maddədə “benefisiarları” sözü “benefisiar mülkiyyətçiləri” sözləri ilə əvəz edilsin.

3. 62.6.1.5-ci, 66.1.12-ci və 79.1.2-ci maddələrdə “benefisiarlar” sözü “benefisiar mülkiyyətçilər” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2018-ci il*

# “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1165-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1165-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2018-ci il*

# “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununu “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 736-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272) aşağıdakı məzmunda 53-1.8-ci maddə əlavə edilsin:

“53-1.8. İdman mərc oyunlarının operatorları “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə əməl etməlidirlər.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2018-ci il*

# “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1163-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1163-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2018-ci il*

# “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1159-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1159-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2018-ci il*

# “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

“Polis haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486, № 11, maddə 1277, № 12, maddə 1444; 2016, № 2 (I kitab) maddələr 197, 216, № 3, maddə 400, № 5, maddə 838; 2017, № 10, maddə 1770; 2018, № 1, maddə 15) 14-cü maddəsinin birinci hissəsinin 3-cü bəndində “və məhkəmələrin” sözləri “, məhkəmələrin, müvafiq icra hakimiyyəti orqanının icra və probasiya qurumlarının” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2018-ci il*

# “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1210-VQD nömrəli Qanununun tətbiqi və “Polis haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 noyabr tarixli 205 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1210-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3.“Polis haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 noyabr tarixli 205 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 621; 2002, № 12, maddə 719; 2008, № 10, maddə 893, № 11, maddə 966; 2014, № 11, maddə 1383) 2-ci hissəsinin yeddinci abzasında “bəndində” sözündən sonra “və 14-cü maddəsinin I hissəsinin 3-cü bəndində” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2018-ci il*

## Həsən Abdullayev - 100

# Görkəmli alim və elm təşkilatçısı



Bu ilin avqust ayında Azərbaycan elminin görkəmli nümayəndələrindən biri, Azərbaycan Elmlər Akademiyasının keçmiş prezidenti, respublikada yarımkeçiricilər fizikası məktəbinin əsasını qoyan, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Həsən Məmmədbağır oğlu Abdullayevin anadan olmasının 100 ili tamam olur. Prezident İlham Əliyev akademik Həsən Abdullayevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi ilə bağlı sərəncam imzalamışdır.

Akademik Həsən Abdullayevin şəxsiyyətini, onun həm elmi təfəkkürün, həm də bütövlükdə ictimai düşüncənin inkişafında oynadığı rolu, xalqımızın sosial-mədəni tərəqqisinə verdiyi töhfələri dəyərləndirmək üçün çoxşaxəli fəaliyyətinə bir neçə aspektdən nəzər salmaq lazımdır. Həsən Abdullayev elmi, elmi-təşkilati və ictimai fəaliyyəti ilə ötən əsrin 70-ci illərində Azərbaycanın intellektual potensialının müasir tələblər səviyyəsində təşkilində, yüksək ixtisaslı kadr potensialının formalaşmasında, elmimizin mühüm nailiyyətlər əldə etməsində, keçmiş SSRİ və dünya miqyasında respublikanın elmi uğurlarının tanıdılmasında böyük xidmətlər göstərmişdir. Mübaliğəsiz demək olar ki, Həsən Abdullayevin akademiyaya rəhbərlik etdiyi dövr tarixə əsl elmi renessans, intellektual dirçəliş mərhələsi kimi daxil olmuşdur. Çoxsaylı "ilk"lər, prioritet istiqamətlərin formalaşması, elmi istiqamətlərə uyğun yeni qurumların yaradılması, elm, təhsil və istehsalat arasında əlaqələrin gücləndirilməsi, maddi-texniki bazanın formalaşdırılması onun adı ilə bağlıdır. Həm keçmiş SSRİ-də, həm də dünya miqyasında elmi proseslərin inkişafına təkan verən, iqtisadiyyatın bu və ya digər sahəsinə tətbiq olunan Azərbaycanın çoxsaylı elmi uğurları məhz ötən əsrin 70-ci illərinə təsadüf edir.

Həsən Abdullayevin 70-80-ci illərdə akademiya qarşısında hansı missiyanı həyata keçirdiyini bilmək üçün həmin dövrdə respublikada baş verən ictimai-siyasi hadisələri geniş müstəvidə nəzərdən keçirmək lazımdır. Şübhəsiz ki, görkəmli alimin əldə etdiyi nailiyyətlərin əsasında o dövrdə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin bilavasitə dəstəyi və qayğısı dayanırdı. Heydər Əliyev 1969-cu ildə rəhbərliyə başlayarkən Azərbaycan keçmiş SSRİ-nin geridə qalmış aqrar respublikalarından biri idi. Ulu öndər respublikanı düşdüyü bu vəziyyətdən çıxarmaq üçün onu qabaqcıl texnologiyalara əsaslanan sənaye cəmiyyətinə çevirməyi qarşıya məqsəd qoymuşdu. Bu isə ilk növbədə, elmin yeni meyarlar əsasında inkişafını tələb edirdi. Heydər Əliyevə bu sahədə elə kadr lazım idi ki, respublikada elmi idarəetmə sisteminin tamamilə yenidən qurulması, fəaliyyətin daha səmərəli təşkili, həyata keçirilən elmi tədqiqatların akademiya tərəfindən uğurlu koordinasiyası istiqamətində kompleks tədbirləri həyata keçirə bilsin. Həmin illərdə ümummilli lider Heydər Əliyevin ideyalarını reallaşdırmaq, aqrar cəmiyyətdən yüksək texnologiyalara əsaslanan sənaye cəmiyyətinə keçid konsepsiyasını elmi baxımdan yerinə yetirmək missiyası akademik Həsən Abdullayevə nəsib oldu.

H.Abdullayev akademiyaya prezident seçildikdən sonra texnologiyaların ölkəyə gətirilməsi, yeni müəssisələrin formalaşdırılması prosesinə başladı. Həmin illərdə akademiyanın maddi-texniki bazası əsaslı olaraq gücləndirildi, təbiət və texnika elmləri sahəsinə aid müasir avadanlıq və cihazlarla təchiz olunmuş laboratoriyalar formalaşdırıldı.

O illərdə yüksək texnologiyalara əsaslanan sənaye cəmiyyətinin inkişaf etdirilməsi ilə bağlı dövlət siyasəti elm və istehsalat arasında uğurlu əlaqələrin qurulmasını günün mühüm tələbləri kimi irəli sürmüşdü. Məhz belə bir zərurətin nəticəsi olaraq bilavasitə Həsən Abdullayevin rəhbərliyi ilə akademiyanın elmi-təşkilati strukturunda konstruktor büroları yaradıldı, sənayenin müxtəlif sahələri üzrə elmtutumlu müəssisələr təşkil edildi. Bununla da elmin ölkə iqtisadiyyatının inkişafında yaxından iştirakı üçün əlverişli zəmin formalaşdırıldı. Bu gün biz tam əminliklə deyə bilərik ki, ötən əsrin 70-80-ci illərindəki sənayeləşmə hərəkatı məhz Azərbaycanda təbiət və texniki elmlər sahəsindəki nailiyyətlərə əsaslanırdı.

Akademik Həsən Abdullayev neft sahəsində araşdırmalara da xüsusi önəm verirdi. Azərbaycanın yeraltı və yerüstü sərvətlərinin bir hissəsi, Xəzər dənizinin zəngin neft-qaz ehtiyatları alimlərimiz tərəfindən, əsasən bu dövrdə aşkarlanmışdır. İstər sovet hakimiyyəti illərində, istərsə də sonrakı dövrlərdə müstəqil Azərbaycanın neft strategiyasının reallaşmasında, əsrin müqaviləsinin həyata keçirilməsində həmin illərdə akademiyada bu istiqamətdə görülən işlər mühüm rol oynamışdır. Əgər 70-ci illərdə neft geologiyası və neft-kimya sahəsində nailiyyətlər əldə edilməsəydi, bu istiqamətlər üzrə elmi-tədqiqat müəssisələri fəaliyyət göstərməsəydi, yəqin ki, neft-qaz sənayesinin inkişafı bu səviyyəyə yüksələ bilməzdi. Odur ki, nəinki ötən əsrin 70-80-ci illərinin, hətta müstəqillik dövrü Azərbaycanın neft strategiyasının əsasında məhz bu sahədəki mühüm elmi araşdırmalar dayanır.

Həsən Abdullayevin Azərbaycan elmi qarşısında mühüm xidmətlərindən biri də onun beynəlxalq əlaqələri inkişaf etdirməsidir. Şəxsi təşəbbüsləri sayəsində akademiyanın keçmiş SSRİ-nin müxtəlif elmi mərkəzləri ilə səmərəli əməkdaşlığı sahəsində mühüm irəliləyişlər əldə edilmişdir. O illərdə birgə elmi tədqiqatların aparılması, beynəlxalq konfrans və simpoziumların təşkili geniş vüsət alıb. Akademiyaya rəhbərliyi dövründə istedadlı azərbaycanlı gənclərin təcrübə keçmək, oxumaq məqsədilə SSRİ-nin müxtəlif elm və təhsil mərkəzlərinə göndərilməsi intensiv xarakter almağa başlayır. Həmin kadrlar böyük intellektual qüvvə kimi sonrakı on illərdə həm elm və təhsil sferasında, həm də dövlət idarəçiliyi işlərində böyük töhfələr verdilər.

Akademik Həsən Abdullayev ictimai-humanitar elm sahələrinin inkişafına da xüsusi diqqət yetirirdi. Onun EA-ya rəhbərliyi dövründə Azərbaycan milli varlığının, milli mədəniyyətimizin, mənəvi-əxlaqi dəyərlərimizin qorunub saxlanılması, bütövlükdə isə milli ideologiyanın formalaşdırılması istiqamətində də mühüm işlər görülmüşdür. Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin tədqiqi yönümündə araşdırmaların genişləndirilməsini xüsusilə qeyd etmək istərdik. Həsən Abdullayev bu istiqamətdə həyata keçirdiyi tədbirlərdə həmin illərdə Heydər Əliyev tərəfindən gerçəkləşdirilən milli-mənəvi dəyərlərin qorunması siyasətinə əsaslanırdı.

Həsən Abdullayevin elmi-təşkilati fəaliyyəti ilə bağlı bir məsələni də xüsusi vurğulamaq istərdik. Ötən əsrin 70-ci illərində yaradılan güclü elm sistemi respublikada təhsilin sürətlə formalaşmasına təkan vermiş, təhsili yüksəkixtisaslı elmi-pedaqoji kadrlarla təmin etmiş, bir sıra yeni fənlərin tədrisi üçün geniş elmi imkanlar açmışdır. Azərbaycanın ali təhsil müəssisələrinin prioritet hesab olunan yeni fənn kafedraları və fakültələri hesabına genişləndirilməsi məhz akademik elmi tədqiqatlar nəticəsində mümkün olmuşdur. Həmin fənlər üzrə tədrisin həyata keçirilməsi Elmlər Akademiyasının yetişdirdiyi kadrlar hesabına aparılmışdır.

Həsən Abdullayev elmi nailiyyətlərin geniş ictimaiyyət arasında yayılmasının böyük təbliğatçısı idi. O, elmi biliklərin kütləviləşdirilməsi yolunu həm də gənc istedadların üzə çıxarılması və onların elm sahəsinə cəlb edilməsinin ən real vasitələrindən biri hesab edirdi. Görkəmli alimin bilavasitə rəhbərliyi altında alimlər tez-tez Azərbaycanın bölgələrində olur, dünyada və respublikada elmin nailiyyətləri barədə məlumatları xalqa çatdırırdılar.

Bu gün biz Azərbaycanda İKT-nin inkişafından, bu sahədə elmi araşdırmaların vəziyyətindən fəxrlə danışırıq. Xüsusi olaraq qeyd etmək istərdik ki, bu inkişafın əsasında ötən əsrin 70-ci illərində akademik Həsən Abdullayevin böyük uzaqgörənliklə həyata keçirdiyi tədbirlər dayanır. Həmin illərdə kibernetikanın, riyazi modelləşmənin və kompüter texnologiyalarının tətbiqi ölkəmizdə informatika elmlərinin inkişafını xeyli sürətləndirdi.

Bütün vaxtını, enerjisini akademiyanın inkişafına həsr etmiş, olduqca gərgin iş qrafikinə malik olan Həsən Abdullayev elmi fəaliyyətində bir an belə, fasiləyə yol verməmişdir. Təkcə Fizika İnstitutunda onun rəhbərliyi ilə həyata keçirilən elmi işlər ayrıca bir söhbətin mövzusudur. O, institutun elmi-tədqiqat istiqamətini müəyyənləşdirərkən, ilk növbədə, müasir fizikanın və elektronikanın inkişafına gətirib çıxaran fundamental və tətbiqi əhəmiyyətli mövzulara üstünlük verirdi. İnstitutda müasir eksperimental bazanın yaradılması, əsas istiqamətlər üzrə nəzəri tədqiqatların aparılması, yüksək ixtisaslı kadrların yetişdirilməsi, İttifaqın və dünyanın qabaqcıl elmi-tədqiqat mərkəzləri və alimləri ilə əlaqələr yaradılması, ali məktəblərdə müasir təhsil kafedralarının və respublikada müasir sənaye sahələrinin təşkili məsələlərinə xüsusi diqqət yetirirdi.

Görkəmli alimin və tələbələrinin gərgin əməyi, axtarışları sayəsində qısa müddətdə selen, tellur, onların mürəkkəb birləşmələrinin, üçüncü və altıncı qrup elementləri xalkogenidlərinin mükəmməl monokristallarının alınma texnologiyası işlənərək kompleks tədqiq olunmuşdur. Araşdırmaların nəticəsində keçmiş İttifaqda yüksək təmizliyə malik selen istehsal edən sənaye sahəsi, yeni yüksək effektivli selen çeviriciləri və bunlar əsasında yeni qurğular yaradılmışdır. İnstitutda alınmış yeni yarımkeçirici kristalların optik, fotoelektrik xassələrinin və energetik quruluşlarının tədqiqi üzrə fundamental işlər əsasında, infraqırmızı oblastda qallium selen kristalının bir çox parametrlərinə görə mövcud digər qeyri-xətti kristallardan xeyli üstün olduğu, onların Kvant elektronikası, qeyri-xətti optika və optik generatorların yaradılmasında perspektivliliyi aydınlaşdırılmışdır. Laylı quruluşa malik bu kristallarda elektron, fonon spektri, bu spektrlə kristal quruluşu arasında əlaqə müəyyənləndirilmiş, onlarda stimullaşdırılmış şüalanma, bərk cisim fizikasında yeni obyekt olan elektron-deşik mayesi, ikiölçülü elektron qazının mövcudluğunu sübut edən Holl müqavimətinin kvantlanması aşkar edilmiş, yeni seqnetoelektrik yarımkeçirici materiallar sinfi müəyyənləşdirilərək, onlarda nisbətsiz fazaların mövcudluğu göstərilmişdir.

Birinci və üçüncü qrup elementləri xalkogenidlərinin strukturu və elektrik xassələrinin birgə tədqiqi sayəsində ilk dəfə olaraq idarə edilən aşırıcılar və onlar əsasında məlumatı yazan sabit xatırlayıcı üçün informasiya toplayıcıları yaradılmışdır. Yeni üçqat birləşmələrin tədqiqi əsasında pyezorezistiv effekt aşkarlanmış, spektrin görünən və infraqırmızı oblastları üçün effektli qəbuledicilər və həssas elektrofotoqrafik lay yaradılmışdır.

Fəaliyyətinin ilk illərindən onun yaradıcılığında elektron-deşik keçidlərində generasiya-rekombinasiya proseslərinin kompleks tədqiqi, yeni növ bərk cisim işıq mənbələri, yüksək effektivli termoelektrik materialları və onlar əsasında termoelektrik çeviricilərinin işlənib tətbiq edilməsi məsələləri də mühüm yer tutmuşdur. Bu tədqiqatlar nəticəsində xüsusi texnikada, məişətdə, tibdə geniş istifadə oluna bilən qurğular yaradılaraq istifadəyə verilmişdir.

Hələ 1952-ci ildə onun selenin spektral həssaslığının gözün spektral həssaslığına uyğunluğuna əsaslanaraq selenin canlıların görmə sistemindəki rolu haqda irəli sürdüyü elmi ideya 70-ci illərdə apardığı geniş tədqiqatlarla təsdiq olunmuş və tətbiqini tapmışdır. Olduqca maraqlıdır ki, Həsən Abdullayev biofiziki tədqiqatlara hələ o dövrdə xüsusi diqqət yetirirdi. Alimin təşəbbüsü ilə Fizika İnstitutunda biofizika laboratoriyası yaradılmış və burada aparılan tədqiqatlara özü rəhbərlik etmişdir.

Akademik tərəfindən amorf və şüşəvari yarımkeçiricilər, süni anizotrop kristallar, polimer kompozitlər və digər materiallarda elektron və fononproseslərinin tədqiqi üzrə də geniş tədqiqatlar aparılmışdır. Tədqiqatlar yüksək təmizliyə və təkmilliyə malik monokristal nümunələrlə yanaşı, həm də nazik və epitaksial təbəqələrdə, nizamsız və qismən nizamsız sistemlərdə aparılırdı. Bu tədqiqatlar kondensə olunmuş halın fizikasının və texnikasının inkişafına səbəb olmuşdu.

Akademik Həsən Abdullayevin təşəbbüsü, rəhbərliyi və birbaşa iştirakı ilə Fizika İnstitutunda aşağı temperaturların (maye helium, hidrogen, azot) alınması və bu temperaturlarda kompleks tədqiqatların aparılması, müxtəlif rezonans metodların tətbiqi ilə tədqiqatlar da inkişaf etdirilmişdir. Onun qayğısı ilə institutda fiziki kimya, molekulyar spektroskopiya, elektrofizika, nüvə fizikası, yüksək enerjilər fizikası üzrə fundamental tədqiqatlar genişləndirilmiş, institutun laboratoriyaları texnikanın son nailiyyətləri olan geniş diapazonlu və yüksək dəqiqliyə malik cihaz və qurğular, yüksək təmizlikli materiallarla təmin olunmuşdur.

Xalqının dərin rəğbətini qazanan Həsən Abdullayev ictimai işlərdə də fəal iştirak etmişdi. O, SSRİ Ali Sovetinin iki çağırış deputatı, Azərbaycan KP MK-nın üzvü, bir sıra qurultayların nümayəndəsi seçilmiş, Azərbaycan Dövlət Mükafatları Komitəsinin, respublika "Bilik" Cəmiyyətinin, "Fizika Problemləri" Elmi Şurasının sədri, SSRİ EA Rəyasət Heyəti yanında "Yarımkeçiricilər fizikası və kimyası" problem Elmi Şurasının, SSRİ AAK İdarə Heyətinin üzvi olmuşdur.

Görkəmli alim elmi nailiyyətlərinə və böyük elmi-təşkilatçılıq fəaliyyətinə görə SSRİ-nin ən yüksək ordenlərinə, SSRİ EA-nın S.İ.Vavilov adına medalına, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına və digər mükafatlara layiq görülmüşdür.

Həsən Abdullayevlə birlikdə işləmək, bu dahi şəxsiyyətlə ünsiyyətdə olmaq mənə də nəsib olmuşdur. Onun zəngin həyat təcrübəsi, hadisələrə müdrik münasibəti əsl həyat məktəbi idi. Bununla bağlı bir xatirəni qeyd etmək istərdim. O vaxtlar, biz geologiya idarəsinin Azərbaycanda qazdığı iki quyudan götürülmüş süxur nümunələrini tədqiq edirdik. Gözlənilmədən kernlərdə almaz dənəcikləri aşkar edildi. O zaman, təzəcə Geologiya İnstitutunun direktoru vəzifəsinə təyin edilmişdim və bu xəbəri Elmlər Akademiyasının prezidenti Həsən Abdullayevə çatdırmağa tələsdim. Onun bu "sensasiyanı" çox sakit qəbul etməsi məni çox təəccübləndirdi. Həsən Abdullayev dedi: "Akif, iki-üç, hətta çox dəqiq aparılmış və dəfələrlə yoxlanılmış təcrübələrə görə əsaslı nəticəyə gəlmək olmaz. Bunun üçün ardıcıl eksperimentlər, geniş statistik məlumatlar, nəzəri əsaslar və s. olmalıdır. Əks halda, xəta ehtimalı olduqca böyük olur və buna yol vermək olmaz, çünki bu bizi yanlış nəticəyə gətirib çıxarar. Bir də fikirləş, bəlkə bu almaz dənəcikləri qazma alətinin almaz baltası ilə əlaqədardır". Sonrakı tədqiqatlar göstərdi ki, o, tamamilə haqlıymış. İşə belə ciddi və düşünülmüş yanaşma, mənim üçün bütün həyatım boyu dərs oldu. Həsən müəllim akademiyanın prezidenti olanda, Azərbaycan EA Rəyasət Heyətinin geniş iclaslarında belə ibrət dərslərinin dəfələrlə şahidi olmuşam. O, iclasları nümunəvi aparırdı: əsas problemləri dürüst ayırır, ikinci dərəcəli və lazımsız məsələləri kənara qoyur, digər məsələləri perspektivə yönəldirdi.

Məlumdur ki, ötən əsrin 80-ci illərinin ortalarından cəmiyyətdə gedən ümumi ictimai-siyasi hadisələrin təsiri ilə Azərbaycan elmində tənəzzül prosesləri getdikcə güclənməyə başladı, Həsən Abdullayevin rəhbərliyi ilə formalaşdırılmış elmi potensial tədricən zəiflədi. 1990-1993-cü illərdə bu tənəzzül özünün kəskin böhran mərhələsinə keçdi, hətta akademiya bağlanmaq təhlükəsi ilə üz-üzə qaldı.

Lakin yenidən 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Elmlər Akademiyası bağlanmaq təhlükəsindən xilas oldu, yeni inkişaf mərhələsinə qədəm qoydu. Hazırda akademiyada intellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin qurulmasına adekvat olaraq elmi fəaliyyət sahəsinin modernləşməsi istiqamətində islahatlar həyata keçirilməkdədir. İslahatlar AMEA-da elmi-təşkilati fəaliyyətin yeni əsaslarla təşkili, yüksək ixtisaslı elmi kadrların hazırlanması, elmi-innovativ və praktiki fəaliyyət, hüquqi islahatlar, gənclər siyasətinin həyata keçirilməsi, elm və təhsilin inteqrasiyası, elektron elmin formalaşması, beynəlxalq elmi əməkdaşlığın gücləndirilməsi, elmin populyarlaşdırılması və ictimaiyyətlə münasibətlərin qurulması, AMEA-nın maddi-texniki bazasının gücləndirilməsi, alimlərin əməyinin qiymətləndirilməsi və stimullaşdırılması və s. istiqamətləri əhatə edir. Göründüyü kimi, bu istiqamətlərin əksəriyyəti vaxtilə akademik Həsən Abdullayevin Elmlər Akademiyasında başladığı və uğurla həyata keçirdiyi işlərdir.

Görkəmli alim Həsən Abdullayevin titanik elmi və elmi-təşkilati fəaliyyəti sayəsində keçmiş SSRİ və dünya miqyasında nüfuzlu bir quruma çevrilən Elmlər Akademiyası fəaliyyətini bu gün də yeni tələblər səviyyəsində davam etdirməkdədir. Onun yaxın perspektivdəki hədəfi, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi kimi Azərbaycanı elm mərkəzinə çevirməkdir.

***Akif ƏLİZADƏ,***
***AMEA-nın prezidenti,***
***akademik***

## BTC-nin tam sistem kimi istifadəyə verilməsindən 12 il keçir

# Regionun neft nəqli arteriyası

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri tam bir sistem kimi 2006-cı il iyulun 13-də istifadəyə verilmişdir. Bu münasibətlə Ceyhan şəhərində keçirilən təntənələrdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin və Gürcüstanın dövlət başçıları, digər ölkələrdən gəlmiş rəsmi qonaqlar iştirak etmişlər. Həmin vaxtdan indiyədək BTC ahəngdar işləyərək Azərbaycan neftini təhlükəsiz şəkildə dünya bazarlarına çatdırır.



BTC-nin maraqlı salnaməsi var. Müəllifi ümummilli lider Heydər Əliyev olan layihənin reallaşmasına, yəni, kəmərin çəkilməsinə razılıq 1999-cu il noyabrın 18-də İstanbul sammitində əldə olunmuşdur. BTC qarşısında yaşıl işıq yandıran sənəd məhz həmin gün beş ölkənin - Azərbaycanın, Gürcüstanın, Türkiyənin, ABŞ-ın və Qazaxıstanın dövlət başçıları tərəfindən imzalanmışdır.

Lakin kəmərin tikilməsi ideyası yaranan gündən həm Azərbaycanın daxilində, həm də xaricində bu işə maneə törətmək istəyən qüvvələr baş qaldırmışdı. Onlar müxtəlif bəhanələr gətirirdilər. Bəziləri deyirdi ki, Azərbaycanın bu boru xəttini doldurmaq üçün kifayət qədər nefti yoxdur. Bəziləri iddia edirdi ki, BTC heç vaxt gəlirlə işləyə bilməyəcək. Kəmərin seysmik cəhətdən riskli zonalardan keçəcəyini bəhanə edənlər, boru xəttinin ekologiyaya ziyan vuracağını söyləyənlər də var idi. Halbuki bütün bunları söyləyənlərin dedikləri sahələr barədə geniş anlayışları yox idi.

Ümummilli lider Heydər Əliyev isə BTC-yə Azərbaycanın gələcəyini düşünərək böyük ümid bəsləyir və onun gerçəkləşəcəyinə dərin inamını bildirirdi.

2002-ci il sentyabrın 18-də Bakı yaxınlığındakı Səngəçal terminalında kəmərin təməli qoyuldu. BTC artıq reallaşmaqda idi. Lakin layihənin Azərbaycanın xaricindəki və daxilindəki bədxahları yenə də rahatlıq tapa bilmir, tikintiyə əngəl törətmək istəyirdilər. Məsələn, bir sıra QHT-lər BTC-yə mane olmaq məqsədilə növbəti bəhanə uydurdular. Kəmərin Gürcüstanın "Borjomi" mineral su mənbəyinə ekoloji zərbə vuracağı fikrini ortaya atdılar. Onlar layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədlərinin imzalanmasını gecikdirməyə cəhd edirdilər. Bir sıra qruplar isə layihəni maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq kəmərin çəkilişinin irəliləməsinə əngəl törətməyə can atırdılar.

Maneələr çox idi. Təsadüfi deyil ki, 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" beynəlxalq konfransında iştirak edən ümummilli lider bu məsələni gündəmə gətirdi. Konfrans öz işini davam etdirdiyi günlərdə ulu öndər Beynəlxalq Maliyyə Korporasiyasının, BTC-yə kredit verəcək digər qurumların rəhbərləri ilə görüşüb söhbətlər apardı. Beləliklə, Heydər Əliyevin dünyadakı hörmət və nüfuzu layihəni bu çətinlikdən də çıxardı.

2004-cü ilin fevral ayında Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşməsinə aid son sənədlər imzalandı və bununla da problem tamamilə həll olndu.

2005-ci ilin may ayında Səngəçal terminalından kəmərə ilk neft vuruldu. Bir il yol gedən Azərbaycan nefti Ceyhana 2006-cı il mayın 28-də çatdı. İyunun 4-də BTC-nin həmin neftlə yüklənmiş ilk tanker Ceyhan limanından dünya bazarlarına yola salındı. Kəmərin tam bir sistem kimi işə düşməsi isə iyulun 13-də qeyd olundu.

Bu il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev həmin tarixi hadisəni - BTC-nin işə düşməsini xatırladaraq demişdir: "Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

BTC fasiləsiz olaraq Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan nefti etibarlı şəkildə Səngəçaldan Ceyhana çatdırır. Kəmərə həmçinin "Şahdəniz" yatağından hasil edilən kondensat vurulur. Bu kəmər müəyyən həcmdə Türkmənistan və Qazaxıstan nefti də nəql edir.

BTC nəhəng kəmərdir, Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə qət edir. Boru kəmərinə yerüstü obyektlər sistemi də daxildir. Bu, 2 terminal, 8 nasos stansiyası, 101 siyirtmə məntəqəsindən ibarətdir. BTC-nin birinci və baş nasos stansiyası Səngəçal terminalında yerləşir. Azərbaycandakı ikinci nasos stansiyası Yevlax rayonundadır. Kəmərin Gürcüstanda da iki stansiyası var. Qalan dörd stansiya Türkiyə ərazisindədir.

Əvvəlcə gündə 1 milyon barel neft ötürmək gücündə layihələndirilən kəmərin nəqletmə qabiliyyəti sonralar 20 faiz də artırılıb. İndi BTC 1,2 milyon barel gündəlik ötürücülük gücünə malikdir.

BTC böyük gələcəyə hesablanmış layihədir. Kəmərin ixrac etdiyi neftdən əldə olunan gəlirlər hesabına Azərbaycanda bir çox infrastruktur qurulub və sosial layihələr həyata keçirilib. Məsələn, su kəmərləri çəkilib, suvarma kanalları tikilib, məcburi köçkünlər üçün qəsəbələr salınıb, ekoloji və bir sıra digər problemlər həll olunub.

Bakı-Tbilisi-Ceyhan kəməri bir sıra önəmli layihələrə də yol açıb. Bu kəmər ilk dəfə Xəzərlə Aralıq dənizi arasında körpü salıb. Beləliklə, Azərbaycandan Avropaya uzanan geniş bir enerji dəhlizi formalaşıb. Bir sözlə, vaxtilə BTC kəməri çəkilməsəydi, bu gün "Cənub qaz dəhlizi"ni açmaq mümkün olmazdı.

Əgər 1994-cü ildə bir ixrac kəmərimizin belə, olmadığını o zaman Bakı-Novorossiysk xəttinin isə sıradan çıxdığını xatırlasaq, ötən illər ərzində görülmüş işlərin miqyası daha aydın görünər. İndi bizim Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi kəmərlərimiz var. Təsadüfi deyil ki, bu, Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da vurğulanıb.

Azərbaycan dövləti neftdən əldə olunan gəlirlərdən səmərəli istifadə edərək geniş nəqliyyat infrastrukturu, beynəlxalq nəqliyyat bağlantıları da yaradıb. İndi Azərbaycan dünyada həm də önəmli tranzit ölkə kimi tanınır.

Prezident İlham Əliyev hələ 12 il əvvəl Ceyhanda BTC-nin tam sistem kimi istifadəyə verilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edərək demişdir: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial probelmlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

İndi bunlar həqiqətə çevrilib və illər keçdikcə BTC daha böyük əhəmiyyət kəsb edir. Bu kəmərin uğurlu fəaliyyəti Azərbaycanın yeni neft strategiyasının təntənəsi və həmin strategiyanın daha qlobal layihələrlə zənginləşdirilməsinin təsdiqidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İqtisadi xəbərlər

### İxrac artır, idxal azalır

Bu ilin yanvar-may aylarında Azərbaycan dünyanın 160 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 95 ölkəyə məhsul ixrac, 150 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu dövrdə xarici ticarət dövriyyəsi 12 milyard 68,6 milyon, o cümlədən ixracın dəyəri 8 milyard 213,3 milyon, idxalın dəyəri 3 milyard 855,3 milyon dollar təşkil etmiş, nəticədə 4 milyard 358 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2017-ci ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 35,4, real ifadədə 3,1, o cümlədən ixrac 2,8, idxal 3,8 faiz artmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, ixracın 22,4 faizini İtaliyaya, 8,3 faizini İsrailə, 7,6 faizini Türkiyəyə, 5,8 faizini Tayvana (Çinin əyaləti), 5,3 faizini İndoneziyaya, 4,8 faizini Kanadaya, 4,4 faizini Almaniyaya, 4 faizini Çexiyaya, hər biri 3,4 faiz olmaqla Gürcüstan və Rusiyaya, 3,2 faizini Portuqaliyaya, 3 faizini Hindistana, 2,7 faizini ABŞ-a, hər biri 2,5 faiz olmaqla Fransa və İspaniyaya, 16,7 faizini digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 17,4 faizi Rusiya, 15,8 faizi Türkiyə, 10,2 faizi Çin, 7,6 faizi Almaniya, 4,8 faizi ABŞ, 4,2 faizi Ukrayna, 3,4 faizi İtaliya, 3 faizi İran, 2,7 faizi Belarus, 2,4 faizi Birləşmiş Krallıq, 28,5 faizi digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Hesabat dövründə 667,5 milyon dollarlıq qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2017-ci ilin yanvar-may aylarına nisbətən faktiki qiymətlərlə 20,1, real ifadədə 8,6 faiz çoxdur. Yanvar-may aylarında ötən ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə tərəvəz ixracı 2,1, təzə meyvə - 51,2, kartof - 33,5, meyvə və tərəvəz konservləri - 22,7, polietilen - 10,1, emal olunmamış alüminium - 15,7, pambıq lifi - 4, qara metallardan borular - 12, pambıq ipliyi - 10,7, bentonit gili - 8,5 faiz, təbii üzüm şərabları və üzüm suslosunun ixracı isə 2,6 dəfə artmışdır.

İdxala gəldikdə, siqaret - 6,1, kərə yağı, digər süd yağları və pastaları - 2,3, kartof - 22,2, quş əti və onun əlavə məhsulları - 5,6, mal əti - 20,2, xam şəkər və şəkər - 82,6, təzə tərəvəz - 47,4, hesablama maşınları, blok və qurğuları - 2,3, qara metallardan künclüklər - 19,6 faiz azalmışdır.

### İqtisadi sektorda çalışanların sayı 1,5 milyon nəfərdən çoxdur

İyunun 1-nə olan vəziyyətə görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz artaraq 1 milyon 545,4 min nəfər olmuşdur. Onlardan 886,8 min nəfəri iqtisadiyyatın dövlət, 658,6 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda daha sonra bildirilir ki, muzdla işləyənlərin 21,5 faizi təhsil, 18,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,2 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 7 faizi tikinti, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elm və texniki fəaliyyət, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11,2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Bu ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 4 faiz artaraq 541 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində isə orta aylıq nominal əməkhaqqı daha yüksəkdir.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLİ

*Keçmişini öyrənməyən gələcəyini qura bilməz!*

*Tarix təkrarlanır, odur ki, olmuşları öyrənib lazımi nəticə çıxarmaq və bir daha səhv etməmək üçün növbəti mərhələlərdə nəzərə almaq vacibdir!*

*XX əsrin əvvəllərində Azərbaycan xalqı böyük zəhmət və qurbanlar bahasına dövlət müstəqilliyi qazandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay oldu...*

*Ötən əsrin sonlarında qazanılan dövlət müstəqilliyi də eyni aqibəti yaşayacaqdı. Əgər ulu öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdaraq Azərbaycanı parçalanmaqdan, dövlət müstəqilliyini isə məhvolmadan xilas etməsəydi!*

*Uzun əsrlərdən sonra qazanılan və yaşadılan, əbədiliyə çevrilən dövlət müstəqilliyi hər birimiz üçün müqəddəs və əzizdir!*

*Varisi olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini Prezident İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli sərəncamı ilə bu ildə təntənə ilə qeyd etdik. Şərəfli yubileyə hazırlıq dövründə müstəqilliyin özü və sonrakı taleyi ilə bağlı müxtəlif mətbu orqanlarda gedən məqalələrin kiçik bir qismini qəzetimizdə dərc etməklə baş verənlərə yenidən diqqət çəkirik!*

*Oxumaq, bilmək və nəticə çıxarmaq üçün!*

# Zərdablı Məlikzadə Həsən bəy

Azərbaycan mətbuatının, yalnız Azərbaycan degil, çarlıq əsarəti altında qalan bütün türk dünyasının ilk qəzetəçisi Həsən bəy türklügə hizməti toxunmuş pək dəyərli zatlardan (şəxsiyyətlərdən) birisidir.

Mərhum 1842-də Bakı vilayətində vaqe Zərdab qəsəbəsində doğulmuşdur. Edadi (orta) təhsilini tamam edərək 1869-da Rusiyada ali təhsilini bitirmiş, Bakıya övdət etmişdi. İxtisası ülumi-təbiyyə və bilxassə (ağronomi) ziraət fənni idi. Bakı edadilərində (orta məktəblərində) ülumi-təbiyyə təliminə təyin olunmuşdu.

Edadi və ali təhsili rusca keçən Həsən Bəy yetişdigi ailənin o zamankı ənənəsinə tabeən bir miqdar islami tərbiyə aldığından türkcə oxumaq və yazmaq imkanında idi.

Azərbaycan türkləri arasında milli intibah və mədəni hərəkata saiq olan (qoşulan) ilk böyük sima türk tamaşanəvisi **Mirzə Fətəli Axundzadə** idi. Mirzə Fətəli ənənəsinin doğurduğu 2-ci böyük şəxsiyyət **Həsən Bəydir.**

Həsən Bəy böyük ədibin teatroya aid əsərlərini səhnəyə vəz etmək işini ümumiləşdirmək təşəbbüsü ilə millətə hizmət meydanına girmiş, sonra qonşu erməniləri təqlid ilə cəmiyyəti-xeyriyyə təsis etmək istəmişsə də müvəffəq olamamış, nəhayət, "Əkinçi" qəzetəsinin təsisinə qərar vermişdir.

Həsən Bəy rəsmi vilayət mətbəəsində təsis edəcəgi qəzetənin təbini təmin eyləmiş, türkcə hərflər cəlbi üçün kəndisi bizzat İstanbula qədər gəlmişdi. Həsən Bəy vilayət mətbəəsində çalışan əcnəbi bir mürəttibi ərəb hərflərinin tərtibi ilə aşina edərək və kəndisi bizzat tərtib işinə yardım etmək surətilə "Əkinçi"yi çıxarmağa başlamışdır.

Bu qəzetə millət arasında elm və ürfan toxumlarını saçmaq etibarilə məcazən bir əkinçi olduğu kibi, naşirinin ixtisasından bilistifadə haiz olduğu mündəricat etibarı ilə həqiqətən də əkinçi idi.

Həsən Bəy nə kibi saiqələrlə (səbəblərlə) bu qəzetəyi təsis etdigi və hansı yüksək həyəcanlarla bu qədər maneələr önünə keçdigi baş məqaləmizdə təsbit edildigindən burada ondan bəhs etmiyoruz.

Həsən Bəyin Azərbaycan xalqına etdigi hizmət yalnız qəzetəçilik ilə tamam degildir. O, Bakı türklərinin milli işlərində daima fəal bir rolda bulunmuş, ömrünün son dəmlərinə qədər Bakı bələdiyyəsində əza (üzv) olmuşdur. Çar dövründə bələdiyyələr xalq idarəsinə məxsus yeganə bir müəssisə idi. Pək məhdud səlahiyyət və hüquqa malik olsalar da, bələdiyyə məclisləri bir növü məhəlli parlaman hökmündə idilər. "Bakı parlaman"da mühüm bir türk mərkəzi olmasına rəğmən müsəlman əzanın miqdarı qanunən məhdud idi. Bu məhdud əzanın dəxi əksəriyyətlə rusca bilməyən və cəmiyyət işlərindən anlamayan xudayinabit Hacı və Kərbelayilərdən ibarət olduğu üçün Həsən Bəy kibi münəvvərlərin vəzifəsi pək mühüm və məsuliyyətli idi. Bu məsuliyyətli "lider"lik rolunu Həsən Bəy üçün müddət icra eyləmiş Topçubaşi oğlu Əli Mərdan və Ağa oğlu Əhməd Bəylər kibi cəmaət adamları yetişəncəyə qədər Həsən Bəy Azərbaycan Türklügünü təmsil edən yeganə mücahid olmuşdur.

Bundan maəda (başqa), rusca nəşr edilən "Kaspi" qəzetəsində dəxi Azərbaycan türklərinin hüququnu müdafiəyə aid pək çox nəşriyyatda bulunmuş, 1905-dən etibarən Bakıda intişara başlayan türkcə "Həyat" qəzetəsində ziraətə aid pək mühüm məqalələr nəşr eyləmişdir. Qəzetə məqalələrindən başqa Həsən Bəyin ziraətə aid sadə bir ifadə ilə yazılmış bir çox risalələri də nəşr edilmişdir.

Həsən Bəyin Azərbaycan intibah tarixində 2-ci mühüm sima olduğunu söylədik. İlk mücahid (Mirzə Fətəli) olurkən xitab etdigi mühitin laqaydisi içində tərkihəyat eyləmiş, hətta cahil mütəəsiblərin düşmənanə təzahürlərinə belə məruz qalmışdı. Həsən Bəy ondan daha məsud çıxdı. 1907-də vüqu bulan irtihalı (köçməni), milli intibah tarixində əmsalı nadir görülən möhtəşəm bir nümayiş halını aldı. İlk qəzetəçinin tərhimi-xatiri üçün Bakıda çıxan türkcə qəzetələr məqalələr dərc eyləmiş, ilk səhifələrini qara çərçivəli matəm elanları ilə doldurmuşlardı. O günü şəhərin türk hissəsi matəmə girmiş, bazar bütün günü qapalı qalmışdır.

Hacı Qasım Bəy Camii havlusunda (ətrafında) milli alayı xatırlıyoruz. Müxtəlif cəmiyyətlər, müəssisələr və heyətlər naminə mütəəddid natiqlər söylüyor. Böyük tabuta qarşı son vəzifələrini ifa ediyorlardı. Bunlar miyanında müxtəlif qəzetələr naminə söz söyləyən üç mühərrir vardı.

Mürşid bir pir üçün bundan daha böyük müzahiriyyət olamaz. Fəqət Həsən Bəyin məzahiriyyəti yalnız bu qədərlə qalmaz, onun əziz xatirəsi, qızıl çizmələr altında çeynənən zavallı vətəndəkilərə milli ideal zövqünü yaşamaq fürsətini bəxş etdigi kibi, bizim kibi vətəncüda qəlbləri dəxi vüsal və istiqlal ümid və imanı ilə doldurur!

***"Yeni Qafqasiya", 1 mart 1926, № 9***

**P.S.** *Məqaləni redaksiyaya professor Şirməmməd Hüseynov təqdim edib*

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.2.6-cı maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin sorğusuna baxılaraq, Konstitusiya Məhkəməsi Plenumunun icraatına qəbul olunması haqqında qərardad çıxarılıb.

Sorğuya mahiyyəti üzrə tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun iyulun 27-nə təyin edilmiş iclasında baxılacaq.

## Səhiyyə sahəsində Azərbaycan-İran əməkdaşlığının daha da möhkəmləndirilməsi məsələləri müzakirə edilib

İyulun 12-də Azərbaycan Respublikası Səhiyyə Nazirliyində İran İslam Respublikasının səhiyyə və tibbi təhsil naziri Seyed Həsən Qazizadə Haşiminin başçılığı ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi, həmçinin Azərbaycanda əczaçılıq sənayesi sahəsinin inkişaf etdirilməsi üçün İranın təcrübəsindən istifadə məsələləri müzakirə edilib.

Səhiyyə naziri Oqtay Şirəliyev qeyd edib ki, dost və qardaş İran ilə bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində əməkdaşlıq durmadan inkişaf edir. Vurğulanıb ki, dövlət başçılarının qarşılıqlı səfərləri, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişlənməsi sayəsində indi Azərbaycan-İran əlaqələri yüksək dərəcədə inkişaf edib. Nazir xatırladıb ki, 2016-cı ilin fevral ayında "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq barədə Qarşılıqlı Anlaşma Memorandumu" imzalanıb. 2014-cü ilin aprel ayında Azərbaycanın və İranın tibb universitetləri arasında səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsi barədə memorandum imzalanıb. Həmin memoranduma uyğun olaraq iki ölkənin tibb universitetləri birgə treninqlər keçirir, tələbə və müəllim mübadiləsi, yoluxucu xəstəliklərin müalicəsi sahəsində tədqiqatlar aparırlar.

O.Şirəliyev əczaçılıq sahəsində İranın təcrübəsini öyrənməyin vacibliyini də qeyd edib. Vurğulanıb ki, Bakıda əczaçılıq zavodunun təməlinin qoyulması Azərbaycan ilə İranın uğurlu əməkdaşlığına əyani sübutdur. Həmin zavod Azərbaycanda əczaçılıq sənayesinin inkişafında mühüm rol oynayacaq, yerli istehsal hesabına əhalinin keyfiyyətli dərman məhsulları ilə təmin olunmasına şərait yaradacaq, bu sahədə idxaldan asılılığı azaldacaq, ixrac potensialını artıracaq.

İran İslam Respublikasının səhiyyə və tibbi təhsil naziri Seyed Həsən Qazizadə Haşimi görüşdən məmnun olduğunu bildirərək onun ölkəsində səhiyyənin və tibbi təhsilin inkişafı üçün həyata keçirilən tədbirlər, bu sahədə toplanmış təcrübə və qazanılmış uğurlar barədə məlumat verib, əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, İranda əczaçılıq sahəsi bu ölkənin dünya bazarlarında iştirak etməsi üçün böyük potensiala malik olan sahələrdən biridir. İranlı nazir qeyd edib ki, Azərbaycanın əczaçılıq sahəsində idxaldan asılılıqdan xilas olması üçün hər cür imkanı vardır və müştərək müəssisələr yaradılması Azərbaycanda dərman preparatlarının daxili istehsalını tənzimləmək üçün əla fürsətdir.

## DİM Direktorlar Şurasının sədri Tovuzda vətəndaşları qəbul edib

İyulun 12-də Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə şəhər və rayonlarda vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Tovuzda vətəndaşları qəbul edib.

DİM-dən AZƏRTAC-a bildiriblər ki, qəbulda Tovuz rayonunun sakinləri ilə yanaşı, Şəmkir, Qazax və Ağstafa rayonlarının sakinləri, həmçinin bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər də iştirak ediblər.

Görüşdə əsasən ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları, buraxılış imtahanlarının nəticələri və qabiliyyət imtahanları, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciət olunub.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll olunub. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb. Qeydiyyatdan keçənlərlə yanaşı, qəbul zamanı birbaşa müraciət edən vətəndaşlar da M.Abbaszadə tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

## Pərakəndə ticarət dövriyyəsinin həcmi artıb

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,5 faiz üstələyərək 17,1 milyard manata bərabər olmuşdur.

Ticarət dövriyyəsinin 8,5 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 8,6 milyard manatını qeyri-ərzaq məhsulları təşkil etmişdir. Satılmış məhsulların dəyəri 2017-ci ilin yanvar-iyun aylarının göstəricilərini real ifadədə müvafiq olaraq 1,9 və 3,1 faiz üstələmişdir.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 45,2 faizi ərzaq məhsullarının, 4,4 faizi içkilər və tütün məmulatlarının, 18 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 faizi elektrik malları və mebellərin, 5,7 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,9 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

Yanvar-iyun aylarında istehlak məhsullarının 13,8 faizi ticarət müəssisələri, 52,6 faizi fərdi sahibkarlar tərəfindən, 33,6 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2017-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 23,7 faiz artmış, fərdi sahibkarlar üzrə 0,2, bazar və yarmarkalarda 0,4 faiz azalmışdır.

Cari ilin yarısında əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 291,7 və ya 2017-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 13,9 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 144,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 147,1 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

***"Azərbaycan"***

# XXI Dünya çempionatı




## "Hələ son sözümüzü deməmişik"



"Bu oyunçular 120 dəqiqə oynadıqdan sonra möhtəşəm idilər. Heç biri oyundan çıxmaq istəmirdi. Yorğun olan varmı deyə, soruşduğumuzda hamısı "yox" dedilər. Oynadıqları oyundan, mübarizədən zövq aldılar. Bu, tarixi uğurdur". Qol.az-ın xəbərinə görə, bu sözləri Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç DÇ-2018-in yarımfinalında İngiltərəyə 2:1 hesabı ilə qalib gəldikləri oyundan sonra keçirilən mətbuat konfransında deyib.

O, mundialın qalibi olmaq istədiklərini söyləyib: "Hələ son sözümüzü deməmişik. Son sözümüzü finalda söyləyəcəyik. Heç vaxt dayanmayacağıq. Tanrı istəsə, dünya çempionatını biz qazanacağıq".

Qeyd edək ki, Xorvatiya finalda Fransa ilə qarşılaşacaq. Matç iyulun 15-i Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.



## «İngilislər rəqibə hörmət etmirlər»

"İngilis jurnalistlər və ekspertlər matçdan əvvəl çox danışdılar. Onlar Xorvatiyanı qiymətləndirmədilər və böyük səhv etdilər. Deyilənlərə "oldu, baxarıq, bu gün kim yorulacaq" - deyə reaksiya verdik . İngilislər özlərini təvazökar aparmalı və rəqibə hörmət etməli idilər". Bu sözləri Xorvatiya millisinin kapitanı Luka Modriç DÇ-2018-in yarımfinalında İngiltərəyə 2:1 hesabı ilə qalib gəldikləri oyundan sonra deyib.

O, həm fiziki, həm də psixoloji cəhətdən dözümlü olduqlarını bildirib: "Finala yüksəlmək bizim üçün möhtəşəm uğurdur. Uzun müddətdən sonra xəyalımız gerçəkləşdi. Bu, Xorvatiya tarixinin ən böyük uğurudur. Bununla qürur duymalıyıq".

32 yaşlı yarımmüdafiəçi "Qızıl top"u qazanmaq şansı barədə danışmaqdan imtina edib: "Qızıl top" barədə heç nə deyə bilmərəm. Hazırda final oyununu düşünürük. Fransa ən güclü rəqiblərdən biridir. Ümid edirəm ki, onların qarşısında yetərli gücə sahib olacağıq".



## Prosineçkidən qələbə şərhi

"Bu, böyük uğurdur. İkinci hissədə ingilisləri öldürdük! Fransa ilə oyunu səbirsizliklə gözləyirik". Bu sözləri millimizin sabiq baş məşqçisi Robert Prosineçki ölkəsi Xorvatiya yığmasının DÇ-2018-in finalına yüksəlməsini şərh edərkən yerli mətbuata deyib.

"Mandzukiç, Modriç xarakteri ilə meydandakı digər komanda yoldaşları kimi mübarizə aparmağın nə olduğunu göstərdi. Bu futbolçular uğur qazanmağı bacaran oyunçulardır. Zlatko Daliçi təbrik edirəm" - deyə o bildirib.

Hazırda Bosniya və Herseqovina millisini çalışdıran Prosineçkinin sözlərinə görə, İngiltərə ilə yarımfinal görüşündə hesabda geri düşdükdən sonra nəticəni dəyişmək və oyuna nəzarəti bərpa etmək çətin idi: "Oyunun sonlarında daha da yaxşı idik. 120 dəqiqəlik oyunumuz tərifəlayiqdir".

Prosineçki hazırkı nəslin Xorvatiyada hökm sürən xoşbəxtliyi daha asan hiss edəcəyini söyləyib: "Bizimlə müqayisədə hazırkı nəslin sosial şəbəkələr və internetdə yazmaq imkanları var. Bu, onlara hazırkı ab-havanı hiss etmək imkanı yaradır".

Qeyd edək ki, Robert Prosineçki 1998-ci ildə dünya çempionatının bürünc medalını qazanıb. Həmin vaxt Xorvatiya yarımfinalda Fransaya 1:2 hesabı ilə uduzub.

## VAN BASTENDƏN NEYMARA MƏSLƏHƏT



Əfsanəvi hollandiyalı futbolçu Marko van Basten Braziliya yığmasının hücumçusu Neymara söz atıb. O, "sambaçı"nın dünya çempionatındakı oyunlar zamanı özünü tez-tez yerə atmasını pisləyib. Mundialda FİFA-nın texniki təhlilçisi kimi çalışan van Basten "PSJ"nin üzvünə bu xasiyyətindən əl çəkməyi məsləhət görüb: "Neymar karikaturaları? Futbolu yumorla müalicə etməyin hər zaman yaxşı olduğunu düşünürəm. Amma biz oyun barədə danışırıqsa, bu, heç də düzgün yanaşma deyil. Hesab edirəm ki, futbolda idman ruhunu göstərmək lazımdı. Futbolçular bilməlidilər ki, meydanda yuvarlanmaq onlara kömək etməyəcək. Neymar bunu başa düşməlidi".

Qeyd edək ki, Braziliya yığması 1/4 finalda Belçikaya məğlub olaraq dünya çempionatı ilə vidalaşıb.

## Polşada yeni baş məşqçi



Polşa milli komandasının yeni baş məşqçisi müəyyənləşib. DÇ-2018-dəki uğursuzluqdan sonra Adam Navalka ilə yollarını ayıran futbol federasiyası Jeji Brjeçeklə anlaşıb. 47 yaşlı mütəxəssislə müqaviləmin müddəti açıqlanmayıb. Onun son iş yeri Plotsk "Visla"sı olub.

Bejeçek futbolçu kimi də Polşa yığmasında çıxış edib. O, 1992-1999-cu illərdə formasını geydiyi millidə keçirdiyi 42 matçda 4 qol vurub.

# Müqəddəs gün yaxınlaşır

Mən Qazax rayonunun Ermənistanla həmsərhəd olan Xanlıqlar kəndində boya-başa çatmışam. Dağlıq Qarabağ müharibəsi başlayandan kəndimiz daim düşmən atəşinə məruz qalıb. Kiçik yaşlarımda düşünürdüm ki, böyüyəndə hərbçi olub mən də ermənilərin layiqli cavabını verəcəyəm. Bu amalla da orta məktəbi bitirəndən sonra Qazax rayon Hərbi Komissarlığından xahiş etdim ki, məni ön cəbhəyə göndərsinlər.

2008-ci ildə xidmətimi başa vurduqdan sonra "N" saylı hərbi hissədə qalıb xidmətimi davam etdirdim. 2011-ci ildə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzinin gizir hazırlığı kursuna daxil oldum. Kursu kəşfiyyat taqım komandiri kimi başa vurduqdan sonra Beyləqan rayonunda "N" saylı hərbi hissənin taqım komandiri vəzifəsinə təyin edildim. Xidmət etdiyim dövrdə bir neçə dəfə hərbi hissənin komandirləri tərəfindən fəxri fərmanlara layiq görüldüm, Azərbaycan Silahlı Qüvvələrinin 95 illik yubileyi medalı ilə təltif olundum. 2015-ci ildə Müdafiə Nazirliyinin əmri ilə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərildim. Həmin hərbi hissədə bir çox mühüm tapşırıqlar yerinə yetirdim.

Azərbaycan Silahlı Qüvvələrində xidmət etdiyim müddətdə ən unudulmaz anları 2016-cı ilin aprel ayında yaşadım. Həmin ayın əvvəllərində ermənilərin həyata keçirdikləri təxribatın qarşısını almaq üçün döyüşlərə atıldım. Həmin günlərdə Azərbaycan əsgərlərinin göstərdikləri şücaəti gözlərim önünə gətirəndə fəxr edirəm. Bu döyüşlərdə mən də sinəmi Vətən torpaqlarına sipər etdim. Yağı düşmənin atdığı güllə məni də yaraladı. Əsgər yoldaşlarımın köməyi ilə döyüş bölgəsindən çıxarılıb hərbi hospitala aparıldım. Bir müddət orada müalicə olundum.

Ötən ay Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə Bakıda keçirilən hərbi paradı hamı kimi mən də böyük fəxrlə izlədim. Bir daha ordumuzun qüdrətinə və qüvvəsinə məndə böyük inam yarandı. Yəqin ki, həmin paradı ermənilər də izlədilər. İzlədikcə də vahiməyə düşdülər. Ordumuzun son illər maddi-texniki bazasının güclənməsi ilə yanaşı, əsgər və zabitlərimizdə də böyük ruh yüksəkliyinin yaranmasının şahidi oldular. Ən müasir hərbi texnikalara baxdıqca ürəyim qürurla döyünürdü. Ürəyimdən bir hiss keçdi. Azərbaycan Ordusu nəinki Qafqazın, eləcə də inkişaf etmiş dünya ölkələrinin silahlı qüvvələri ilə müqayisə oluna bilər. Bu inkişaf isə tezliklə işğal olunmuş torpaqlarımızın düşməndən azad ediləcəyinə zəmin yaradır.

Dövlət başçısı da paraddakı nitqində dedi ki, gün gələcək işğal altındakı torpaqlar azad ediləndən sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətirilərək hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

***Əfqan DAŞDƏMİROV,***
***Qazax rayon Xanlıqlar kənd sakini, keçmiş hərbçi***

## B İ L D İ R İ Ş

Xızı Rayon İcra Hakimiyyətində keçiriləcək açıq tender elanının ilkin sənədlərinin qəbulu 30.07.2018-ci il saat 16:00 tarixinə, təkliflər və bank zəmanətlərinin təqdim olunması müddəti 01.08.2018-ci il saat 16:00 tarixinə, zərflərin açılması 10.08.2018-ci il saat 11:00 tarixinədək uzadılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*"Təmiz Şəhər" ASC xüsusi texnikalar üçün ehtiyat hissələrinin satın alınması məqsədi ilə keçirdiyi açıq tenderdə "Hayat Group" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.*

***Tender komissiyası***

# Bakının yay axşamları







*Bakının gündüzlərinin öz gözəlliyi, axşamlarının isə öz füsunkarlığı var. Mavi Xəzərin sahilində məskən salan paytaxtımızın axşamları dənizin bəxş etdiyi sərinlik, ləpələrin pıçıltısı ilə səfalı, çilçıraqların işığı ilə bənzərsiz olur. Dünyada analoqu olmayan dənizkənarı bulvar, çoxsaylı park və bağçalar şəhər sakinlərini yaşıl qoynuna alır.*

*Təsadüfi deyil ki, Bakı gecələri haqqında neçə-neçə şeir yazılıb, nəğmə bəstələnib. Ölkəmizdə aparılan genişmiqyaslı tikinti, abadlıq, quruculuq işləri paytaxtın simasında da özünü aydın göstərir. Nəticədə şəhər əhalisinin asudə vaxtını, işdən sonrakı istirahətini mənalı keçirməsi üçün gözəl şərait yaradılıb.*

*Bürkülü yay axşamlarında evdə darıxıb şəhərə üz tutanların - qocanın, cavanın, uşağın da mənalı istirahət etməsi üçün münasib yerlər kifayət qədərdir. Odur ki, axşam düşəndə yaşlıların parkların sakit guşəsində oturub söhbətləşdiyinin, balacaların müxtəlif əyləncə qurğularında oynayıb sevinməsinin, dənizi sevənlərin gəmi ilə qısa müddətli səyahətə çıxmalarının şahidi olursan. Çoxları axşamçağı dondurma yeyə-yeyə sərinləməyi xoşlayırlar. Ailəlikcə oturub açıq havada şam etməyin də öz ləzzəti var...*

*Foto Ağəli MƏMMƏDOVUNDUR, "Azərbaycan"*

# FHN Yevlaxda və Ağsuda baş verən yanğınlarla bağlı məlumat yayıb

Fövqəladə Hallar Nazirliyi (FHN) iyulun 12-də Yevlax və Ağsu rayonlarında baş verən yanğınlarla bağlı məlumat yayıb. FHN-dən AZƏRTAC-a bildiriblər ki, nazirliyin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə saat 16:15-də Yevlax rayonunun Xanabad kəndi yaxınlığında biçilmiş taxıl sahəsində yanğının baş verməsi barədə məlumat daxil olub. Əraziyə dərhal FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin (DYMX) yanğınsöndürmə qüvvələri və texnikası cəlb olunub. Görülmüş operativ tədbirlər nəticəsində yanğının yaxınlıqdakı yüksəkgərginlikli elektrik hava xətlərinə yaxınlaşmasının qarşısı alınıb (150-200 metr məsafədə). Alov 18:18-də yanğısöndürənlər tərəfindən söndürülüb.

Yanğın nəticəsində 79 hektar biçilmiş taxıl sahəsi və 1 hektar kol-kos yanıb. Yaxınlıqdan keçən yüksəkgərginlikli elektrik hava xətləri, meşə zolağı, ferma və ətraf ərazilər yanğından mühafizə olunub.

Saat 14:30 radələrində Ağsu rayonunun Bico kəndi yaxınlığındakı biçilmiş taxıl sahəsi və kol-kos olan ərazidə yanğın baş verməsi barədə də məlumat daxil olan kimi FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin canlı qüvvə və texnikası dərhal yanğının söndürülməsi işlərinə cəlb edilib.

Yanğının yüksəkgərginlikli elektrik hava xətlərinin yaxınlığında baş verməsi yanğının söndürülməsində çətinliklər yaradıb. Yanğın sürətlə geniş ərazilərə yayıldığından qonşu rayonlardan da FHN DYMX-nin canlı qüvvə və texnikası, Fövqəladə Hallar Nazirliyinin Aviasiya dəstəsinin "Be-200 ÇS" amfibiya təyyarəsi və "Mi-17" yanğınsöndürmə helikopteri, Mülki Müdafiə Qoşunlarının və Şimal-Qərb Regional Mərkəzinin canlı qüvvəsi və texnikası yanğınsöndürmə işlərinə cəlb olunub.

Həyata keçirilmiş operativ tədbirlər nəticəsində bu istiqamətdə yanğının yüksəkgərginlikli elektrik hava xətlərinə yaxınlaşmasının qarşısı alınıb. Hazırda yüksəkgərginlikli elektrik hava xətlərinə təhlükə yoxdur. Yanğının söndürülməsi istiqamətində işlər davam etdirilir.

Yanğının söndürülməsi işlərinə Ağsu Rayon İcra Hakimiyyətinin müvafiq qüvvələri və yerli əhali də cəlb edilib.

Əlavə məlumat veriləcək.

# Ermənistan aciz duruma düşüb

## *Rusiyalı politoloqların qondarma rejimə olan ittihamları işğalçı ölkədə böyük narahatlıq yaradıb*

Bu günlərdə tanınmış rusiyalı politoloqlar və siyasətçilər Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində "Bakı və Moskva arasında geopolitik ox: Azərbaycan Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir" mövzusunda keçirilmiş konfransda iştirak etmişlər. Onların arasında Rusiya Dövlət Dumasının korrupsiya ilə mübarizə üzrə komitəsinin sədr müavini Dmitri Savelyev, Dövlət Dumasının deputatı Aleksey Yezubov, jurnalist Maksim Şevçenko, hərbi ekspert İqor Korotçenko, Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Dugin və digərləri olmuşlar. Səfər zamanı rusiyalı qonaqlar cəbhə xəttindəki strateji Lələtəpə yüksəkliyini də ziyarət ediblər.

Dumanın deputatı Dmitri Savelyev konfransdakı çıxışında bəyan etmişdir ki, Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon qeyd-şərtsiz, mütləq şəkildə Azərbaycana qaytarılmalıdır. "Azərbaycan nadir ölkələrdən biridir ki, burada rus dili inkişaf edir. Azərbaycan Rusiyanı Dövlət Şurasında dəstəkləyir. Azərbaycan Rusiyanın Cənubi Qafqazda etibarlı müttəfiqidir. Baxmayaraq ki, biz Azərbaycana külli miqdarda silah satmışıq, amma bu, heç vaxt Rusiyanın öz əleyhinə yönələ bilməz. Ümid edirəm ki, Ermənistan müdrik olacaq və Dağlıq Qarabağ münaqişəsi öz həllini tapacaq. Ermənistan Dağlıq Qarabağı və ətrafındakı yeddi rayonu qeyd-şərtsiz, mütləq şəkildə Azərbaycana qaytarmalıdır" - deyə rusiyalı deputat vurğulamışdır.

Dmitri Savelyevin, digər rusiyalı politoloqların və ekspertlərin Cocuq Mərcanlıdakı konfransda obyektiv çıxışları ermənilərdə dərhal qıcıq yaratmışdır və təbii ki, onları ciddi narahat etmişdir. Odur ki, Ermənistanın Rusiyadakı səfirliyi bununla bağlı bəyanat yaymışdır. Məlumatda bildirilir ki, rusiyalı "...deputat Dmitri Savelyevin bəyanatları Qarabağda dinc tənzimlənməyə təhlükədir".

Əslində, ermənilərdən başqa reaksiya gözləmək də sadəlövhlük olardı.

Azərbaycanın Rusiya ilə Qafqazda yeganə etibarlı tərəfdaşlar olduğunu və strateji əlaqələr qurduğunu bildirən "Ekspertlər Klubu"nun üzvü Valeri Korovin isə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli inkişafın olduğunu qeyd edib.

"Rusiya və Azərbaycan mürəkkəb məsələlərin həlli üçün birgə səylər göstərirlər. Bu, beynəlxalq terrorizmlə mübarizə və digər təhlükələrdir. Bizim birlik kiməsə qarşı yönəlməyib. İşğal olunan rayonlardan 5-nin qaytarılması danışıqlar prosesinə nəzərəçarpacaq dərəcədə kömək edərdi". Bu sözlərin müəllifi isə hərbi ekspert İqor Korotçenkodur.

Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri Aleksandr Dugin Qarabağdan azərbaycanlılar qovulduqdan sonra qondarma rejimin heç vaxt legitim hesab oluna bilməyəcəyini diqqətə çatdırıb. "Əvvəl Azərbaycan, Ermənistan və Rusiya belə qərara gəlmişdilər ki, ilkin olaraq beş rayon qeyd-şərtsiz Azərbaycana qaytarılsın. Bu, sülhə yol açardı və bu məsələdə ən yaxşı variantdır. Ermənistanın indiki hökuməti buna real yanaşaraq razılaşmaya sadiq olmalıdır. Bu, sülhün yeganə yoludur".

"Rusiya-Azərbaycan münasibətlərinin böyük perspektivi var" - deyə çıxışına başlayan jurnalist və ictimai xadim Maksim Şevçenko bildirib ki, ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi vacibdir. O, işğaldan azad edilmiş ərazidə olmasından fəxr hissi duyduğunu da dilə gətirmişdir.

Ötən ay Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilmiş möhtəşəm parad, orada nümayiş etdirilmiş ən müasir silah və texnika da bütün dünyaya göstərdi ki, ölkəmiz Ermənistanın işğal etdiyi əraziləri qaytarmağa hazırdır. İyulun 2-dən 6-dək isə genişmiqyaslı təlimlər keçirilmişdir. Təlimlərdə 20 min hərbi qulluqçu, 120-yə yaxın tank və digər zirehli texnika, 200-dən çox raket-artilleriya qurğusu və s. iştirak etmişdir. Manevrlərdə işğal olunmuş ərazilərin azad edilməsi, habelə düşmənin təxribatçı fəaliyyətinin qarşısının alınması üzrə əməliyyatlar işlənmişdir.

Təbii ki, bütün bunlar Ermənistanda böyük narahatçılıq yaradır. İndi ermənilərin özləri də kriminal xunta rejiminin əsirinə çevrildiklərini anlayırlar. İndi işğalçı ölkədə dövlətçilik iflasa uğrayıb.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı Ermənistanda baş verənləri bir daha xatırlatmışdır: "Baxın görün Ermənistanda nələr baş verir? 20 il ərzində kriminal, korrupsioner, qaniçən, oğru, yalançı hakimiyyət tam iflasa uğradı. Mənim dediklərimi indi erməni xalqı deyir. Mən bir neçə dəfə ən mötəbər kürsülərdən, BMT kürsüsündən Ermənistanın əvvəlki hakimiyyətini ittiham etmişdim. Demişdim ki, bu, kriminal xunta rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu, korrupsiyaya qurşanmış oğru rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu rejim öz xalqının qanını içir. Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi, əslində, Ermənistanın dövlətçiliyinin iflasıdır. Çünki əgər müstəqilliyinin 26 ilində, onun 20 ili bu hakimiyyət altında keçmişdisə, onda bu dövlətin hansı müsbət cəhətləri var?! Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb... Ermənistanın iqtisadi perspektivləri demək olar ki, yoxdur. Bu ölkəyə investisiya qoymaq istəyən çətin ki, tapılsın. Bu ölkənin demoqrafik vəziyyəti acınacaqlıdır. Mən dəfələrlə demişəm ki, Ermənistandan hər il minimum 50-60 min insan köç edir. İndi bunu yeni hökumət təsdiqləyir... İqtisadi perspektivi olmayan ölkədə inkişaf da olmaz, sərmayə də qoyulmaz, insanların əhval-ruhiyyəsi də yaxşı səviyyədə olmaz".

Prezidentin dediyinə görə, aprel döyüşləri Ermənistanın çürük və laxlamış sütunlarını daha da sarsıtmışdır. Aprel döyüşləri Sarkisyan rejiminə elə böyük zərbə oldu ki, onlar iki il ərzində bu zərbədən özlərinə gələ bilmədilər və əlbəttə, uzun illər yaratdıqları mif, - guya onların ordusu güclü ordudur, - darmadağın edildi. Biz bu mifi məhv etdik... Ermənistan əhalisi yaxşı bilir ki, Azərbaycan hansı yüksək zirvəyə qalxa bilibdir: ölkə daxilindəki sabitlik, inkişaf, beynəlxalq əlaqələr, iqtisadi inkişaf, ordu quruculuğu, sosial məsələlərin həlli. Bizim aramızda yerlə-göy qədər fərq var və bu, bir daha göstərdi ki, Ermənistanı bu ağır vəziyyətə salan onların işğalçı siyasətidir. Əgər işğal olmasaydı, Ermənistan da bizim təşəbbüsümüzlə icra edilən layihələrdə yer ala bilərdi. Onlar da başqa ölkələr kimi bizim imkanlarımızdan faydalana bilərdilər və əlbəttə ki, onların iqtisadi vəziyyəti bu gün yaxşı ola bilərdi. Kriminal, 20 il ərzində erməni xalqının qanını içən oğru rejimin siyasəti nəticəsində ermənilər bu vəziyyətə düşdülər.

Bir daha vurğulayaq ki, Cocuq Mərcanlıda keçirilmiş konfrans da ermənilərin aciz və məğlub vəziyyətə düşdüyünü nümayiş etdirdi. Rusiyalı politoloqların çıxışı ermənilərə ciddi bir mesaj idi. Ermənistanda anlamalıdırlar ki, istər sülh, istərsə də müharibə yolu ilə Azərbaycanın əraziləri geri qaytarılacaq. Münaqişənin həllinə gəldikdə isə bunun bir yolu var: işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmalıdır. Ermənilər bunu nə qədər tez anlasalar, regionda sülh və sabitlik bir o qədər də tez bərqərar olar.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Enerji sisteminin dayanıqlığının qorunub saxlanılması üçün "Azərenerji" tərəfindən lazımi tədbirlər görülür

"Azərenerji" ASC-dən AZƏRTAC-a bildirilib ki, iyulun 12-də saat 15:30 radələrində Mingəçevir şəhərindən 151 kilometr məsafədə yerləşən Ağsu rayonunun Bico kəndi, eyni zamanda Yevlax rayonunun Xanabad kəndindən 20 kilometr məsafədə eyni vaxtda Hava Elektrik Veriliş xətlərinin yerləşdiyi ərazilərdə genişmiqyaslı yanğın törədilib. "Azərenerji" ASC-nin Mərkəzi Dispetçer İdarəsinə daxil olmuş məlumat əsasında, "Azərbaycan" İES və Mingəçevir SES-i Abşeron Yarımstansiyası ilə birləşdirən yüksəkgərginlikli 220 kilovoltluq Qəbələ, 220 kilovoltluq Ağsu və 330 kilovoltluq 1-ci Abşeron hava xətləri yanğına məruz qaldığı üçün baş verə biləcək ağır qəzanın qarşısını almaq məqsədilə dispetçerlər tərəfindən dövrədən ayrılıb.

Digər 500 kilovoltluq 2-ci Abşeron Hava xəttində isə yanğının təsiri nəticəsində qısaqapanma baş vermiş və xəttin mühafizəsi tərəfindən dövrədən ayrılıb.

Yüksəkgərginlikli 220-500 kilovoltluq hava xətlərinin altında törədilmiş hər hansı bir yanğının (onun istər başlanğıcı istərsə də inkişafı dövründə) nəticəsində hava xəttinin məftilləri ilə yer arasındakı hava izolyasiyasının elektrik möhkəmliyi kəskin dərəcədə azalır. Havanın temperaturunu və yanğın nəticəsində əmələ gəlmiş tüstünün tərkibini nəzərə alsaq, ərazidən keçən xəttin izolyasiyasının elektrik möhkəmliyinin tədricən aşağı düşməsi, məftillə yer arasında qısaqapanmaya gətirib çıxarır. Yanğından baş verən qisaqapanmanın aradan qaldırılması üçün xətt dövrədən açılır. Xətt təkrar qoşma avtomatı tərəfindən vurulduqda yanğının davam etməsi nəticəsində xətt yenidən açılır. Son nəticədə xəttin dövrəyə qoşulması mümkünsüz olur. Beləliklə, yanğın nəticəsində əsas güc ötürücü xətlərinin dövrəyə qoşulması mümkün olmur ki, bu da sistemin dayanıqlığının itirilməsi üçün böyük təhlükə yaradır.

Yüksək gərginlikli hava elektrik veriliş xətlərinin altında törədilmiş yanğın nəticəsində sistemin dayanıqlığının qorunub saxlanılması üçün "Azərenerji" ASC tərəfindən lazımi tədbirlər görülür.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynovaya atası

**MƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ombudsman Elmira Süleymanova Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İradə Hüseynovaya atası

**MƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İradə Əliyeva və Bəxtiyar Əzizli İradə və Elçin Hüseynovlara ataları

**MƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Mətanət A" şirkətinin rəhbəri Elxan Beşirov və kollektivi Şahbazovlar ailəsinə əzizləri

**SVETLANA ƏZİZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Şahbazovlar ailəsinə əzizləri

**SVETLANA ƏZİZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Əli Məhərrəmliyə əzizi

**VƏSİLƏ VERDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu Biofizika və molekulyar biologiya kafedrasının professoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynovaya atası

**MƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovaya və universitetin İqtisadiyyatın tənzimlənməsi kafedrasının dosenti Azər Hüseynova ataları

**MƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

TuranBank ASC-nin Müşahidə Şurası və İdarə Heyəti "MQS" MMC-nin baş direktoru

**RASİM ZAHİD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8505
Sifariş 2026